## Günün sözü

### Prezident İlham Əliyev:

**TÜRKSOY nəinki türkdilli dövlətlərdə, bütün türk diyarlarında fəal iş aparır və beləliklə, türk dünyasının birləşməsinə xidmət göstərir. Mən çox şadam ki, Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüs də artıq reallaşır. Türk Mədəniyyətinə Dəstək və Türk İrsinin Qorunması Fondunun tezliklə yaradılması çox önəmli hadisə olacaqdır.**



Səhifə ⇨ 2

## İran, sən arzuolunmazsan!

## Tacikistan–Azərbaycan: iqtisadi əməkdaşlığın hədəfləri

Səhifə ⇨ 6




# Xalq qəzeti

Xalqın qəzeti!

№ 71 (30187) 7 aprel 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


## Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistana dövlət səfəri başa çatıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistan Respublikasına dövlət səfəri aprelin 6-da başa çatıb.**

Düşənbə şəhərinin Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi Tacikistan Prezidenti Emoməli Rəhmon yola saldı.

*AZƏRTAC*

## Böyük uğurlar müdrik rəhbərlik sayəsində qazanılır

**Ötən əsrin 90-cı illərindən başlayan, qarşılıqlı inam və etimada söykənən Azərbaycan-Tacikistan əlaqələri bu gün yüksələn xətlə inkişaf etməkdədir.**

Son illər rəsmi Bakının Mərkəzi Asiya respublikaları ilə münasibətlərində hissolunacaq canlanma, dinamizm müşahidə edilir. Bu, heç də təsadüfi deyil. Çünki çağdaş dünyada cərəyan edən proseslər müxtəlif amillərə görə bir-birinə yaxın ölkələrdən birgə əməkdaşlıq, ortaq layihələr reallaşdırmaq və səyləri birləşdirmək zərurətini ortaya çıxarıb. Azərbaycanın xarici siyasətində bu amillərin prioritetə çevrildiyinin hamımız şahidiyik.

Prezident İlham Əliyevin son bir neçə ildə Mərkəzi Asiya respublikalarına ardıcıl səfərləri, eləcə də həmin dövlətlərin başçılarının Azərbaycana səfərləri bu əlaqələrin daha da genişlənməsi, dərinləşməsi və strateji xarakter alması baxımından böyük əhəmiyyət kəsb edir. Cənab Prezidentin Tacikistana dövlət səfərinə də məhz bu prizmadan yanaşmaq doğru olardı. Tacikistan Prezidenti Emoməli Rəhmonun dəvəti əsasında həyata keçirilən səfər iki dost və qardaş ölkə arasında diplomatik münasibətlərin qurulmasının 31-ci ildönümünə təsadüf edib.

**(ardı 6-cı səhifədə)**

## Azərbaycan daha bir beynəlxalq qurumun iclaslarına sədrlik edəcək

*Bu tədbirin Türk dünyasının mədəniyyət paytaxtı Şuşada başa çatdırılması da qürurvericidir*

**Bəlkə də bu, beynəlxalq aləmdə gedən ictimai-siyasi proseslər, xüsusən, Azərbaycanın 2020-ci ilin payızında regionda yaratdığı yeni reallıqları qəbul etmək istəməyənlərin canfəşanlığı fonunda eşitmək istədiyimiz ən yaxşı xəbərlərdən biridir.**

Kütləvi informasiya vasitələri yazırlar ki, aprelin 7-də Bakıda Azərbaycan Respublikası Prezidenti yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı, ADA Universiteti və universitetin İnkişaf və Diplomatiya İnstitutunun birgə təşkilatçılığı ilə TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu iclasının açılış mərasimi keçiriləcək.

**(ardı 3-cü səhifədə)**



## Xankəndiyə tankla getməyimizimi istəyirlər?

Səhifə ⇨ 3



Səhifə ⇨ 4

### “Zəngəzur müharibəsi” riski – Okeanın o tayından Arazın o tayına baxış

### Sadələşdirilmiş gömrük dəhlizi Türk birliyinin yüksəlişinə xidmət edəcək



Səhifə ⇨ 7

### Əl saxlayın, cənablar!



Səhifə ⇨ 10

## Beynəlxalq hüquq Qərbi Azərbaycana Qayıdışa təminat yaradır

Səhifə ⇨ 9



Səhifə ⇨ 3

### Şuşanın tacik qardaşı – İsfara

### Qarabağda “şər qüvvələr”ə meydan yoxdur





Səhifə ⇨ 4



Səhifə ⇨ 4

### İrəvan KTMT-dən ümidini üzməyib, amma...

### Trampın təqsiri varmı?



Səhifə ⇨ 10

# İranın ölkəmizdəki səfirliyinin 4 əməkdaşı "persona-non-grata" elan edildi

**Aprelin 6-da İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb.**

Görüş zamanı İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib.

İran səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb və həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib.

***"Xalq qəzeti"***

# Azərbaycan Avropa Şurasının daha bir mühüm müqaviləsinə imza atıb



**Ötən il Azərbaycan "Ekstradisiya haqqında" Avropa Konvensiyasının təslimetmə prosedurunun effektivliyinin artırılmasına xidmət edən Dördüncü Əlavə Protokolu ratifikasiya edib, bu sahədə səmərəli əməkdaşlıq aparılır. İkinci Əlavə Protokolun əhəmiyyəti nəzərə alınaraq ölkəmizin həmin sənədə qoşulması qərara alınıb.**

Azərbaycan dövləti adından bu sənədi imzalamaq üçün ədliyyə naziri Fikrət Məmmədov Strasburqda olub, Avropa Şurası Baş katibinin müavini Byorn Berqenin və digər məsul şəxslərin iştirakı ilə həmin protokolun imzalanması mərasimi keçirilib.

Görüşdə ədliyyə naziri Avropa Şurası ilə əməkdaşlıqda ölkəmiz üçün 2022-2025-ci illər üzrə qəbul edilmiş Fəaliyyət Planının implementasiyası çərçivəsində Avropa Məhkəməsi qərarlarının icrası ilə bağlı layihənin həyata keçirildiyini vurğulayıb. Nazirin ədliyyə, o cümlədən penitensiar, habelə məhkəmə sistemində aparılan və beynəlxalq aləmdə təqdir olunan islahatlar və yeniliklər barədə verdiyi məlumat maraqla qarşılanıb.

Baş katibin müavini B.Berqe Avropa Şurasının ölkəmizlə əməkdaşlığının yüksək səviyyəsini qeyd edərək, may ayında quruma üzv dövlətlərin başçılarının sammitinin keçiriləcəyini bildirib.

Səfər çərçivəsində Strasburqda İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri xanım Siofra O'Liri ilə də ikitərəfli görüş keçirilib.

Keçirilən görüşlərdə Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov və Avropa Məhkəməsinin Azərbaycandan olan hakimi Lətif Hüseynov iştirak ediblər.

***"Xalq qəzeti"***

# Azərbaycanda "Kərimə" dövlətini qurmaq istəyən "müqavimətçi dəstə" saxlanıldı

**Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq əməkdaşları tərəfindən bir qrup şəxsin İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində və dini təbliğat yolu ilə ələ alınaraq ölkə ərazisində sabitliyin pozulması istiqamətində törədəcəkləri cinayət əməllərinin qarşısının alınması məqsədilə birgə xüsusi kompleks əməliyyat tədbirləri həyata keçirilib.**



Bu barədə Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluğu birgə məlumat yayıb.

Müəyyən edilib ki, İranda yaşayan həmin ölkənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və Bəxtiyar Bayramov Tərtər rayon sakini Arif Cümşüdovu şirnikləndirici vədlər müqabilində ələ alaraq ona ölkə ərazisində silahlı iğtişaşlar törətməklə hakimiyyətin ələ keçirilməsi və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə şəriət qanunları ilə idarə olunan "Kərimə" dövlətinin qurulması məqsədilə "müqavimətçi dəstə" yaratması barədə tapşırıqlar veriblər.

Arif Cümşüdov verilmiş tapşırıqlar əsasında ətrafında olan dini radikalizmi təbliğ edən tanışları - Tərzan Qaraşov, Sənan Məmmədov, Xaqani Məmmədov və İqbal Axundovu bu işə cəlb edib. O, yaşadığı evdə mütəmadi olaraq təşkil etdiyi gizli yığıncaqlarda Rufulla Axundzadə və Bəxtiyar Bayramovun göstərişlərini həmin şəxslərə çatdırıb. Dəstə üzvləri əlavə şəxslərin də cəlb edilmələri istiqamətində fəaliyyətlər göstərərək bu barədə Rufulla Axundzadəyə məlumat veriblər.

Bundan başqa Rufulla Axundzadə Bakı şəhər sakini Anar İsayevi də əməkdaşlığa cəlb edərək ona da ölkə ərazisində iğtişaşların törədilməsi yolu ilə "Kərimə" dövlətinin qurulması üçün "müqavimətçi dəstə" təşkil etməyi tapşırıb. Rufulla Axundzadə yüksək maddi gəlir, silah və digər bütün lazımi dəstəyin veriləcəyini vəd edərək təşkilatlanmaları və birgə fəaliyyət göstərmələri məqsədilə Anar İsayevi Arif Cümşüdovla tanış edib.

Saxlanılan şəxslər özlərini cəmiyyətdə "dindar" kimi qələmə verərək sosial şəbəkələr üzərindən, eləcə də insanların toplaşdığı mərasimlərdə İran və dini radikalizm lehinə təbliğat apararaq Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün xaricdən aldıqları tapşırıqları yerinə yetiriblər.

Dəstə üzvləri eyni zamanda İrandan məqsədli şəkildə göndərilən narkotik vasitələrin satışını təşkil edərək əldə etdikləri külli miqdarda pul vəsaitini məhz Azərbaycanda dini radikalizmin təbliğinə və digər pozuculuq fəaliyyətlərinin maliyyələşməsinə sərf ediblər.

Bu istiqamətdə əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

***"Xalq qəzeti"***

# İran, sən arzuolunmazsan!

## *"Persona-non-grata", yoxsa "diplomatik qranat"?*

**İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşı "persona-non-grata" elan edildi və onlara ölkəmizi tərk etmək üçün 48 saat vaxt verildi. Açığı, indiyədək Azərbaycandakı hansısa xarici dövlətin diplomatik nümayəndəliyinin belə bir aqibətlə üzləşdiyini xatırlamırıq.**



Hər halda bu cür sərt addımın atılmasında kifayət qədər ciddi səbəblər olmalıdır və heç şübhəsiz, var. Hərçənd, Azərbaycan Xarici İşlər Nazirliyi müvafiq məlumatında konkret səbəb açıqlamır. Görünür, bu, diplomatik etiketlərin tələbidir. O da görünür ki, İran səfirliyinin həmin 4 əməkdaşı diplomat etikasına məhəl qoymayıb. Azərbaycan XİN Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyasını əbəs yerə yada salmır. İranlı diplomatların fəaliyyəti məhz bu sənədə zidd hesab edilib. Elə bunun özü də kifayət qədər ciddi əsasdır.

Yada salaq ki, bir neçə aydır ölkəmizin hüquq-mühafizə orqanlarının təmsilçiləri İran casuslarına qarşı əməliyyat-istintaq tədbirləri həyata keçirməkdədir. Bu mübarizə davamlı və geniş miqyas alıb. Vaxtaşırı İslam respublikasına məxsus casus şəbəkəsinin hansısa üzvü aşkar edilib ifşa olunur. Düşünmək olar ki, həmin şəbəkənin yerli vahid koordinasiya mərkəzi də mövcuddur. Bu baxımdan ilk ağıla gələn isə səfirlikdir.

Son aylarda İran səfirliyinin fəaliyyəti çox da gözə dəymir. Əlbəttə, bu mənada bir neçə gün öncə diplomatik missiyanın Azərbaycan XİN-ə təqdim etdiyi etiraz notası istisnadır. Hərçənd, sənədin qeyri-iş günündə təqdim olunmasını da yada salmalıyıq. Deməli, səfirlik normal fəaliyyətdən kənardır. Anormallıq deyərkən isə ağıla ilk gələn casus şəbəkəsinə himayədarlıqdır. Əlbəttə, söylədiyimiz ittiham deyil, ehtimaldır. Ancaq əsaslı sayıla biləcək ehtimaldır.

Xatırlayaq ki, İranın bir sıra strateji beyin mərkəzləri İslam respublikası ilə Azərbaycan arasındakı münasibətlərdən bəhs edərkən Tehranın Bakıdakı ali təmsilçiliyini, az qala, satqınlıqda günahlandırıblar. Bu qurumların təmsilçiləri bildiriblər ki, Azərbaycandakı nümayəndəliklər rəsmi Bakının təzyiqləri qarşısında geri çəkiliblər, susqunluq göstəriblər. Ancaq onu da nəzərə alaq ki, Bakı ilə Tehran arasında gərginlik heç vaxt indiki kimi olmayıb. Deməli, hazırda səfirlik vəziyyətə adekvat davrandığından, Azərbaycan dövlətinin narazılığı ilə üzləşib.

Susmağa gəlincə isə bəli, İran səfirliyi diplomatik susqunluğa sadiqdir. Diplomatik təmsilçilik neçə aylardır ki, Azərbaycan mediasının suallarını cavablandırmaqdan boyun qaçırır.

Hər bir halda İranın Azərbaycandakı səfirliyinin 4 əməkdaşının "persona-non-grata" elan edilməsi sıradan bir məsələ deyil.

Ancaq Bakıdan uzaqlaşdırılmaq Tehrandakı terrordan min dəfə yaxşıdır. Bir də latınca "arzuolunmaz adam" mənası verən "persona-non-grata" ifadəsi rusca "partladıcı" anlamına gələn "qranat" sözünü yada salır. "Qranat" ki var onu elə partlamamış "non-qrata" eləmək lazımdır.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# İrandan gələn "ağ ölüm" zərərsizləşdirildi

**Dövlət Sərhəd Xidməti Mətbuat mərkəzindən redaksiyamıza verilən xəbərdə bildirilir:**

Aprelin 5-də saat 22:10-da "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Dövlət Gömrük Komitəsinin əməkdaşlarının birgə keçirdiyi tədbirlər nəticəsində ümumi çəkisi 11 kiloqram 300 qram narkotik vasitənin və 1000 ədəd Metadon M-40 psixotrop həblərin qaçaqmalçılıq yolu ilə İrandan Azərbaycan ərazisinə keçirilməsinin qarşısı alınıb.

***"Xalq qəzeti"***

# Siyasi məsləhətləşmələr aparılıb



**Aprelin 6-da Kişineuda Xarici İşlər və Avropaya İnteqrasiya Nazirliyində Moldova-Azərbaycan idarələrarası siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Moldova nümayəndə heyətinə dövlət katibi Ruslan Bolboçan, Azərbaycan nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Xələf Xələfov başçılıq edib. Müzakirələrdə ikitərəfli münasibətlər, regional vəziyyət, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələlərə toxunulub.

Məsləhətləşmələr zamanı Moldova-Azərbaycan əməkdaşlığının gündəliyində duran aktual məsələlər müzakirə edilib, tərəflər son vaxtlar intensivləşmiş ikitərəfli siyasi dialoqu inkişaf etdirməyə və daim gücləndirməyə hazır olduqlarını təsdiqləyiblər. Bu kontekstdə hər iki ölkənin rəsmi şəxslərinin qarşılıqlı səfərlərinin yüksək səviyyədə təşkilinə maraq təsdiq edilib.

Eyni zamanda, həmsöhbətlər Moldova ilə Azərbaycan arasında sahəvi əməkdaşlığın inkişaf etdirilməsi səylərinin vacibliyini qeyd ediblər, qarşılıqlı fəaliyyət istiqamətləri arasında, xüsusilə enerji, ticarət-iqtisadi, kənd təsərrüfatı və investisiya sahələri vurğulanıb.

Bu mənada Moldova-Azərbaycan İqtisadi Əməkdaşlıq Üzrə Hökumətlərarası Komissiyasının platformasında dialoqun davamlı şəkildə təşviq edilməsinin mümkünlüyü qeyd edilib.

Məsləhətləşmələrin iştirakçıları suverenlik və ərazi bütövlüyünə qarşılıqlı dəstəyin təsdiqlənməsi, regional təhlükəsizliyə yönəlmiş hadisələrlə bağlı fikir mübadiləsi aparıblar.

Eyni zamanda, görüşdə iki ölkə arasında BMT, Avropa Şurası, GUAM kimi beynəlxalq və regional platformalarda əməkdaşlığın gücləndirilməsində maraqlı olduqları təsdiqlənib.

***AZƏRTAC***

# Beynəlxalq axtarışa verilmiş şəxs Moldovadan Azərbaycana ekstradisiya edilib

**Azərbaycan Respublikası Baş Prokurorluğunun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin vəsatəti əsasında Moldova Respublikasının Baş Prokurorluğu tərəfindən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 1993-cü il 22 yanvar tarixli Konvensiyaya əsasən, Türkiyə Respublikasının vətəndaşı Kıvcı Abdulkadirin ekstradisiyası haqqında qərar qəbul edilib.**

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsində istintaq olunan cinayət işi üzrə Kıvcı Abdulkadirin qabaqcadan əlbir olduğu bir qrup şəxslə qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsini təşkil etməsinə əsaslı şübhələr müəyyən olunduğundan o, Cinayət Məcəlləsinin 200-1.2.2-ci, 200-1.2.3-cü və 206.3.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində beynəlxalq axtarış elan edilib.

Moldova Respublikasının ərazisində saxlanılan Kıvcı Abdulkadir aprelin 5-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə gətirilib.



***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Xankəndiyə tankla getməyimizimi istəyirlər?

## Azərbaycanın tibbi yardım avtomobili Ermənistanda ictimai rəyi titrətdi

**Belə çıxır ki, Xankəndiyə tankla getməli idik. Hər halda, şəhər xəstəxanasına erməni pasiyentlərini çatdırmış Azərbaycana məxsus təcili tibbi yardım avtomobili ilə bağlı Ermənistan cəmiyyətində gedən diskussiyalar bunu deməyə əsas verir. Hayların ictimai rəyi xəstədir. Xəstəliyə xüsusi "rəng" qatan isə Qarabağdakı separatçı rejimin təmsilçiləridir.**




Bu qənaətə də gəlmək mümkündür ki, Ermənistan cəmiyyəti insanpərvərlik hisslərindən uzaqdır. Xəstə ermənilərə tibbi yardım göstərmişik, deməli, etməli deyilmişik, lazımsızmış. Haylar tarix boyu sadiq qaldıqları nankorluq xislətlərini yenə də ortaya qoymaqdadırlar. Sən demə, dığalara Azərbaycana məxsus avtomobilin Xankəndiyə gedib çıxması yer eləyibmiş. Buna görə hadisənin baş tutmasına imkan verilməsini mümkünsüz sayılan insident kimi qiymətləndiriblər. Yollara nəzarəti sərtləşdirməyin zəruriliyinə dair fikirlər səsləndiriblər.

Guya, nəzarəti gücləndirib, gələcəkdə belə halların qarşısını alacaqlarmış. Göründüyü kimi, Ermənistan ictimai rəyi hər şeyi bu qədər primitiv görməkdədir. Hələ bunların bir qədər ağıllıları var ki, adi bir insanlıq hadisəsindən böyük siyasi mənalar çıxarmaqdadırlar. Bu barədə də söz açacağıq. Hələlik isə Azərbaycanın, guya, Laçın yolundan keçən Qarabağın erməni sakinlərini qorxutmağa yönəlmiş davranışlar həyata keçirməsinə dair iddialardan başlayaq.

Bəli, gərək Xankəndi küçələrində Azərbaycan əsgərinin çəkməsinin izləri qalmalıdır ki, Ermənistan cəmiyyəti ağlını başına toplasın. Bütün insani hisslərdən məhrum xəstə toplumu başqa cür yola gətirmək mümkünsüz görünür. Baxın, bu toplumun nümayəndələri nə deyirlər? Onlar bildirirlər ki, Laçın yolu bağlı olduğundan, Ermənistandan Qarabağa gedən ermənilər xeyli vaxt itirirlər, üstəlik, guya, azərbaycanlılar tərəfindən hədə-qorxulara və psixoloji təzyiqlərə məruz qalırlar. Belə bir şəraitdə dörd erməni qadının halı pisləşib, onlardan üçü huşunu itirib. Yəni, vurğu onun üzərinə qoyulur ki, məhz bundan sonra Şuşadan Azərbaycanın təcili tibbi yardım maşınları gəlib və Xankəndi yolçuluğu başlayıb. Deməli, günahkar biz imişik...

Açığı, Ermənistandan Qarabağa gələnlərin Laçın yolunda 5 saat vaxt itirmələri müsbət haldır. O anlamda ki, Azərbaycan tərəfdən keçid prosesi ciddi şəkildə yoxlanılır. Başqa cür mümkün deyil. Bir qədər yumşaqlıq edəndə, yaxud işi bölgədəki Rusiya sülhməramlı kontingetinin (RSK) hərbçilərinin öhdəsinə buraxanda, hansı mənfi halların yaşandığını gördük – yoldan silah-sursat, canlı qüvvə keçirdilər. Bu, azmış kimi, məkrli niyyətləri naminə ətrafdakı torpaq yollardan da yararlandılar. Görünür, hazırda belə yarıtmazlıqların qarşısı alınıb. Laçın yolunda sərt nəzarət tətbiq edilib.

Yekun nəticədə bütün bunlar, əlbəttə, Qarabağın sadə ermənilərinə də pis təsir göstərir. Yəqin, elə buna görə vaxt itirməli olurlar. Gedib "təşəkkürlərini" Ermənistanın siyasi rəhbərliyinə, onunla əlbir "fəaliyyət" göstərən separatçı rejimin təmsilçilərinə bildirsinlər. Əlbəttə, korrupsioner fəaliyyətə qurşanmış RSK komandanlığını da unutmasınlar. Yaxşı-yaxşı bilsinlər ki, əgər, hətta hadisə yuxarıda təsvir etdikləri kimidirsə, yəni dörd erməni qadın, yolda çox qalmaq səbəbindən, səhhətində narahatlıq hiss edibsə, bu zaman da müqəssir Azərbaycan deyil. Ölkəmiz üç il naqisliklərə dözüb. Daha dözməyəcək.

Əlbəttə, Xankəndiyə erməni xəstələrini çatdıran Azərbaycanın tibb işçiləri özlərinin peşə borclarını yerinə yetiriblər. Ermənistan mediası, ümumən, ölkənin ictimai rəyi bunu insanların iztirabları ilə manipulyasiya tipli psevdohumanizm şousu adlandırırsa, deməli, dövriyyəyə yuxarıda haqqında bəhs etdiyimiz tanklar, əsgər çəkmələri girməlidir. Elementar məntiq var – xoşluq yaramırsa, zor olmalıdır. Zor, həm də ona görə olmalıdır ki, erməni mediası məsələni Azərbaycanın öz vətəndaşı olan ermənilərə yardım göstərməsi kimi qəbul etmək məntiqindən tam uzaqdır. Mövcud fonda ölkəmizin reinteqrasiya çağırışları, sanki, məsxərə predmetinə çevrilməkdədir.

Hələ bu, azmış kimi, Qarabağda separatçı rejimdən bildirilib ki, aprelin 4-də erməni xəstələrin Xankəndiyə aparılması ilə yekunlaşmış insident Qarabağ ermənilərinin hüquqlarının kobud şəkildə pozulmasıdır və guya, bu hadisə bölgə əhalisinin deportasiyası məqsədilə həyata keçirilən planın başlanğıcıdır. Bu qədər həyasızlıq olar? Hələ həyasızlığın Ruben Vardanyanın yerinə təyin edilmiş yeni "dövlət naziri" Qurgen Nersisyan "zirvəsi" də var. Onun sözlərinə görə, hadisədən sonra xəstələrin Ermənistana daşınması Beynəlxalq Qırmızı Xaç Komitəsinin separatçı rejimdəki nümayəndəliyi vasitəsilə gerçəkləşdiriləcəkdir.

Burada meydana maraqlı məsələ çıxır. Tutaq ki, bölgədə BQXK-nin təmsilçiləri ola bilər. Qurumun separatçı rejimdə nümayəndəliyi də var? Hesab edirik ki, Azərbaycanın əlaqədar orqanları məsələni diqqətdə saxlamalıdırlar. Belə bir nümayəndəlik, həqiqətən, varmı? Varsa, hansı əsasda fəaliyyət göstərir?

***

Yeri gəlmişkən, Xankəndiyə Azərbaycanın təcili tibbi yardım maşınının yollanması ilə bağlı duruma Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin də münasibət bildirib. O, ölkəsinə məxsus sülhməramlıları tərifləməklə kifayətlənib və belə təəssürat yaranıb ki, səfir məsələ ətrafında RSK-ya ünvanlanmış tənqidləri neytrallaşdırmaq istəyib: "Rusiya sülhməramlıları ağır şəraitdə fəaliyyət göstərirlər, onların rolu Ermənistan rəhbərliyi tərəfindən tanınır. Sülhməramlılarımızın rolu həm həyat dəstəyini təmin etmək, həm də mümkün eskalasiya cəhdlərinin qarşısını almaq üçün vacibdir. Siz onların necə fəaliyyət göstərdiyini çox yaxşı bilirsiniz. Bu barədə məlumat daim dərc olunur. Bunu Ermənistan rəhbərliyi də etiraf edir".

Əlbəttə, erməni ekspertlərin və siyasətçilərinin Bakının Qarabağı tam nəzarət altına almaqda tələsdiyini bildirmələrində həqiqət payı yox deyil. Bu, məlum məsələdir. Söhbət ondan gedir ki, Ermənistan rəhbərliyi prosesi ləngitmək, imkan daxilində, tamamilə, qarşısını almaq, vəziyyəti donduraraq status-kvonu qeyri-müəyyən vaxtadək saxlamaq yolunu tutur. Başqa sözlə desək, Azərbaycanın haqqını tanımaqdan boyun qaçırır.

Ölkəmiz Qarabağın bütün ərazisində de-fakto qanuni hakimiyyətini bərpa etməkdə israrlıdır və bunu reallaşdıracaqdır. Prezident İlham Əliyevin də bildirdiyi kimi, İrəvan məsələ ilə nə qədər tez barışsa, bir o qədər ona xeyirdir. Ancaq görünən budur ki, xeyir avantüraya və onun psixi pozuntu halı almış xəstəlik təzahürlərinə qurban verilməkdədir.

***

Məsələn, Qarabağ ermənilərinin, guya, blokadada qaldıqları məntiqini qabardan Ermənistan parlamentinin müxalif "Mənim şərəfim var" fraksiyasından olan deputatı Tiqran Abramyan deyir ki, Azərbaycan onları evlərini tərk etmələrinə nail olmaq və bu yolla problemi aradan qaldırmaq istəyir.

Təbii, ölkəmiz öz məramını gizlətmir. Qarabağda yaşayan erməni əhalini Azərbaycan vətəndaşı kimi tanıdığını bəyan edən ölkəmizin rəsmiləri mövqelərində kifayət qədər ardıcıl və prinsipialdırlar. Yəni, Qarabağda qalıb Azərbaycan yurisdiksiyası altında yaşamaq istəyən ermənilər üçün hər hansı problem yoxdur. Yox, əgər, bunu istəməyəcəklərsə, bölgəni tərk edə bilərlər. Ölkəmiz Qarabağa tam sahiblənmək yolundakı detalları nəzərə almayacaqdır. Qarabağ erməniləri çalışıb özlərini detal olmaqdan çıxarmalı, vətəndaş kimi təsdiqləməlidirlər. Bunun yolu isə Ermənistan hakimiyyətinin və Qarabağdakı separatçı rejimin oyunlarında alətə çevrilməməkdən keçir.

***

Bu mənada Yerevan mətbuat klubunun sədri, analitik Boris Navasardyanın fikirlərini, müəyyən qədər, pozitiv, yəni vəziyyəti düzgün dəyərləndirmiş kimi hesab etmək mümkündür. Onun sözlərinə görə, Bakının hərəkətlərində Laçın dəhlizinin işləməsi üçün Qarabağdakı separatçı rejimə və Rusiya sülhməramlılarına öz qaydalarını tətbiq etmək istəyi var: "Azərbaycan həm Laçın dəhlizində, həm də Qarabağda vəziyyətə tam nəzarət etmək üçün tələsir. Onun məqsədlərinə nə vaxt və nə qədər çata biləcəkləri, bu, bir çox hallardan asılı olacaq, lakin heç şübhəsiz, Bakı inadla bu məqsədə doğru irəliləyir".

B.Navasardyan onu da bildirib ki, əsas problem Ermənistan hakimiyyətinin Qarabağ məsələsini dünyaya humanitar fəlakət kimi təqdim etməsindədir. "Bunu (fəlakəti – red.) aradan qaldırmaq Azərbaycan üçün, sadəcə, lütfdür. Bakı bildirir ki, vətəndaşlarının humanitar problemlərinin həlli üçün tədbirlər görməyə hazırdır. Nəticədə Qarabağ xalqının öz müqəddəratını təyinetmə hüququ kölgədə qalır", – deyən erməni analitik bu düşüncədədir ki, İrəvanın siyasəti hazırkı vəziyyətə qeyri-adekvatdır. Erməni elitanın Azərbaycanın Qarabağ üzərində tam nəzarəti genişləndirmək planlarını ciddi qəbul etməməsi isə doğru yanaşma deyil: "Bakının məqsədi çoxdan bəllidir, müvafiq olaraq, İrəvan onun davranışında müəyyən korrektələrə nail olmaq üçün danışıqlarda maraqlı olmalı idi. Erməni tərəfi belə bir təşəbbüs göstərmədiyindən, Azərbaycan tərtib etdiyi proqramı həyata keçirir".

B.Navasardyan hər şeyi açıqca izah etdi. Əslində, erməni cəmiyyətinin Qarabağ isteriyasının mənasızlığını da bildirdi. İndi qalır, onun dediklərinə ciddi yanaşılması. Təəssüf ki, bu yanaşma yoxdur və belə olmayacaqsa, Xankəndiyə Azərbaycana məxsus təcili tibbi yardım avtomobili deyil, ölkəmizin tankları daxil olacaq. Belə olarsa o tankların tırtılları altında qalıb əzilənlər də mütləq olacaq.

*Ə.CAHANGİROĞLU, "Xalq qəzeti"*

---

*Dostluq meridianı*

**Qarabağın qeyrət qalası Şuşa ilə Türküstan dağ silsiləsinin cənnət guşəsi İsfaranın qardaşlaşması Azərbaycan və Tacikistan arasında dostluq və səmimi əməkdaşlıq münasibətlərinin rəmzi sayılır.**

Xəbər verdiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyevin Düşənbəyə dövlət səfəri zamanı Şuşa şəhəri ilə Tacikistanın İsfara şəhəri arasında qardaşlaşma əlaqələrinin qurulmasına dair protokol imzalanıb. Sənədi Azərbaycan tərəfdən Prezidentin Şuşa rayonu üzrə xüsusi nümayəndəsi Aydın Kərimov, Tacikistan tərəfdən isə İsfara şəhərinin rəhbəri Baxovaddin Baxodurzoda imzalayıblar.





# Şuşanın tacik qardaşı – İsfara

İsfaranın Türk dünyasının mədəniyyət paytaxtı Şuşamıza qardaş seçilməsi heç də təsadüfi deyil. Çünki bu iki şəhər arasında oxşar cəhətlər kifayət qədərdir. Həm coğrafi mövqeləri, həm yerləşdiyi iqlim qurşağı, həm də şəfaverici müalicə ocaqları onları, təbii olaraq, bir-birinə daha da yaxınlaşdırır və qardaşlaşdırır.

Tacikistanın Soqdi vilayətində eyniadlı rayonun inzibati mərkəzi sayılan İsfaranın ərazisi 881 kvadratkilometr, əhalisi 210 min nəfərdir. Ölkənin mədəni və iqtisadi cəhətdən inkişaf etmiş rayonu sayılan İsfarada çoxsaylı müalicəvi kurort və sanatoriyalar vardır. Onların arasında ən məşhuru "Zumrad" sanatoriyasıdır.

Türküstan dağ silsiləsinin ətəyində qərar tutmuş İsfara dörd tərəfdən əsrarəngiz dağlarla əhatə olunub. Buranın təbiəti indi artıq qardaşlaşdığı Şuşanın təbiətinə bənzəyir. Respublikanın şimal-şərqində, Fərqanə vadisində dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən İsfaranın iqlimi də Şuşamızın iqliminə çox yaxındır. Burada havanın temperaturu qışda mənfi 25 dərəcəyədək düşür, yayda isə müsbət 35 dərəcəyə qədər qalxır. Bəzi mənbələrə görə, İsfara sözünün mənası "istirahət yeri" deməkdir.

* * *

Oxucularımıza onu da xatırladaq ki, Şuşa-İsfara qardaşlığına qədər Bakı və Düşənbə şəhərləri arasında Qardaşlaşma haqqında memorandum imzalanıb. Bir qədər əvvəl isə Xocənd şəhəri ilə Gəncə qardaşlaşıb.

Əslində, İsfara şəhəri ilə Şuşanın qardaşlaşması faktının özü rəsmi Düşənbənin respublikamızın suverenliyini və ərazi bütövlüyünü tanıması və qəbul etməsinin bir daha təsdiqidir. Bu qardaşlaşma, eyni zamanda, Azərbaycan və tacik xalqları arasında əsrlər boyu davam edən mədəni əlaqələrin, dostluğun, həmrəyliyin rəmzi kimi qəbul edilməlidir. Azərbaycanda dünən olduğu kimi bu gün də tacik mədəniyyətinə xüsusi dəyər verilir və yüksək qiymətləndirilir. Tacikistanda isə bu ölkənin mədəni həyatında yaxından iştirak etmiş, xüsusilə musiqi və heykəltəraşlıq sahələrində dəyərli sənət əsərləri yaratmış azərbaycanlı sənətkarların xidmətlərini və xatirələrini unutmurlar.

İndi artıq həm qədim, həm də çağdaş ortaq mədəniyyətimizə aid nümunələrin Azərbaycanda və Tacikistanda nümayiş etdiriləcəyi yeni məkanlar var. Bunlar iftixar hissi ilə bir-birinə qardaş deyəcək Şuşa və İsfara şəhərləridir.

*İ.HƏSƏNQALA, "Xalq qəzeti"*

---

# Azərbaycan daha bir beynəlxalq qurumun iclaslarına sədrlik edəcək

**(əvvəli 1-ci səhifədə)**

Bu xəbəri bizim üçün əhəmiyyətli edən məqamlardan biri də odur ki, Bakıda başlayıb Şuşada başa çatacaq tədbirin iştirakçılarının UNESCO-nun həm 44 günlük İkinci Qarabağ müharibəsi zamanı, həm də öz ərazilərimizi düşmən tapdağından azad edəndən sonra sərgilədiyi xoşagəlməz mövqeyə münasibət bildirməsi mümkün olacaq. Doğrudur, Türk dövlətləri həmin biganəliyə öz münasibətlərini dəfələrlə bildiriblər. İndi isə söz həmin dövlətlərin UNESCO-dakı təmsilçilərinindir.

Biz UNESCO-dan nəyi gözləyirik? Sadəcə, ermənilərin Azərbaycan ərazilərində törətdiyi barbarlığın miqyasını "görsünlər" və həmin vəhşilikləri öz missiya və funksiyalarına uyğun şəkildə qiymətləndirsinlər. Etiraf edək ki, əvvəllər UNESCO rəhbərliyi həmin faktları görüb və qınayıb. Ancaq bu quruma Fransa təmsilçisinin rəhbər seçilməsindən sonra UNESCO, sözün həqiqi mənasında, ədalətdən, həqiqətdən və obyektivlikdən uzaq düşüb. Daha doğrusu, Türk dünyasının üzləşdiyi problemlərin heç birini "görmür", ya da görmək istəmir.

Bakıda keçiriləcək tədbirin bizim üçün digər əhəmiyyəti isə odur ki, açılış zamanı TÜRKSOY-a üzv ölkələrin UNESCO üzrə Milli Komissiyalarının 9-cu dövr sədrliyi Türkiyə Respublikasının UNESCO üzrə Milli Komissiyasından Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyasına ötürüləcək. Yəni, bundan sonrakı tədbirlərə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov sədrlik edəcək. İclasın Şuşada keçiriləcək bağlanış mərasimində isə tədbirin yekun bəyanatı qəbul ediləcək.

Azərbaycanın UNESCO-da və TÜRKSOY-dakı təmsilçilikləri barədə söz açmazdan əvvəl bir tarixi çıxışı yada salmaq istərdim. Belə ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun o zamankı xoşməramlı səfiri Mehriban xanım Əliyeva 2019-cu il iyunun 30-da Bakıda, Heydər Əliyev Mərkəzində keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının açılış mərasimindəki çıxışında demişdi: "Biz qəti şəkildə inanırıq ki, sülh mədəniyyətinin toxumları yalnız dialoq və qarşılıqlı hörmət vasitəsilə cücərə bilər. Mən burada mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqi üçün əsl qlobal platformaya çevrilmiş və Azərbaycanın başladığı "Bakı prosesi"ni xatırlatmaq istəyirəm. 2008-ci ildə Bakıda ilk dəfə başlanmış beynəlxalq konfrans Avropa Şurasının üzv dövlətlərinin mədəniyyət nazirlərini ümumi narahatlıq doğuran məsələlər ətrafında dialoqa başlamaq üçün İslam Əməkdaşlıq Təşkilatının üzv dövlətlərindən olan həmkarları ilə bir masa arxasında toplamışdı".

Bəli, Azərbaycan sülhə, dialoqa, qarşılıqlı hörmət və ehtirama töhfələr vermək üçün həmişə qətiyyətli addımlar atmış və UNESCO rəhbərliyi gənc müstəqil dövlətimizin həmin iradəsini daim yüksək qiymətləndirmişdir. Bu arqumentimizin dəqiqliyini sübut etmək üçün həmin beynəlxalq təşkilatın bir sıra mühüm tədbirlərini məhz Bakıda keçirdiyini xatırlatmaq kifayətdir. Bir daha xatırladaq ki, UNESCO-nun Azərbaycana qarşı olan xoşməramlı münasibətlərinə Azərbaycanofobiya mərəzindən əziyyət çəkən fransız xanım Odri Azule son qoyub.

Ekspertlərin fikrincə, biz onsuz da xalqımıza qarşı Qərbdən gələn ikili standartlara öyrəşmişik. Ancaq onun UNESCO kimi nüfuzlu beynəlxalq strukturu şəxsi, simpatiya bəslədiyi və ya vətəndaşı olduğu dövlətin maraqlarının qurbanına çevirməsi təəssüfedici hal olmaqla yanaşı, həm də qeyri-peşəkarlığın bariz göstəricisidir.

Qərəz, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra – 1992-ci il iyunun 3-də UNESCO-ya qəbul edilmişdir. 1993-cü ilin ikinci yarısından sonra isə bu əməkdaşlıq rəsmi Bakının UNESCO-nun bütün konvensiyalarına qoşulması ilə nəticələnmişdir. Bizi daha çox cəlb edən sənəd "Silahlı münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 14 may 1954-cü il Konvensiyası (1993), ona dair Birinci Protokol (1993) və İkinci Protokol (2000)" adlı konvensiya idi. Çünki tarixi düşmənlərimizin işğal olunmuş ərazilərimizdə nələri törədəcəyini yaxşı bilirdik.

Ölkəmizin bu qurumda təmsilçiliyinə gəlincə, deyə bilərik ki, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan UNESCO-nun Nizamnaməsinin 7-ci maddəsinə əsasən, üzv dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini UNESCO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Bu səbəbdən UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmışdır. Azərbaycan Prezidenti Heydər Əliyevin 21 fevral 1994-cü il tarixli sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi yanında UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılmışdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 15 sentyabr 2005-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilmiş və Milli Komissiyanın tərkibi müəyyənləşdirilmişdir. Dövlət başçımızın 10 mart 2015-ci il tarixli, 11 iyul 2016-cı il tarixli, 29 avqust 2018-ci il tarixli, 12 noyabr 2019-cu il tarixli və 25 fevral 2020-ci il tarixli sərəncamları ilə Milli Komissiyanın tərkibində bir sıra dəyişikliklər edilmişdir. Hazırda, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədri Xarici işlər naziri Ceyhun Bayramovdur.

Ölkəmizin TÜRKSOY-dakı fəaliyyəti barədə söz açarkən isə qeyd edək ki, Türk mədəniyyəti və incəsənətinin inkişafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci ildə İstanbul və Bakı şəhərlərində keçirilmiş Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkiyə və Türkmənistan respublikaları mədəniyyət nazirlərinin görüşləri gedişində əldə edilmiş razılaşmalar əsasında yaradılmışdır. İndi bu quruma Azərbaycan, Qaqauziya, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Respublikası, Tatarıstan, Türkiyə, Türkmənistan və Özbəkistan respublikaları daxildir.

Adı çəkilən tədbirin yekunlaşacağı Şuşa şəhərinə gəlincə isə qeyd edək ki, TÜRKSOY Daimi Şurasının 2022-ci il martın 31-də Bursada keçirilən növbədənkənar iclasında Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhəri 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Tədbirdə Şuşanın qədim tarixi, zəngin mədəniyyəti, xalqımız üçün əhəmiyyəti və işğaldan azad edildikdən sonra həyata keçirilən layihələr barədə iştirakçılara ətraflı məlumat verilmişdir.

Bəli, bu gün Bakıda xalqımız, dövlətimiz və ümumilikdə, Türk dünyası üçün xüsusi önəm kəsb edən beynəlxalq tədbir öz işinə başlayır. Məmnunuq ki, ölkəmizin siyasi paytaxtında başlanan bu tədbir Türk dünyasının mədəniyyət paytaxtında davam etdiriləcək və müvafiq sənədin imzalanması ilə başa çatdırılacaq.

*İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"*

# "Zəngəzur müharibəsi" riski – Okeanın o tayından Arazın o tayına baxış

*Azərbaycan günbəgün öz məqsədlərinə doğru gedir, Ermənistan isə...*






**Bir qayda olaraq, ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin kölgəsi kimi qələmə verilən nüfuzlu "Stratfor" analitik şirkəti Qarabağda və Azərbaycan-Ermənistan sərhədində yeni hərbi eskalasiya risklərini təhlil edib. Bununla bağlı material "haqqin.az" saytında yayımlanıb.**

"Stratfor"un təhlilində, konkret olaraq, Azərbaycan və Ermənistan arasındakı sülh danışıqlarının dalana dirəndiyi, Qarabağda yeni hərbi qarşıdurma ehtimalının artdığı vurğulanıb. Şirkətin ekspertləri hesab edirlər ki, Azərbaycan irimiqyaslı əməliyyatlara başlasa belə, İranın münaqişədə birbaşa iştirakı "ağılsızlıqdır".

Xatırladaq ki, Azərbaycan Ordusu martın 25-də Qarabağın Xankəndi-Xəlfəli-Turşsu yolunu nəzarətə götürüb, martın isə 29-na keçən gecə isə Ermənistanla sərhədin Tex kəndi istiqamətində yeni mövqelər ələ keçirib. "Stratfor" bu əməliyyatları "gərginlik spiralı" kimi xarakterizə edib və onları Bakının, faktiki olaraq, dondurulmuş danışıqlar prosesinə cavabı sayıb. Qurumun analitiklərinin fikrincə, danışıqların olmaması şəraitində Azərbaycan güc tətbiqi də daxil olmaqla, öz təsirini daha da nümayiş etdirəcək və bu, diplomatik tərəqqiyə təkan verəcəkdir.

Maraqlı məqamlardan biri də ondadır ki, "Stratfor"un analitikləri Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi yaratmaq niyyətini, Azərbaycanın mövqeyində irəliləyiş kimi qiymətləndiriblər. Onların sözlərinə görə, hazırda regional tranzit dəhlizlərinin açılması və sərhədlərin demarkasiyası əsasən texniki detallardan asılıdır. Keçmiş Dağlıq Qarabağ regionunun gələcəyi ilə bağlı fikir ayrılıqları isə yekun sülh sazişinin imzalanmasına əsas maneədir.

"Danışıqlar dalana dirəndiyi halda, Azərbaycan, çox güman ki, Qarabağda taktiki cəhətdən əlverişli əraziləri azad etmək üçün kiçikmiqyaslı cəhdlərə və ya Ermənistan–Azərbaycan sərhədi boyunca oxşar taktikalara əl atacaq" – fikrini gündəmə gətirən amerikalı təhlilçilər onu da vurğulayırlar ki, 2020-ci ilin noyabrında atəşkəs sazişinin (Azərbaycan, Rusiya və Ermənistan liderlərinin üçtərəfli Bəyanatı – red.) imzalanmasından sonra Bakı bu strategiyadan dəfələrlə yararlanıb, diplomatik irəliləyiş əldə edib və eyni zamanda, təsir rıçaqlarını artırıb.

"Stratfor" analitiklərinin fikrincə, Azərbaycanın hazırda Rusiya sülhməramlı qüvvələrinin nəzarətində olan və ya Zəngəzurdakı əraziləri ələ keçirmək üçün genişmiqyaslı əməliyyatlara başlayacağı ehtimalı azdır. Onların bildirdiklərinə görə, Bakı daha az xərc tələb edən üsullarla məqsədlərinə çatmağa doğru gedir.

Amerikalı təhlilçilər, həmçinin, bildirirlər ki, Azərbaycan qüvvələri nə vaxt irəli getsə, taktiki mövqelərini təkmilləşdirirlər. Hətta, həqiqi təmas xəttinin yerdəyişmələri cəmi bir neçə metr olsa belə, bu işlər aparılır. Genişmiqyaslı hərbi əməliyyat təhlükəsini artıran belə manevrlər Azərbaycan hökumətinin danışıqlar rıçaqlarını daha əhəmiyyətli edir. Böyük ərazilərin tutulması ilə müqayisədə bu strategiya Bakıya öz təsir gücünü artırmağa imkan verir.

Azərbaycan özünün xeyrinə olacaq sülh sazişini lüzumsuz şəkildə təhlükəyə atmaqda maraqlı deyil. Davamlı normallaşma prosesləri vasitəsilə digər ölkələrlə, o cümlədən, Rusiya, ABŞ, Avropa İttifaqı və hətta Türkiyə ilə münasibətləri dəyişmək cəhdlərinə baxmayaraq, Ermənistanın, Azərbaycanın təsirini ciddi şəkildə sarsıda biləcək, hər hansı xarici tərəfdaşlığı təmin edə bilmə ehtimalı çox azdır.

Bu fikirləri diqqətə çatdıran "Stratfor" ekspertləri, İranın bölgədəki rolunu da təhlil ediblər. Mövcud xüsusda qeyd olunub ki, Tehran Zəngəzur dəhlizinin açılmasına qarşıdır, çünki onun nöqteyi-nəzərindən həmin dəhliz Zəngəzurun Azərbaycanın nəzarətinə keçməsinə gətirib çıxara və bununla da İranın Qara dənizə çıxışını əngəlləyə bilər. Nəticə etibarilə Tehran Azərbaycana qarşı təhdidlərini, habelə, Ermənistanla diplomatik əlaqələrini gücləndirir.

"Stratfor"un təhlilində o da bildirilir ki, İran onun üçün xırda təzyiq üsullarından yararlanaraq, qarşıdakı müddətdə Bakını hədələməkdə davam edəcək. Ancaq əgər Azərbaycan, həqiqətən, Zəngəzuru nəzarətə götürmək istəsə, o zaman Tehranın regional münaqişədə birbaşa iştirak ehtimalı son dərəcə aşağıdır. Bunun baş verməsi İran üçün təhlükə yaradacaq, Türkiyə ilə müharibə riski formalaşdıracaqdır.

***R.ƏVƏZ, "Xalq qəzeti"***

*Ekoaksiyanın gündəliyi*

# Qarabağda "şər qüvvələr"ə meydan yoxdur

**Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinin Azərbaycan ərazisində qalmasının qeyri-mümkünlüyü barədə ekokönüllülərin tələbi düşmən ölkəni getdikcə çıxılmaz vəziyyətə salır. Vaxtilə işğal etdiyi ərazilərimizdə bütün vasitələrlə terror törətməyə nail olan "şər qüvvə"nin amansızlıqla həyata keçirdiyi dağıdıcılıq missiyası sona çatmaqdadır.**

Torpaqlarımızda zaman-zaman vəhşilik törədən, kənd və şəhərlərimizin külünü göyə sovuran, meşələrimizi dağıdan ermənilər vandalizm hərəkətlərinə bəraət qazandırmaqda çətinlik çəkirlər. Ölkəmizin ekologiya könüllülərinin mütəşəkkil aksiyası da Qarabağın yeraltı sərvətlərinin amansızcasına talan edilməsinə dünyanın diqqətini cəlb etməklə, onların bütün yalanlarını alt-üst edir.

Üç aydan artıq davam edən aksiyanın ilk günlərində Ermənistan mətbuatı etirazçıların Laçın-Xankəndi yolunu bağlamaları barədə dezinformasiya yaymağa cəhd etsə də, növbəti uğursuzluqla üzləşib. Elə ekoaksiyanın dünən keçirilən 116-cı günündə də humanitar məqsədlər üçün yolun açıq olması, eyni zamanda Rusiya sülhməramlılarına məxsus avtomobillərin aksiya ərazisindən maneəsiz keçidinin təmin olunması ilə bağlı həqiqətlər dünya gündəmini zəbt edib.



Aksiya iştirakçısı "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli "Xalq qəzeti" ilə fikirlərini bölüşərkən düşmənimizin çox amansız, məkrli və hiyləgər olduğunu, bunu döyüş meydanında da, dinc insanlara, təbiətə münasibətdə də sübut etdiklərini bildirdi. Qeyd etdi ki, aksiya erməni tərəfinin ötən illər ərzində işğal olunmuş ərazilərimizdə ekoloji terror həyata keçirməsini dünya diqqət mərkəzində saxlayır. Düşmən işğal bölgəsində qiymətli filiz yataqlarını qanunsuz və qaydalara uyğun olmayan tərzdə istismar edib, nadir ağaclar bitən meşə sahələrini məhv edib, çayları, gölləri zəhərləyib. Ermənilər qanunsuz olaraq Kəlbəcər rayonu ərazisində yerləşən Zod, keçmiş Ağdərə rayonu ərazisindəki "Qızılbulaq", "Dəmirli" və Zəngilan rayonundakı "Vejnəli" qızıl yataqlarını standartlardan kənar şəkildə, ətraf mühitə ziyan vurmaqla istismar edirdilər. Həmin yataqlar hər il ermənilərə on milyonlarla dollar qanunsuz qazanc gətirirdi. Azərbaycan tərəfi dəfələrlə sülhməramlılara xəbərdarlıq edərək qızıl yataqlarının qanunsuz istismarına son qoyulmasını, ərazidə monitorinq aparılmasına şərait yaradılmasını tələb etmişdilər. 2022-ci il dekabrın 12-də bir qrup ekologiya yönümlü QHT rəhbərinin təşəbbüsü ilə Şuşanın girəcəyində Xankəndi-Laçın yolunda etiraz aksiyası başlandı.

Aksiyada mən də iştirak edirdim. Vətəndaş cəmiyyəti fəallarının məqsədi heç də gediş-gəlişə mane olmaq, yolu bağlamaq deyildi. Biz sülhməramlıların rəhbəri general Volkovla görüşmək, tələblərimizi ona çatdırmaq istəyirdik. Aksiyada "Ekoloji cinayətə son!", "Qızıl yataqlarının qanunsuz istismarı dayandırılsın!", "Ərazidə ekoloqların monitorinqinə şərait yaradılsın!" tələbləri səsləndirilirdi. Yeri gəlmişkən, düşmən tərəfindən, guya, azərbaycanlı fəalların yolu bağlaması, Qarabağ iqtisadi rayonunda yaşayan erməni əhalisinin blokadaya alınması ilə bağlı yaydıqları informasiyaların heç bir əsası yoxdur. 116 gündür ki, aksiya davam edir. Lakin bu günə qədər erməni vətəndaşlarımızın blokadaya alınması ilə bağlı hər hansı fakt qeydə alınmayıb. Xankəndi ilə Ermənistan arasında Laçın yolu humanitar məqsədlər üçün açıqdır. Hər gün oradan onlarca yük və minik avtomobili keçir.

Dövlət başçısı İlham Əliyev də çıxışlarının birində vurğuladı ki, yol aksiyanın ilk günündən humanitar məqsədlər üçün açıqdır. Biz Qarabağ iqtisadi rayonunda yaşayan erməni vətəndaşlarımza problem yaratmaq istəmirik. Xankəndi Azərbaycan ərazisidir, orada yaşayanlar da bizim vətəndaşlarımızdır. Biz istəyirik ki, Xankəndi-Laçın yolu ilə Qarabağa silah-sursat, mina daşınmasın. Onsuz da son 27 ildə işğaldan azad olunmuş ərazilərimiz mina ilə çirkləndirilib. Ərazilərimizdə təxmini rəqəmlərə görə, 1 milyondan çox mina basdırılıb. Minaların təmizlənməsi illərimizi alacaq. Azərbaycan tərəfi istəyir ki, erməni əhalisi cəmiyyətə inteqrasiya olunsun.

Elman Cəfərli onu da bildirdi ki, son vaxtlar Azərbaycan Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin reinteqrasiyasının həyata keçirilməsi istiqamətində müxtəlif addımlar atıb. Ümid edirik ki, Qarabağ iqtisadi rayonunda yaşayan ermənilər, nəhayət reallığı dərk edəcək, revanşist qüvvələrin fitnəsinə uymayıb Azərbaycan cəmiyyətinə inteqrasiya prosesini sürətləndirəcəklər. Xalqımızla yanaşı, sülh, sabitlik içərisində və təhlükəsiz şəraitdə yaşamaq istəyən erməni vətəndaşlarımıza da silahsız, minasız, ekoloji cəhətdən təmiz Qarabağ – təmiz dünya lazımdır.




***Leyla QURBANOVA, "Xalq qəzeti"***

**Haylar 44 günlük Vətən müharibəsi dövründə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT), guya, onlara dəstək vermədiyini hələ də "həzm edə" və öz aləmlərində onu bağışlaya bilmirlər. Ona görə guya yazırıq ki, hayların iddiasının əksinə olaraq, KTMT Ermənistana hər zaman hərbi-siyasi dəstək verib. Ancaq sıralarında Ermənistandan savayı postsovet məkanının 5 dövlətinin (Rusiya, Belarus, Qazaxıstan, Qırğızıstan və Tacikistan) birləşdiyi təşkilatın rəsmi İrəvana dəstəyi qurumun nizamnaməsi əsasında olub. Nizamnamənin yurisdiksiyasına Ermənistanın beynəlxalq ictimaiyyət tərəfindən tanınmış əraziləri daxildir. Ermənistan isə özünü ərköyün uşaq kimi aparır və KTMT-ni istər Azərbaycanla müharibə dövründə, istərsə də ondan sonra nizamnamədən kənar hərəkətlərə sövq etmək istəyib.**

# İrəvan KTMT-dən ümidini üzməyib, amma...



Müharibədən sonrakı dövrdə Ermənistanla Azərbaycan arasında üç ciddi insident olub. 2021-ci ilin mayında iki ölkənin şərti sərhədində – Zəngəzur bölgəsində, Qaragöl ətrafında gərginlik yaşanıb. Ölkəmizin torpaqları 30 il işğal altında qaldıqdan sonra beynəlxalq səviyyədə tanınmış sərhədlərini bərpa etməsi Ermənistanda "Azərbaycan hərbçilərinin sərhədi pozub 3,5 km ölkənin içərisinə doğru hərəkət etməsi" kimi qəbul olunub. Həmin ilin noyabrın 15-16-da 44 günlük müharibədən sonra ilk dəfə şərti sərhədin Kəlbəcər istiqamətində qanlı döyüşlər baş verib. Nəhayət, 2022-ci ilin sentyabrın 12-14-də gecə saatlarında Ermənistan ordusunun Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində genişmiqyaslı təxribatlar törətməsi ilə postmüharibə dövrünün ən ciddi hərbi toqquşması yaşanıb. Bu hadisələrin hər biri baş verən günlərdə və ondan sonrakı dövrdə Ermənistan ən yüksək səviyyədə KTMT-yə müraciət edərək təşkilatı qəti tədbirlər görməyə çağırıb. KTMT isə öz nizamnaməsi çərçivəsində hərəkət edib, təmkinli davranıb və İrəvanın avantürasına getməyib.

Onu da qeyd edək ki, həm 2021-ci ilin noyabr, həm də 2022-ci ilin sentyabr döyüşləri Ermənistanın KTMT-yə rotasiya qaydasında sədrlik etdiyi dövrdə baş verib. Təşkilatdan umduğu dəstəyi ala bilməyəndən sonra Ermənistanla KTMT arasında münasibətlərdə ciddi soyuqluq yaranıb. İş o yerə gəlib çatıb ki, Ermənistanın baş naziri KTMT-nin ali orqanı olan Kollektiv Təhlükəsizlik Şurasının 2023-cü ilin noyabrın 23-də İrəvanda keçirilən sammitinin bəyannaməsini imzalamaqdan imtina edib. Sammit Ermənistan üçün tam fiasko ilə nəticələnib. KTMT üzvləri toplantıda aydın şəkildə öz mövqelərində qaldıqlarını və bu mövqedən geri çəkilməyəcəklərini bildiriblər.

Bundan sonra "nicatı" Qərbdə axtaran rəsmi İrəvan sonda Avropa İttifaqının mülki missiyasının şərti sərhədin Ermənistan tərəfinə yerləşdirilməsinə nail olub. 2022-ci ilin oktyabrın 20-də iki ay müddətinə yerləşdirilən missiyanın müddəti sonradan uzadılıb. Bu ilin fevralın 20-də Aİ Ermənistanda səlahiyyət müddəti iki il olan mülki missiyasının fəaliyyətə başladığını elan edib.

***

KTMT rəsmi İrəvanın avantürasına getməsə də, iki stulda eyni vaxtda oturmağa adətkərdə olan hayların xəyanətkar xislətinə bələd olan Moskva Aİ missiyasının gəlişindən sonra hərəkətə keçib. KTMT-nin nüvəsində dayanan ölkənin – Rusiyanın yüksək vəzifəli şəxsləri İrəvanı öz orbitlərindən kənara çıxmağa qoymaqda maraqlı olmadıqlarını nümayiş etdiriblər. Onların Ermənistana KTMT missiyasının göndərilməsinə hazır olmaqla bağlı açıqlamaları son günlər daha da intensivləşib. Sonuncu dəfə məsələyə aprelin 5-də Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova münasibət bildirib. O, keçirdiyi brifinq zamanı deyib ki, KTMT missiyasının regiona göndərilməsi Ermənistandan asılıdır. Xanım Zaxarovanın sözlərinə görə, Rusiya Ermənistanın KTMT missiyasını qəbul etməkdə marağının olmasından məmnunudur: "İnanırıq ki, bu addım regiondakı vəziyyətin sabitləşməsinə yardım edəcək. Həm Rusiya, həm də digər müttəfiqlər KTMT missiyasını göndərməyə hazırdırlar. Belə qərarlar KTMT çərçivəsində razılaşdırılır və təsdiq olunur. O ki qaldı, KTMT missiyasının regiona göndərilməsinin vaxtına, mənə elə gəlir, burada hər şey aydındır, hər şey erməni həmkarlarımızdan asılıdır. Onlar hazır olan kimi, biz KTMT-nin müşahidə missiyasının hansı konkret modallıqda olacağı ilə bağlı predmetli işə qayıda bilərik. Ona görə də, top İrəvanın tərəfindədir".

Ermənistanın Xarici işlər naziri Ararat Mirzoyan isə martın 20-də rusiyalı həmkarı ilə Moskvada keçirdiyi birgə mətbuat konfransında qeyd edib ki, KTMT missiyasının göndərilməsi ilə bağlı qərar layihəsi müzakirə olunur və layihə üzərində iş davam edir: "Bizim təəssüratımıza görə, KTMT, sanki özü-özünün məsuliyyət zonasını aydın tanımırdı. Burada bizim üçün əsas olan bu idi. Amma bir daha deyirəm, qərar layihəsi masa üzərindədir, iş davam edir".

KTMT Katibliyinin nümayəndəsi Yuri Şuvalov da qurumun şərti sərhədə missiya göndərməyə hazır olduğunu bildirib: "Qafqaz kollektiv təhlükəsizlik regionuna gəlincə, təşkilat Ermənistanın təhlükəsizliyinin təmin edilməsi maraqları naminə Ermənistan-Azərbaycan sərhədinə KTMT missiyasını göndərməyə və digər yardımlar göstərməyə daim hazırdır".

*Ekspert rəyi*



**Şair Ramaldanov, ehtiyatda olan polkovnik:**

– KTMT-nin şərti sərhəddə yerləşməsinin Azərbaycana heç bir təsiri ola bilməz. Azərbaycanın Ermənistana ərazi iddiası yoxdur. Bu missiyanın gəlişi baş tutsa, o, delimitasiya və demarkasiya işlərində iştirak edə bilər. Orada Aİ-nin missiyası var. Bu missiya həm KTMT-ni, həm də Rusiyanı qıcıqlandırır. Ermənistan öz ərazisində kimi yerləşdirir-yerləşdirsin, bizim buna müdaxilə etmək fikrimiz yoxdur.

Digər tərəfdən, KTMT-nin Ermənistan istisna olmaqla, bütün üzvləri Azərbaycanla çox yaxşı münasibətdədirlər. Cənab İlham Əliyevin yürütdüyü siyasət sayəsində Azərbaycanın istər Rusiya, istər Belarus, istərsə də digər KTMT üzvləri ilə münasibətləri yüksək səviyyədədir. KTMT missiyasının gəlişi ilə də Azərbaycanın maraqlarına zidd hansısa addım atılacağını düşünmürəm. Biz Rusiyanın da, Belarusun da, Orta Asiya ölkələrinin də bu məsələdə mövqeyini bilirik. Mən düşünürəm ki, Aİ-nin missiyasındansa, orada KTMT missiyası daha faydalı ola bilər. Çünki Aİ missiyası Fransa tərəfindən təşkil edilmiş missiyadır. Təsadüfi deyildir ki, missiyanın Brüsselə göndərdiyi hesabatlar da erməni yönümlüdür.

Öz növbəsində KTMT-nin baş katibi İmanqali Tasmaqambetov bəyan edib ki, Qarabağda və şərti sərhəddə vəziyyət gərgin olaraq qalır və KTMT ölkələrində sabitliyin pozulması riskləri yaradır. Tasmaqambetov katibliyin və KTMT-nin birgə qərargahının rəhbər heyətinin genişləndirilmiş iclasında deyib: "Ermənistan və Azərbaycan arasında uzun illər davam edən ziddiyyətlər nəticəsində Qafqaz regionunda gərginlik davam edir". O əlavə edib ki, KTMT mövcud və yaranan çağırışlara, təhdidlərə qarşı mübarizə mexanizminin təkmilləşdirilməsi üzərində daim çalışır.

***

KTMT-nin missiyasının bölgəyə gəlib-gəlməyəcəyini, onun fəaliyyətinin nə dərəcədə uğurlu olub-olmayacağını, sözsüz ki, zaman göstərəcək. Ancaq Aİ missiyasının Ermənistanda mövcud olduğu bir dövrdə KTMT qüvvələrinin gəlişi heç də uğurlu kombinasiya sayıla bilməz. İstər Aİ, istər KTMT, istərsə də hansısa digər hərbi-siyasi missiya Azərbaycanın regionda yaratdığı yeni reallıqları dəyişmək gücünə malik deyil. Bunu Brüsseldə, Moskvada və İrəvanda da aydın başa düşürlər.

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

# Heydər Əliyev: “Əgər ədalətsizlik olubsa, onu bərpa etmək mənim işimdir...”

**“Heydər Əliyev xatirələr işığında” layihəsinin qonağı olmuş ictimai-siyasi xadim Əhməd Əhmədzadə ilə söhbətimizi davam etdiririk.**

## III söhbət

... Növbəti düşərgədə görüşümüz də sona çatırdı. Heydər Əliyev çıxışını bitirib camaata müraciət etdi ki, kimin sözü, sualı var? Bir gənc qız dedi, mənim bir xahişim var. Dedi: “Buyur qızım, de”. Dedi: “Mənim qardaşım bu sovxozda baş aqranom işləyirdi. Sovxoz direktoru onu çıxarıb. Ailəmiz əziyyət çəkir. Xahiş edirik onun yerinə qaytarılmasına kömək edəsiniz”. Diqqətlə Heydər Əliyevə baxıram ki, indi bu qıza nə deyəcək. Dedi: “Qızım, mən padşah deyiləm. Mən Mərkəzi Komitənin birinci katibiyəm. Mən ədalətin tərəfini saxlayan insanam. Əgər ədalətsizlik olubsa, onu bərpa etmək mənim işimdir. Görürəm, siz bu birinci katibinizə çox inanırsınız. Mən də ona inanıram. Mən ona tapşıraram, əgər ədalətsizlik olubsa, bərpa edər”.

Görün Heydər Əliyev bu sözlərlə neylədi. Mənim nüfuzumu qaldırdı. Sovxoz direktoruna dərhal göstəriş vermədi ki, qaytar, bərpa elə o adamı işə”.

Toplantı qurtarandan sonra gəlib maşına oturduq. Dedi: “Əhmədzadə, kolxozçu qız ki, müraciət etdi, onu araşdırmadan, səbəbini öyrənmədən qardaşını işə qaytarma. Sovxozun direktorunun çıxışı mənim xoşuma gəldi. Biz bu təsərrüfatları onun kimi adamların hesabına dirçəldə bilərik. Çox təcrübəli adama oxşayır. Biz belə adamları qorumalıyıq. Bax, əgər ədalətsizlik olubsa, bərpa elə, olmayıbsa yox”.

Dedim: “Heydər Əliyeviç, o aqronomu mən işdən çıxartmışam, sovxoz direktoru yox. İşdən də uzaqlaşdırmamışam. Ayrı iş vermişəm. Savadı, intizamı yerində olan gənclərdəndir. Amma o şəhərdən olan bir qızla evləndi, sonra yoldaşını kəndə apara bilmədi və o da məcbur olub şəhərdə qaldı. İndi mənzil kirayələyib şəhərdə qalır. Ona görə də, hər səhər durub yoldaşını aparır işə, ordan gəlir kəndə. Belə olanda iş yerinə 9-10-a çatır. Aqronom isə gərək səhər saat 6-7-də iş başında olsun. Mən bir il onu gözlədim ki, bu problemi yoluna qoysun. Bir nəticə hasil olmadı. Sonra şəhərdə kənd təsərrüfatı birliyində ona iş verdim. İndi də uşaqları var, heç cür kəndə getməyəcək”. Dedi: “Düz etmisən. Kənd təsərrüfatı spesifik bir sahədir, gərək burda mütəxəssis daim iş başında olsun”.

Baxın bir gündə Heydər Əliyev özünün gənc kadrına hansı idarəçilik dərsi keçdi. Mən belə bir insanın, dahinin dərsləri ilə idarəçilik məktəbi keçmişəm. Bu gün çox xoşbəxtəm və fəxr edirəm ki, mən onun kadrıyam. Bəzən o günlər yadıma düşəndə özüm üçün müqayisə aparıram və qəti qərara gəlirəm ki, o vaxt Heydər Əliyevdən başqa Azərbaycanı onun kimi idarə edə biləcək, dirçəldə və inkişaf etdirə, milli dəyərlərimizi qoruya biləcək ikinci bir adam yox idi. Bunu zaman da göstərdi. Ondan sonra neçə adam Azərbaycanda rəhbər oldu, heç biri işləyə bilmədi. Əksinə, ölkəni fəlakətə sürüklədilər.

Yenə Heydər Əliyev qayıtdı, ölkəni ayağa qaldırdı, xaosdan çıxardı, müstəqilliyi, dövlətçiliyi möhkəmləndirdi və hətta növbəti onilliklər üçün bu strateji xətti onun kimi davam etdirə, Azərbaycanı yeni əsrdə qətiyyətlə, mətanətlə təmsil və idarə edə biləcək – Prezident İlham Əliyev kimi fenomenal varisini yetişdirdi. Mən deyirəm Heydər Əliyev məktəbinin yetirməsiyəm, amma İlham Əliyev Heydər Əliyev akademiyasının əlaçı məzunudur.

**– Heydər Əliyev Moskvaya gedəndən sonra onunla əlaqələriniz olurdumu?**

– Mənim o zaman ulu öndərlə şəxsi əlaqələrim yox idi. 1987-ci ildə xain Qorbaçov erməni separatçılarının təhriki ilə onu hakimiyyətdən uzaqlaşdırandan sonra, təbii ki, bu Heydər Əliyevin Azərbaycanda çalışan birçox yetirmələrini çox məyus etdi. Biz bu ədalətsizliyin nədən qaynaqlandığını bilirdik. Ona görə bir çoxumuz etibarlı adamlarla Heydər Əliyevə Azərbaycana qayıtması ilə bağlı müraciətlərimizi çatdırırdıq.

Sonra Naxçıvana gəlib Ali Məclisin sədri seçiləndə də ondan xahiş edirdik ki, Milli Məclisin sessiyalarına gəlsin, müzakirələrdə iştirak etsin. Çünki onun fikirlərinə ehtiyacımız var idi.

**– 1993-cü ildə hakimiyyətə qayıdandan sonra sizinlə ilk görüşdə nə barədə danışdı?**

– Cəbhə hakimiyyətə gələndə mən Qubada rayon icra hakimiyyətinin



başçısı vəzifəsində çalışırdım. Əbülfəz Elçibəy Prezident seçiləndən sonra dəfələrlə müraciət etdim ki, məni vəzifəmdən çıxarın, sizinlə işləyə bilmirəm. Nəhayət, məni işdən çıxartdılar və 8 ay işsiz qaldım. Bu müddətdə cəbhə hakimiyyətinin başına çox işlər gəldi. Bu ərəfədə respublika Meliorasiya və Su Təsərrüfatı Nazirliyini komitə edəndə rəhbər kadr tapa bilmirdilər. Baş nazirin birinci müavini Vahid Əhmədov, müavinlər Abbas Abbasov və Əsgər Məmmədov mənim namizədliyimi təklif edirlər. Bunlar da Heydər Əlyevin yetirmələri idilər və məni yaxşı tanıyırdılar. Elçibəy onların təklifini dəstəkləyir və deyir: “Bu kişini mən nə vaxt işdən çıxarmışam özüm də bilmirəm. Əhmədzadə bu ölkə üçün bizdən çox iş görüb. Bir güllə atmadan Şəmkirdən 20 min erməni çıxarıb. Ermənilər yaşayan kəndləri boşaldıb. Bildiyim qədər də saf, Vətənini sevən insandır”. Beləcə məni elə orda komitə sədri təyin edirlər. Amma mən nə Elçibəyi gördüm, nə də başqa bir rəhbər adamı. Ailəmlə Qaxda, dədə-baba evimdə oturmuşdum. Uşaqlardan biri “svinka” olduğundan “Niva” avtomobilimə minib onu Bakıya həkimə gətirirdim. Bakıda yoldaşlar mənə çıxdılar ki, səni komitə sədri təyin ediblər...

İşə yenicə başlamışdım. İşçilər aylar idi əməkhaqqı almırdılar, Komitədə vəziyyət çox ağır idi. Maliyyə naziri ilə görüşüb xahiş-minnətlə ilkin ehtiyaclar üçün 500 min manat vəsait ala bildim. Müavinlərimdən biri hələ Heydər Əliyevin birinci katib olduğu illərdə meliorasiya nazirinin müavini işləmiş Rafael Axundov idi. Onu kabinetə çağırdım və dedim: “Rafael müəllim, heç kimə heç bir məlumat söyləmədən, Naxçıvana yola düşürsən. Bizə ayrılan 500 min manat vəsaitin 150 min manatını Naxçıvana ayırmışam. O sənədi də özünlə götür. Heydər Əliyeviçə də deyərsən mən onun komitə sədriyəm. Mənim bir rəhbərim var, o da Heydər Əliyevdir. Nə sözü, nə tapşırığı olsa əsgər kimi hazıram”. Naxçıvanda hələ Meliorasiya Nazirliyi idi, amma bizə tabe idilər. Nazirə zəng vurdum ki, Rafael müəllim gələcək, onu kişi ilə görüşdür. Rafael Heydər Əliyeviçin kadrıdır, özü də seyid adamdır”. Heydər Əliyev Naxçıvanda olanda hər adamı qəbul etmirdi.

Rafael müəllimi qəbul etmişdi və vəsaitə görə də təşəkkür etmişdi ki, camaat burda aylarla əməkhaqqı ala bilmir. Bu çox yaxşı oldu.

Mən özüm telefonla danışa bilməzdim, çünki onunla əlaqə saxlamaq o demək idi ki, hakimiyyətin əleyhinə işləyirsən. Rafael bunları söyləyəndən sonra demişdi: “Mən onun mövqeyini bilirəm. O məni hər yerdə müdafiə edib, bu xəbərlər mənə çatır. Əhmədə de mənə zəng eləməsin, telefonlara qulaq asırlar. Nə sözü, vacib xəbəri olsa, bizim Kərimi Bakıya çağırsın (Naxçıvanın meliorasiya naziri) sözünü ona desin, o mənə çatdırar. Mən də sözümü Kərimlə ona çatdıraram. Hələ ki, bir az ehtiyatlı olaq”.

Bakıya qayıdandan sonra məni qəbul etdi, tez-tez əlaqələrimiz olurdu, tapşırıqlar, məsləhət və tövsiyələr verirdi.

**– Əhməd müəllim, 1992-ci ildə siz də Ali Sovetin deputatı idiniz. Parlamentdə onunla görüşmüşdünüzmü?**

– Heydər Əliyev Naxçıvanda olanda bəzən Bakıda keçirilən tədbirlərə gəlirdi və görüşlərimiz olurdu. Yəqin, 1992-ci ildə Heydər Əliyevin parlamentdəki məşhur çıxışını xatırlayırsınız. İclasdan fasiləyə çıxdıq. Ulu öndər tək-tənha foyedə bir kənarda durmuşdu. Şəmkir rayonunu təmsil edən neftçi alim Fərman Salmanovla ona yaxınlaşdıq. Ondan bir az aralıda İliçin polis rəisi işləmiş, həmin vaxt deputat olan şəxs durmuşdu. Naxçıvandan olan deputatlardan da heç kim yanında yox idi. Biz yaxınlaşanda Fərman Salmanov rus dilində dedi: “Heydər Əliyeviç, çıxış etmək lazım deyildi...” Dedi: “Düz elədim. Mən öz sözümü deməliyəm, haqqı söyləməliyəm”. Kənardan Feyruz Mustafayev bizə yaxınlaşdı və o da qayıtdı ki, Heydər Əliyeviç mənə elə gəlir danışmamalıydınız. Ona da dedi, “yaxşı elədim”. Sonra Bəxtiyar Vahabzadə papirosunu yandıra-yandıra bizə yaxınlaşdı. Bu dəfə Heydər Əliyev bir qədər də ucadan dedi: “Axır bu məclisdə sözünü deyən bir kişi tapıldı”. Çünki həmin sessiyada Heydər Əliyevə hücumlar olanda Bəxtiyar müəllim tribunaya çıxıb onu müdafiə etdi.

İnanın, həmin vaxtlarda öz təşəbbüsümlə Heydər Əliyevin vaxtında birinci katib işləmiş 30-a yaxın adamla söhbət edib, onları ulu öndərə qarşı çıxış etməkdən çəkindirmişəm ki, bu insan bizim ağsaqqalımız, sayılıb-seçilən nüfuzlu şəxsiyyətlərimizdən biridir. Parlamentin o vaxtkı sədri Elmira Qafarova onun sözünü kəsəndə, dözməyib ona yaxınlaşıb dedim: “Siz neyniyirsiniz, kimin sözünü kəsirsiniz? Bu Heydər Əliyevdir, ağlınızı başınıza yığın...” **(Əhməd müəllim yenə kövrəlir və gözləri yaşarır. Sanki, Heydər Əliyevə qarşı olan həmin ədalətsizliklərin, haqsız çıxışların təsirini təkrar yaşayırmış kimi üzlür.)** O da başda oturan Ayaz Mütəllibova işarə edib dedi: “Görmürsən, oturub yuxarıda, göstərişi o verir, mən neyniyim...” Dedim: “Heydər Əliyevin çörəyi onların gözünü tutacaq”. Elə də oldu...

Milli Məclisin foyesində mənimlə görüşəndə dedi: “Əhmədzadə, Şəmkirin kəndlərini ki, ermənilərdən təmizləmisən, o çox böyük işdir. Ən yaxşısı da odur ki, bunu bir güllə atılmadan, faciəyə imkan vermədən, ağıllı şəkildə etmisən. Bunu çox bəyəndim”. Sonra nə düşündüsə, dedi: “Çardaxlıda Baqramyana bir yaxşı muzey tikmişdik. Onun taleyi necə oldu?” Dedim: “Heydər Əliyeviç, eksponatların hamısını yığdım zirzəmiyə, binada da Ermənistandan məcburi köçürülən bizim 150 qız-gəlinimiz indi xalça toxuyur”. Dedi: “Əhmədzadə, bax, bunu lap əla etmisən. İndi çox yerlərdə belə obyektləri dağıdırlar, amma başa düşmürlər ki, bunlar bizim xalqımıza məxsusdur, Azərbaycanın sərvətidir. Düz eləmisən”.

**– Heydər Əliyev artıq hakimiyyətdə olanda onunla tez-tez təmasda olmusunuz. O illərin xatirələrindən yadınızda daha çox nələr qalıb?**

– Heydər Əliyev Səudiyyə Ərəbistanına rəsmi səfərə gedirdi. Orda İslam Bankı ilə də görüşü nəzərdə tutulurdu. Məndən arayış istədi ki, bankdan nə istəyə bilərik? Bizim də ölkədə meliorasiya və su təsərrüfatı sahəsində işlənib hazırlanmış 150 layihədən 10 layihəni seçmişdik. O layihələrdən daha vacib olan beş layihəni ayırıb ulu öndərə təqdim etdim və dedim, bunları həyata keçirmək üçün büdcəmiz yoxdur. Dünya Bankı, Asiya İnkişaf Bankı, İslam Bankı bizə kömək etsə yaxşı olar. Heydər Əliyev məndən sənəd yox, təklif soruşdu ki, nə təklif edirsən onu söylə. Təkliflərimizi verdim. İslam Bankı sadəcə Heydər Əliyevə müsəlman dünyasının görkəmli və nüfuzlu liderlərindən biri olduğuna görə vəsait ayırmışdı. Heç kim inana bilmirdi ki, müqavilə yox, layihə yox, elə Heydər Əliyevin müraciətinə hörmət əlaməti olaraq İslam Bankı 9,8 milyon dollar vəsait vermişdi. Biz onu Muğan kollektorunun tikinti-quraşdırma işlərinə yönəltdik.

Layihələri hissə-hissə işləyib təqdim edirdik, çünki həmin illərdə vəsaitimiz yox idi. Bir gün onunla görüşəndə dedi, “Əhməd, bunları kompleks elə. Narahat olma, bizim pulumuz olacaq, hamısını tikəcəyik”. Bu vaxtlarda da artıq “Əsrin müqaviləsi” imzalanmışdı, neft hasilatı tədricən ritmə düşürdü və xarici investisiyaların axını uzaqda deyildi.

Taxtakörpü su anbarının tikinti layihəsi barədə söhbətdə, ona məlumat verdim ki, bunu tikməsək, çox böyük problemlərimiz yarana bilər. Dedi: “Onu da tikərik, başqa layihələrimizi də. Buna şübhən olmasın”. Həqiqətən, belə də oldu, ölkə dirçəldikcə, neft gəlirlərimiz artdıqca layihələrimizi bir-birinin ardınca tikirdik.

Ulu öndərdən sonra bir gün cənab Prezident İlham Əliyev soruşdu: “Əhmədzadə, bu qədər layihəni hardan çıxarırsan?” Dedim: “Cənab Prezident, bunlar ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə hazırlanıb. Həmişə deyirdi ki, pulumuz olacaq, hamısını tikəcəyik”. Beləcə, bu sahədə çox böyük və nəhəng layihələr reallaşdırdıq.

**– Heydər Əliyev nəyəsə qərar verəndə onu qəfil bildirirdimi?**

– Mən deyərdim yox. Heydər Əliyev hər hansı bir iş, layihə haqqında qərar verməmişdən onu ən incə məqamlarına qədər öyrənir, araşdırır, suallar verir və onun reallığına əmin olandan sonra qərarını bildirirdi. Hər sualın arxasında çox incə məqamlar dururdu. O, verilən layihənin ölkəyə, xalqa faydasını, gətirəcəyi iqtisadi mənfəəti, hansı müddətə işləmək gücündə olduğunu bilməsə, razılıq verməzdi. Çox güclü fəhmi vardı, verilən hər hansı təklifi bir andaca özündə analiz edir və nəticəsinin nə olacağını qabaqcadan bilirdi. Mən inanmıram ki, o nə vaxtsa hansısa qərarında yanılmış olsun.

**– Əhməd müəllim, Heydər Əliyev çalışdığı adamlarda, kadrlarında daha çox nəyi, hansı keyfiyyəti yüksək qiymətləndirirdi?**

– İlk tələblərindən biri peşəkarlıq idi. Amma insanlıq onun üçün daha əhəmiyyətli idi. Etibar, sədaqət və vicdanlı olmaq. Heydər Əliyev yalanı sevmirdi. Ümumiyyətlə, ona yalan danışmaq da qeyri-mümkün idi.

Bir əhvalat danışım. Heydər Əliyevin İrana ilk rəsmi səfəri idi. Prezident Rəfsəncani dəvət etmişdi. Mən də nümayəndə heyətinin tərkibinə salınmışdım. İran rəsmiləri Heydər Əliyevin Təbrizə getməsindən ehtiyat edirdilər deyə, bizi ora aparmadılar. Quş adasına apardılar, amma Təbriz protokola salınmadı.

Hələ SSRİ dövründə Xudafərində su elektrik stansiyasının tikilməsi ilə əlaqədar İranla müqavilə imzalanmışdı. Rəsul Həmidov da Enerji Tikinti Komitəsində işləyirdi. SSRİ dağılandan və Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ilk illərdə bizim buna hələ ki, nə vaxtımız, nə də imkanımız vardı. Amma bu vacib məsələ idi deyə, həll olunmalı idi. Mən də Meliorasiya Komitəsinin sədri kimi bu məsələ ilə bağlı İranla müntəzəm işləyirdim.

Heydər Əliyevin İrana səfəri zamanı müzakirə ediləcək əsas məsələlərdən biri də Xudafərin bəndinin tikintisi idi. Axşam Azərbaycan Prezidenti üçün ayrılmış iqamətgahda toplaşdıq və Heydər Əliyev bir-bir sabah imzalanacaq protokollar, bəyannamələrlə bağlı fikir mübadiləsi aparırdı. Növbə mənə çatdı. Məsələ ilə bağlı fikirlərimi söyləməyə başladım. Burada iştirak edənlərin vəzifəcə ən kiçiyi mən idim, qalan hamısı nazirlər idi. Heydər Əliyevi də səthi izahlarla razı salmaq, ümumiyyətlə, mümkün deyildi. Xudafərinlə bağlı hamı danışıb fikrini bildirəndən sonra, dedi: “Əhmədzadə, buyur, sən fikirlərini bildir”. Heydər Əliyev yanında oturan baş nazirin müavini, Dövlət Plan Komitəsinin sədri Səməd Sadıxovu ayağa qaldırdı, mənə dedi, gəl otur burda.

Mən layihənin xırdalıqlarına qədər izah etdim, Arazın potensialını, bizim qazanacağımız, itirəcəyimiz nə olacaq və sair. Dedi: “Əhmədzadə, deyirsən tikməyək bunu?” Dedim: “Heydər Əliyeviç, tikməmək düz olmaz. Çünki biz tikməsək, İran bunu Ermənistanla tikəcək. Amma biz öz mənfəətimizi artırmalıyıq, ərazimizə sahib çıxmalıyıq. Tikintidə



də bizim iştirakımız təmin olunmalıdır. Su elektrik stansiyasının istehsal etdiyi enerji ədalətli şəkildə bölünsün”. Bütün bunları açıqladım. Dedi: “Bütün danışdıqlarını hazırla”. Dedim: “Heydər Əliyeviç, icazə verin gedim hazırlaşım”. Dedi: “Olmaz. Görürsən, bizə bu boyda stol açıblar. İranda başqa harda sənə belə süfrə açacaqlar”. Yenə dedim: “İcazə verin gedim hazırlaşım”. Gülə-gülə qayıtdı ki, “Ay kişi camaat mənə salam verməyə fürsət axtarır, mən səni stoluma dəvət edirəm deyirsən, icazə ver gedim. Otur”.

Oturdum. Stolda da heç kim ulu öndərlə üz-üzə oturmaq istəmir, çəkinirlər. O da üzünü şeyxülislama Hacı Allahşükür Paşazadəyə tutub dedi: “Şeyx həzrətləri, gəl sən burda otur. Bunlar hamısı mənə hesabat verirlər deyə, üz-üzə oturmaq istəmirlər. Sən Allaha hesabat verirsən, gəl otur”. Yəni bu insan o məqamda yaranan rəsmi mühiti bir iki zarafatla elə aradan qaldırıb, xoş, səmimi bir şərait yaratdı ki, hamı oturub rahat yemək yedi.

Səhəri gün Rəfsəncani ilə oturub layihələri müzakirə etməyə başladılar. Mən 1 saat 40 dəqiqə layihəni iki prezidentə izah etdim. Layihə qəbul edildi. Stansiyanın tikintisinə gələndə, Rəfsəncani dedi, “tender keçirilsin, kim udsa, o da tiksin”. Rəsul Həmidov da özünü öldürür ki, tender olsa, iranlılarda qiymətlər aşağıdır, onlar udacaqlar, biz işsiz qalacağıq. Heydər Əliyev də məndən soruşdu: “Bu Rəsul niyə özünü dağıdır”. Dedim: “Heydər Əliyeviç deyir bunlarda qiymətlər ucuzdur, tenderi udacaqlar”.

Rəfsəncani də dedi, əgər İran tenderi udsa, 10 faiz nəfinə Azərbaycan tərəfinə verə bilər. Yəni İran udacağı təqdirdə, öz qiymətindən 10 faiz artıq qiymətə layihənin tikintisini Rəsula verir. Mən özümü saxlaya bilmədim. Dedim: “Cənab Rəfsəncani, çox üzr istəyirəm, daha bu qardaşlıq olmur ki”. Heydər Əliyev bu məqamda rus dilində qayıtdı: “Zdorovo Axmedzade”. Bundan sonra Rəfsəncani məndən soruşdu: “Bəs sən necə deyirsən?”. Dedim: “Komissiya bunu 50-nin 50-yə bölsün və onun nəzarəti altında işləsinlər”. Razılaşdılar və sənədə düzəlişlər edib imzalanma mərasiminə hazırlayıb imzaladılar. Bu gün məhz 1994-cü ildə imzalanan həmin sənəd əsasında layihə həyata keçirilir.

O tarixdə sənədin imzalanma mərasimindən sonra Heydər Əliyev bəyannamənin Azərbaycanın mənafeyinə uyğun qəbul edilməsinə görə bizə razılığını bildirdi.

– **Əhməd müəllim, maraqlı söhbətə görə təşəkkür edirik.**

**Söhbəti qələmə aldı:
İlqar RÜSTƏMOV,
“Xalq qəzeti”**

# Böyük uğurlar müdrik rəhbərlik sayəsində qazanılır

*“Xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda belə müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar”.*

**Prezident İlham Əliyevin tacikistanlı həmkarı Emoməli Rəhmonla birgə keçirdiyi mətbuat konfransındakı çıxışından.**

**(əvvəli 1-ci səhifədə)**

İki ölkə arasında qarşılıqlı etimada, uzunmüddətli qardaşlıq münasibətlərinə söykənən əməkdaşlığın indiki səviyyəyə çatması ötən əsrin 90-cı illərinin əvvəlində respublikaların rəhbərlərinin apardığı gərgin işin, yürütdükləri müdrik və məqsədyönlü siyasətin sayəsində mümkün olub. Bu tarixi faktı Prezident İlham Əliyev Düşənbəyə səfərində tacik həmkarı Emoməli Rəhmonla keçirdiyi birgə mətbuat konfransında xüsusi olaraq vurğulayıb:

**“O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, – hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular. Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın, təhlükəsizliyin əsasıdır. Əgər sabitlik olmasa, nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı”.**

Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirən İlham Əliyev atasının Emoməli Şərifoviç Rəhmonla birlikdə iki ölkə arasında münasibətlərin formalaşmasının təşəbbüskarı olduğunu, mahiyyət etibarilə bu münasibətlərin təməlini qoyduqunu bildirib.

Tacikistan Prezidenti Emoməli Rəhmonun öz çıxışında İlham Əliyevin yaxın keçmişlə bağlı xatırlatmasına münasibəti maraqlı və ibrətamiz olub:

**“Dostluğumuzun və əməkdaşlığımızın əsası Azərbaycan xalqının görkəmli oğlu və mənim dostum, böyük yoldaşım Heydər Əliyev tərəfindən qoyulub və buna sıx, qarşılıqlı etimada əsaslanan əlaqələr şərait yaradır. Gələn ay Heydər Əliyevin 100 illiyini Tacikistanda da qeyd edəcəyik”.**

Cənab Prezident qarşılıqlı səfərlərin gələcəkdə daha intensiv olacağına ümid etdiyini bildirərək, iki dövlətin və xalqın əl-ələ verərək işləyəcəyinə, dostluq edəcəyinə və gələcəyi bərabər quracağına əminliyini ifadə edib.



Səfərin yukunu olaraq iki ölkənin Xarici İşlər Nazirliklərinin arasında 2023-2024-cü illər üzrə Əməkdaşlıq Proqramı, Daxili İşlər Nazirlikləri, Gömrük Xidmətlərinin arasında əməkdaşlıq haqqında Saziş, Hökumətlərarası iqtisadi əməkdaşlıq üzrə Tədbirlər Planı, kənd təsərrüfatı sahəsində əməkdaşlığın gücləndirilməsinə dair Yol Xəritəsi, eləcə də orta biznesin inkişafı, turizm, bankçılıq və digər sahələrə aid cəmi 14 müqavilə imzalanıb.

**Əməkdaşlığın mübadilə aspektləri**

** 2010-2022-ci illərdə Tacikistan Silahlı Qüvvələrinin 39 kursantı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib. Hazırda 22 tacik kursant Heydər Əliyev adına Hərbi İnstitutda təhsil alır.*

** Dövlət Sərhəd Xidməti Akademiyasında 24 nəfər tacik kursant təhsil alır, onlardan 6-sının təhsili bu il başa çatacaq.*

** 2022-ci ildə Azərbaycanın Tacikistan ilə ticarət dövriyyəsinin həcmi 5,95 milyon ABŞ dolları olub. 2023-cü ilin yanvar-fevral ayları üzrə ticarət dövriyyəsi isə 824,59 min ABŞ dolları təşkil edib.*

** Ötən il Tacikistandan Azərbaycana 4,4 milyon dollar, Azərbaycandan Tacikistana isə 1,5 milyon dollar investisiya qoyulub.*

** 2022-ci ildə SOCAR tərəfindən Tacikistana 0,3 min ton neft koksu və 0,1 min ton sürtkü yağları ixrac edilib.*

** 2023-cü il mayın 1-dən “Azərbaycan Hava Yolları” QSC tərəfindən Bakı-Düşənbə-Bakı marşrutu üzrə həftədə 3 dəfə olmaqla beynəlxalq uçuşların həyata keçirilməsi planlaşdırılır.*

* * *

Bütün bunlar onu deməyə əsas verir ki, iki dost və qardaş respublika arasında bütün sahələr üzrə əməkdaşlığın inkişafı uğurlu perspektiv vəd edir və bu hədəfə çatmaqdan ötrü həm Azərbaycan, həm də Tacikistan böyük potensiala malikdir.

***İmran BƏDİRXANLI, “Xalq qəzeti”***

# Türkiyə iqtisadiyyatı texnoloji tərəqqi yolunda

**Türkiyə son illərdə güclü inkişaf yolu keçib. Qardaş ölkə dünyanın sürətlə sənayeləşən ölkələri sırasında önəmli yer tutub. “The World Factbook”da Türkiyə böyük miqyasda inkişafı ilə diqqətçəkən dövlət kimi qeydə alınıb. Kənd təsərrüfatı məhsullarının, tekstil, motorlu nəqliyyat vasitələri, gəmilər və digər nəqliyyat avadanlıqları, tikinti materialları, istehlakçı elektronikası kimi sektorlarda mühüm göstəricilərə nail olub.**

Türkiyə ixrac potensialında da gücünü dünyaya nümayiş etdirib və 2022-ci ildə ixracatı bir il əvvəllə müqayisədə 12,9 faiz artaraq 254,2 milyard dollara çatıb. Hazırda bu ölkə dünyanın ilk 10 ixracatçısı sırasında yer almağı qarşıya mühüm məqsəd kimi qoyub.

Yeri gəlmişkən, qardaş dövlət uzun illik bir istəyi də reallaşdırıb, tarixi bir addım ataraq, sənayenin növbəti böyük bir uğurunu qeydə alıb. Prezident İlham Əliyevə hədiyyə olaraq təqdim edilən Türkiyənin ilk yerli elektromobili “Togg” bunun bariz ifadəsi kimi diqqət çəkib.

Dövlətimizin başçısı həmin təqdimat mərasimində belə bir mükəmməl avtomobilin istehsalını Türkiyənin, Türkiyə sənayesinin növbəti nəhəng bir uğuru kimi dəyərləndirib.

Qeyd edək ki, 2022-ci il oktyabrın 29-da təqdimatı keçirilən Türkiyənin milli istehsalı olan “Togg” elektromobilinin ilk sifarişçilərindən biri də dövlətimizin başçısı olub.

Xatırladaq ki, “Togg”un kütləvi istehsal zavodunun rəsmi açılış mərasimi ötən il oktyabrın 29-da gerçəkləşib. Zavod Bursa vilayətinin Gemlik rayonunda inşa olunub. 2020-ci ildə təməli qoyulan zavodun inşası iki ilə tamamlanıb. Müəssisənin açılışı ilə yerli avtomobilin kütləvi istehsalı prosesi başlanıb. İl ərzində 175 min “Togg” avtomobilinin istehsal olunacağı, 2030-cu ilə qədər istehsal həcminin 1 milyonu ötəcəyi planlaşdırılıb.



Qeyd edək ki, “Togg” elektromobilləri “Pamukkale”, “Anadolu”, “Gemlik”, “Kula”, “Oltu” və “Kapadokya” olmaqla altı rəngdə istehsal olunur. Avtomobil iki modifikasiyada–200 və 400 at gücündə elektrik mühərriki ilə buraxılır. Ən güclü versiya 0-dan 100 kilometr-saat sürəti 4,8 saniyəyə yığa bilir.

Elektromobilin maksimal gediş məsafəsi isə 500 kilometrə yaxındır. Avtomobillərin hazırlanması zamanı onların ətraf mühit üçün tam zərərsiz olmasına xüsusi diqqət yetirilib.




Türkiyənin 60 illik istəyinin reallaşması kimi qiymətləndirilən yerli avtomobil “Togg”un T10X modeli üçün sifariş hüququ qazanan 20 min əsas və 20 min ehtiyat qalibin siyahısı da artıq açıqlanıb. Püşkatma nəticəsində T10X modelini almaq hüququ qazanan şəxslərin siyahısı “Togg”un rəsmi internet saytında elan edilib. Bu modeli əvvəlcədən sifariş verən 177 min 467 nəfər arasında 20 min nəfər yerli avtomobil sahibi olub.

Türkiyə bu gün, həm də müdafiə sənayesinin inkişafı ilə diqqət çəkir. Məsələn, qardaş ölkə hazırda səsdən sürətli raketi hava, quru və dəniz platformaları ilə inteqrasiya edir. Xatırladaq ki, bu silahlar analoqsuz xarakterə malik yerli istehsal olması və Türkiyənin silah idxal etmək asılılığını aradan qaldırması baxımından mühüm önəm daşıyır.

Onu da deyək ki, havadan zərbələr kateqoriyasında Türkiyənin “Bayraktar”, “Aksunqur”, “Akıncı” və “Kızılelma” da daxil olmaqla pilotsuz döyüş aparatları beynəlxalq hərbin fırlanma oxuna təsir edir.

Beləliklə, Türkiyədəki ballistik raketlər, hədəfi dəqiq vuran ağıllı sursatlar, hava hücumundan müdafiə sistemləri, tanklar, hava-yer tipli səsdən sürətli raketlər, döyüş gəmiləri və s. beynəlxalq gücləri Türkiyə ilə məsafəli davranışa məcbur edir.

Ümumiyyətlə, Türkiyənin “Baykar”, ASELSAN, ROKETSAN, HAVELSAN kimi müdafiə sənayesi şirkətlərinin istehsal etdikləri hərbi məhsulların siyahısına əlavələr etməsi Azərbaycan üçün də zəruridir.

Türkiyənin sürətli inkişafını səciyyələndirən bir məqama da toxunmaq istərdik. Qardaş ölkə Azərbaycanda qeyri-neft sektoruna investisiya yatıran dövlətlər sırasında 1-ci yerdə qərarlaşır. Türkiyə ilə digər sahələrlə yanaşı, KOB, sənaye, əczaçılıq və tibbi avadanlıqların təchiz olunması, turizm, standartlaşdırma və metrologiya səhələrində də əməkdaşlıq genişlənir. Azərbaycan işğaldan azad olunmuş ərazilərimizdə quruculuq işlərinin həyata keçirilməsində Türkiyə şirkətlərinin iştirakını dəstəkləyir.

Beləliklə, bu ölkə bütün təzyiqlərə baxmayaraq, iqtisadi inkişafını davam etdirib. Aparılan geniş islahatlar sayəsində yeni müəssisələrin yaradılması üçün şərtlərin yumşaldılmasına görə, Türkiyə 27 pillə irəliləyərək 190 ölkə arasında 33-cü yerə yüksəlib.

***V.BİNYƏTOĞLU, “Xalq qəzeti”***



# Tacikistan–Azərbaycan: iqtisadi əməkdaşlığın hədəfləri

**Azərbaycan Prezidenti İlham Əliyevin Tacikistanın dövlət başçısı Emoməli Rəhmon ilə aprelin 5-də geniş tərkibdə görüşündə iki ölkə xalqlarını qədim tarixi köklərə malik ənənəvi dostluq telləri bağladığı vurğulanıb, ötən illər ərzində həm ikitərəfli əsasda, həm də beynəlxalq və regional təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın hərtərəfli şəkildə genişləndiyi bildirilib.**

İki ölkə arasında münasibətlərin dinamik inkişafı dövlət başçılarının mətbuata bəyanatlarında da öz ifadəsini tapıb. Tacikistan Prezidenti bəyanatında iqtisadi əməkdaşlığın perspektivlərindən danışarkən sənaye kooperasiyası sistemində yüngül, kimya və dağ-mədən sənayesi, tikinti materiallarının istehsalı, alüminiumun, pambıq lifinin, qiymətli və yarımqiymətli daşların, habelə metalların emalı sahələrində birgə layihələrin həyata keçirilməsi üçün böyük imkanlar olduğunu diqqətə çatdırıb. Dost ölkənin dövlər başçısı energetika sektorunda Tacikistanın neft-qaz yataqlarının işlənilməsində Azərbaycan şirkətlərinin iştirakında maraqlı olduğu, eyni zamanda, respublikamızın əlverişli tranzit imkanlarından fəal istifadə olunmasının dəstəklənəcəyini, Tacikistanın dövlət və kommersiya strukturları tərəfindən yükdaşıma həcmlərinin artırılması məqsədilə müəyyən layihələr həyata keçiriləcəyini də vurğulayıb.

Azərbaycan Prezidenti isə bəyanatında respublikamızın Tacikistanda investisiya layihələrini ciddi nəzərdən keçirməyə hazır olduğunu bildirərək, bunu dost ölkənin bizə yaxın dövlət olması, orada sabitlik hökm sürməsi ilə əlaqələndirib: “İnvestisiyalar yalnız sabitlik və yaxşı investisiya şəraiti olan ölkələrə yönəldilir. Çoxsaylı xarici şirkətlər tərəfindən Tacikistanda fəal sərmayə qoyulması ona dəlalət edir ki, investisiyalar, o cümlədən xarici investisiyalar dövlət tərəfindən qorunur”.

Xatırladaq ki, bəyanatda səsləndirilən iqtisadi-ticari məsələlərlə, ümumiyyətlə, səfərin nəticələri ilə bağlı bu il Tacikistanda keçiriləcək hökumətlərarası komissiyanın iclasına qədər müəyyən layihələrin həyata keçirilməsi nəzərdə tutulub. Başqa sözlə, nəqliyyat-logistika qarşılıqlı əlaqələri, investisiya siyasəti, sənaye kooperasiyası təşəbbüslərinin reallaşdırılması planlaşdırılıb.

Dövlətimizin başçısının Tacikistan səfəri çərçivəsində iki ölkə arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması, gömrük xidmətlərinin tənzimlənməsi, kənd təsərrüfatı, investisiyalar, startapların təşviqi kimi məsələlərə aid sənədlərin imzalanması bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, səfər çərçivəsində Azərbaycanın İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO və Tacikistanın İnvestisiyalar və Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə Düşənbədə keçirilən Tacikistan-Azərbaycan İnvestisiya Forumu da ikitərəfli əlaqələrin daha da yaxşılaşdırılması baxımından mühüm önəm daşıyıb. Həmin tədbirdə hər iki ölkədən enerji, kənd təsərrüfatı, qida sənayesi, İKT, maliyyə, turizm və əczaçılıq sahələrini təmsil edən 170-dən çox şirkət iştirak edib. Forumda iki ölkə arasında iqtisadi-ticarət əməkdaşlığı barədə ətraflı məlumat verilib, biznes strukturlarının iştirakı ilə gerçəkləşdirilən işgüzar tədbirlərin Azərbaycan və Tacikistan sahibkarları arasında daha sıx əlaqələrin qurulmasında, əməkdaşlığın səmərəliliyinin artırılmasında önəmi vurğulanıb.

Azərbaycanın iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov Azərbaycan və Tacikistan arasında münasibətlərin dərin tarixi və mədəni köklərə malik olduğunu, dövlət başçılarının müxtəlif formatlarda keçirdikləri görüşlərin, xalqlarımız arasındakı dostluq münasibətlərinin birgə əməkdaşlığımızın əsasını təşkil etdiyini deyib. Azərbaycanın Tacikistanla ikitərəfli iqtisadi əlaqələrin inkişafına önəm verdiyini xatırladan Sahib Məmmədov diqqətə çatdırıb: “İki ölkə arasında sənaye, ticarət, kənd təsərrüfatı və digər sektorlarda əməkdaşlığın genişləndirilməsi əsas istiqamətlərdəndir. Azərbaycanın əlverişli biznes və investisiya mühiti bu potensialın reallaşdırılması üçün yeni imkanlar və geniş üfüqlər açır. Birgə təşəbbüslərin həyata keçirilməsində özəl sektorun fəallığı və işgüzar dialoqun genişləndirilməsi xüsusilə əhəmiyyətlidir”.

Prezident İlham Əliyevin Tacikistan Respublikasına dövlət səfərinin məqsədi ölkələrimiz arasında yüksək səviyyədə olan əlaqələrin daha da inkişafına və qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın gücləndirilməsinə töhfə verməkdir. İkitərəfli münasibətlərin gündəliyində olan aktual məsələlərin müzakirəsi məqsədilə dövlətimizin başçısının Tacikistanın Prezidenti Emoməli Rəhmon ilə təkbətək və geniş tərkibdə görüşləri, həmçinin hər iki dövlət başçısının mətbuata bəyanatlarla çıxışları bunun bariz ifadəsidir.

Azərbaycan Tacikistanla hərtərəfli əlaqələrin inkişafına böyük önəm verir. Son 30 il ərzində iki ölkə arasında əlaqələr möhkəmlənib və nəticədə qarşılıqlı səmərəli məsələlərin həlli və beynəlxalq arenada aktiv qarşılıqlı əlaqələr üçün əlverişli şərait yaradılıb. Tacikistan və Azərbaycanı çoxəsrlik tarix və mədəniyyət, dostluq münasibətləri, ümumi dəyər və ənənələr birləşdirib.

İkitərəfli əməkdaşlığın hüquqi bazasını, əməkdaşlığın müxtəlif sferalarını tənzimləyən təqribən 62 saziş təşkil edib. Hüquqi müqavilə bazasının əsası iki ölkənin liderlərinin rəsmi səfərlərinin nəticələrinə əsasən formalaşıb. Bu ikitərəfli sənədlər siyasi, iqtisadi, ticari, investisiya, sənaye, nəqliyyat, turizm, elmi-texniki sahədən mədəni-humanitar sahəyədək müxtəlif sferaları, habelə hüquq-mühafizə orqanlarının əməkdaşlığını əhatə edib.

Xatırladım ki, Prezident İlham Əliyev bundan əvvəl Tacikistanda 2018-ci il sentyabrın 27-28-də Düşənbədə keçirilən MDB Dövlət Başçıları Şurasının toplantısında iştirak edib və ötən müddətdə iki ölkə arasında siyasi, sosial-iqtisadi sahələrdə mühüm uğurlar əldə olunub.

İqtisadi münasibətlərə gəlincə, 2008-ci il fevralın 7-də Azərbaycan və Tacikistan respublikaları arasında ticarət-iqtisadi əməkdaşlıq məsələləri üzrə birgə Hökumətlərarası Komissiya yaradılıb. İndiyədək komissiyanın 5 iclası reallaşıb. Sonuncu iclas isə ötən il fevralın 22-23-də Düşənbədə gerçəkləşib.

Hökumətlərarası Komissiyanın iclaslarında qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetirilməsi üçün bütün qüvvələr səfərbərliyə alınıb. Məhz bu səyin nəticəsidir ki, 2022-ci ildə Azərbaycanın Tacikistan ilə ticarət dövriyyəsinin həcmi 5,95 milyon ABŞ dolları olub. Cari ilin yanvar-fevral ayları üzrə ticarət dövriyyəsi isə 824,59 min ABŞ dolları təşkil edib.

Qeyd etmək lazımdır ki, Azərbaycanla Tacikistan arasında əmtəə dövriyyəsi təkcə bu ilin ilk iki ayı ərzində 824 590 dollar təşkil edib ki, bunun da 3 270 dolları Tacikistanın ixracının, 821 320 dolları isə Azərbaycanın ixracının payına düşüb.

Bütün bunlarla yanaşı, Tacikistandan Azərbaycana 4,4 milyon dollar, Azərbaycandan Tacikistana isə 1,5 milyon dollar investisiya qoyulub. Keçən il SOCAR tərəfindən dost ölkəyə 0,3 min ton neft koksu və 0,1 min ton sürtkü yağları ixrac edilib.

Azərbaycan ilə Tacikistan arasında beynəlxalq avtomobil daşımalarının səmərəliliyinin artırılması da daim diqqətdə saxlanılır. Kvota çərçivəsində “Giriş, çıxış və tranzit keçid üçün – 150 ədəd” və “3-cü ölkəyə/ölkədən – 100 ədəd” icazə blankının mübadilə edilməsi də bu məsələyə xüsusi önəm verilməsinin bariz ifadəsidir.

İki ölkə arasında münasibətlərin bu cür dinamik inkişafı iqtisadi sahədə yaxşı perspektiv vəd edir və bunun üçün böyük potensial mövcuddur.

***Vaqif BAYRAMOV, “Xalq qəzeti”***

# Sadələşdirilmiş gömrük dəhlizi Türk birliyinin yüksəlişinə xidmət edəcək

**Hazırda türk dövlətləri arasında yüksək dostluq və qardaşlıq münasibətləri mövcuddur. Qarşılıqlı və səmərəli əməkdaşlığın təməli isə 2009-cu il oktyabrın 3-də Naxçıvan şəhərində Türk Dövlətləri Şurasının yaradılması ilə bağlı imzalanmış sənəd əsasında qoyulub. Hazırda Türk Dövlətləri Təşkilatı (TDT) adı ilə fəaliyyət göstərən qurumun əsas məqsədi türkdilli ölkələr arasında siyasət, iqtisadiyyat, elm, təhsil, nəqliyyat və turizm sahələrində əməkdaşlığın genişləndirilməsinə nail olmaqdan ibarətdir.**

Dövlətlərarası blokun üzvləri Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə və Özbəkistandır. Macarıstan, Türkmənistan və Şimali Kipr Türk Respublikası isə təşkilatda müşahidəçi statusuna malikdir. Qurumda təmsil olunan və müşahidəçi statusuna malik ölkələrin rəhbərləri rəsmi və qeyri-rəsmi olmaqla ildə bir dəfə müxtəlif şəhərlərdə toplaşırlar. Bununla yanaşı, üzv ölkələrin xarici işlər nazirləri və parlament rəhbərləri səviyyəsində də il ərzində davamlı olaraq iclaslar keçirilir. Ötən müddətdə dost və qardaş dövlətlərin iştirakı ilə keçirilmiş zirvə görüşlərində müakirə olunan məsələlər, qəbul edilən qərarlar çoxtərəfli əlaqələrin genişləndirilmsinə mühüm töhfələr verib.

Xatırladaq ki, təşkilatın ötən il noyabrın 11-də Özbəkistanın Səmərqənd şəhərində keçirilmiş IX zirvə görüşündə bir çox sahələrdə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunmuşdu. Bu baxımdan gömrük dəhlizlərinin yaradılmasının asanlaşdırılması ilə bağlı sazişi xüsusi qeyd etmək olar.

Məlum olduğu kimi, aprelin 4-də Azərbaycan Respublikası Milli Məclisinin plenar iclasında “Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında” Səmərqənd sazişi təsdiq olunub. Xatırladaq ki, dəhliz tərəflər arasında daşınan mallar barədə əvvəlcədən məlumat mübadiləsi etmək, onların gömrük prosedurlarını mümkün qədər asanlaşdırmaq məqsədi daşıyan, könüllülük əsasında və bütün nəqliyyat növlərindən istifadə edilə bilən elektron sistemi nəzərdə tutur. Saziş qüvvəyə mindikdən sonra tərəflərin gömrük orqanlarının razılığı əsasında 6 aylıq pilot layihə icra olunacaq. Bu layihə isə dəhlizin reallaşdırılmasını şərtləndirəcək.

Ekspertlər hesab edirlər ki, gömrük dəhlizinin reallaşdırılması Orta Dəhlizin praktiki əhəmiyyətini artırmaqla yanaşı, Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında yük daşımalarının sürətlənməsinə, eləcə də yük dövriyyəsinin genişlənməsinə gətirib çıxaracaq. Eyni zamanda, TDT ölkələri arasında yük daşımaları prosedurları xeyli asanlaşacaq, Orta Dəhliz boyunca nəqliyyat, sərhəd və gömrük prosedurları rəqəmsallaşdırılacaq. Bu da öz növbəsində üzv ölkələrin tranzit potensialının artmasına və dövlətlərin regional və beynəlxalq nəqliyyat sistemlərinə inteqrasiya olunmasına imkan yaradacaq.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının dövlət başçılarının ötən ayın 16-da Ankarada keçirilmiş fövqəladə zirvə görüşündə qəbul olunmuş qərarlar, imzalanmış sənədlər də dost və qardaş ölkələr arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün geniş imkanlar yaradır. Qurumun son zirvə toplantısında yaradılmış Türk İnvestisiya Fondu isə üzv dövlətlər arasında iqtisadi əməkdaşlığa mühüm töhfə kimi dəyərləndirilir. Belə ki, fond türk dilli ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın inkişafına geniş imkanlar yaradır. Elə ekspertlər də fondun 450 milyon dollarlıq ilkin kapitalının bir il ərzində bir milyard dollara çatacağını əminliklə vurğulayırlar.

Onu da qeyd edək ki, geoiqtisadi cəhətdən Avrasiyanın yüksək potensiala malik olan türk dövlətlərinin ərazisi 4,8 milyon kvadratkilometr, əhalisi isə 170 milyon nəfərdən çoxdur. Bu ölkələrin illik ümumi daxili məhsulunun həcmi 1,4 trilyon dollar, il ərzində həyata keçirdikləri ticarət əməliyyatlarının məbləği isə 855 milyard dollardan çoxdur. Qarşılıqlı münasibətlərin, müxtəlif sahələrdə əlaqələrin inkişaf etdirilməsi ilə bağlı qərarlar isə Türk Dövlətləri Təşkilatı ölkələrinin iqtisadi qüdrətinin daha da artmasına səbəb olacaq.

**Mirbağır YAQUBZADƏ,**
**“Xalq qəzeti”**

### *Ekspert rəyi*

**Təbriz YADİGAROV,**
**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın milli maraqlarının qorunması istiqamətində aparılan prinsipial, ardıcıl və qətiyyətli siyasət nəticəsində ölkəmiz regionun inkişafı istiqamətində reallaşdırılan layihələrin fəal iştirakçısına çevrilib. Hazırda ölkəmiz türkdilli dövlətlər və xalqlar arasında dostluq, qardaşlıq münasibətlərinin və qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində üzərinə götürdüyü öhdəlikləri layiqincə yerinə yetirir.

Azərbaycanın türk dövlətləri ilə xarici ticarət əlaqələrinin inkişaf meyilləri göstərir ki, ölkə başçısının “Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında” 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanmış Sazişin təsdiq edilməsi barədə” Azərbaycan Respublikasının Qanunu bu ölkələrin iqtisadiyyatına mühüm töhfə verəcək. Belə ki, sadələşdirilmiş gömrük dəhlizinin yaradılması üzrə türk dövlətləri arasında ticarət əlaqələrinin inkişafı istiqamətində atılan bu addım sayəsində daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatlar elektron şəkildə mübadilə ediləcək ki, bu da sürətli yük daşımalarına şərait yaradacaq. Bundan əlavə, yük daşımalarının həcminin artması ilə yanaşı, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin nəqliyyat logistika sisteminin səmərəliliyi artacaq.

Yeri gəlmişkən, hazırda Logistikanın Səmərəlilik İndeksinə görə Türkiyə 3,15 balla 47-cı, Qazaxıstan 2,81 balla 71-cı, Türkmənistan 2,41 balla 124-cü, Qırğızıstan 2,55 balla 108-ci, Özbəkistan 2,58 balla 99-cu yerdədirlər. Azərbaycan isə Logistikanın Səmərəlilik İndeksinə görə 2,45 balla 125-ci yerdə qərar tutub. Qeyd edək ki, Logistikanın Səmərəlilik İndeksi gömrük əməliyyatlarının səmərəlilik indeksi, nəqliyyatın keyfiyyəti və informasiya texnologiyaları, beynəlxalq daşımalara burxılma qabiliyyəti, logistikanın komponentliyi, yüklərin izlənmə qabiliyyəti və yüklərin çatdırılma tezliyi ilə müəyyən edilir. Məhz bu baxımdan sadələşdirilmiş gömrük dəhlizinin yaradılması Türk Dövlətləri Təşkilatına üzv ölkələr arasında yük daşımalarını asanlaşdırmaqla yanaşı, Logistikanın Səmərəlilik İndiksi üzrə mövqeyin də yaxşılaşmasına səbəb olacaq. Eyni zamanda, sadələşdirilmiş gömrük dəhlizi Orta Dəhliz boyunca infrastrukturun inkişafına, nəqliyyat, sərhəd və gömrük əməliyyatlarının rəqəmsallaşdırılmasını şərtləndirəcək ki, bu da nəqliyyat marşrutu üzrə tranzit potensialının artmasına və iştirakşı ölkələrin regional və beynəlxalq nəqliyyat sistemlərinə əlverişli şəkildə inteqrasiyasına geniş imkanlar yaradacaq.





# Aqrar sahənin potensial imkanları gerçəkləşdirilir

**Ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanan, ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini təmin edən, ixrac potensialının artırılmasına və kənd yerlərində rifahın yüksəldilməsinə töhfə verən rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı, habelə emalı sənayesinin formalaşdırılması sosial-iqtisadi siyasətin prioritet istiqamətlərindən birini təşkil edir.**

Prezident İlham Əliyev tərəfindən qəbul edilmiş müvafiq qərarlara uyğun olaraq kənd təsərrüfatının inkişafı məqsədilə çoxşaxəli dövlət dəstəyi sistemi qurularaq, bu sahənin potensialının gücləndirilməsinə yönəldilən resursların həcmi getdikcə artır. Son illər ərzində kənd təsərrüfatı məhsulları istehsalının artımı əksər sahələr üçün xarakterik olub, bitkiçilik sahəsi üzrə artımda həm intensiv, həm də ekstensiv amillər təmin edilib, heyvandarlıq sahəsində artım isə tədricən intensiv inkişafa əsaslanmağa başlayıb.

Xatırladaq ki, yanvar-fevral aylarında Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,3 faiz çoxalıb. Hesabat dövründə diri çəkidə ət istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz, yumurta istehsalı 16,1 faiz, süd istehsalı 1,1 faiz artıb. Yanvar-fevral aylarında Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən 485 kənd təsərrüfatı texnikası və avadanlığının satışı da maliyyələşdirilib. Yeri gəlmişkən, həmin göstəricinin 129-u traktor, 356-sı digər texnika olub.

Bu məqamda kənd təsərrüfatının inkişafını ifadə edən digər bir göstəriciyə də nəzər salaq. Belə ki, bu ilin yanvar-fevral aylarında Azərbaycandan 16 min 475 ton alma, armud, heyva ixrac olunub. Bu, ötən illin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur. İxrac olunan məhsulun dəyəri də 2 dəfə çox olmaqla, 10 milyon 646 min 500 dollar təşkil edib.

Qeyd edək ki, ötən il Azərbaycanın kənd təsərrüfatı sektorunda sığorta ödənişlərində artım sürəti 21 faiz olmaqla 11,3 milyondan 13,7 milyon manata çatıb. Eyni zamanda, sığortalanmış obyektlərin dəyəri 502,8 milyon manat təşkil edib. Həmçinin 2022-ci ildə sığortalanmış mal-qaranın sayı 13 min 102 baş, tarla sahələri 261 min 223 hektar olub. Bundan başqa, ötən il sığorta hadisələri üzrə ödənişlər 2,4 milyon manata çatıb.

Xatırladaq ki, 2022-ci ildə Azərbaycanın aparıcı sığorta şirkətlərinin toplam yığımları 881,805 milyon manat və ya sığorta yığımlarının ümumi həcminin 90,83 faizini təşkil edib. Bu dövrdə ölkənin bütün sığorta şirkətlərinin toplam yığımları isə 970,823 milyon manat olub.

Hazırda kənd təsərrüfatının potensialının artırılması müxtəlif istiqamətlər üzrə həyata keçirilən genişmiqyaslı tədbirlər sistemi vasitəsilə reallaşdırılır. Ölkədə meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi də bunun bariz ifadəsidir.

Bununla bağlı xatırladaq ki, respublikada meliorasiya-irriqasiya sisteminin yenidən qurulması və təkmilləşdirilməsi məqsədilə dövlət büdcəsi vəsaitləri hesabına həyata keçirilən böyük miqyaslı layihələr hesabına son 10 il ərzində 390 min hektardan çox sahədə torpaqların su təminatı yaxşılaşdırılıb, 188 min hektar sahə yeni suvarılan torpaqlar qrupuna əlavə edilib. Həmçinin suvarılan sahələrdə müvafiq dövlət dəstəyi hesabına tətbiq olunan müasir suvarma sistemlərinin payı artıq 5 faizdən çox olub.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### *Ekspert rəyi*

**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**



Ölkədə kənd təsərrüfatı sahəsində innovasiyaların tətbiqi ilə bağlı artıq çoxsaylı təcrübələr yaranıb. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan elmi tədqiqat institutları tərəfindən təcrübə xarakterli, özəl şirkətlər tərəfindən isə kommersiya məqsədi ilə “ağıllı istixana” və “ağıllı bağ”lar qurulub, torpaq və su sensorları, “ağıllı” suvarma sistemləri, aqrodronlar, aqrorobotlar, “dəqiq” əkin texnologiyaları tətbiq olunub.

Aqrar sahədə göstərilən dövlət xidmətlərinin optimallaşdırılması, səmərəliliyinin və şəffaflığının artırılması, elektron xidmətlərə keçidin sürətləndirilməsi və vətəndaş məmnunluğunun yüksəldilməsi məqsədi ilə institusional islahatlar həyata keçirilib. “Elektron kənd təsərrüfatı” informasiya sisteminin (EKTİS) tətbiq edilməsinə başlanılıb, artıq 2020-ci ildən başlayaraq bitkiçilik və heyvandarlıq sahəsində fermerlərə subsidiyaların alternativsiz olaraq EKTİS vasitəsilə verilməsi təmin edilib.

Aqrar sığorta sahəsində kompleks islahatlar aparılıb, yeni qanunvericilik bazası və dövlət-özəl tərəfdaşlığı mexanizminə əsaslanan idarəetmə sistemi yaradılıb. Yeni aqrar sığorta mexanizmi artıq 2020-ci ildən etibarən həm bitkiçilik, həm də heyvandarlıqda tətbiq edilir. Hazırda aqrar sığorta sisteminin tətbiqinin genişləndirilməsi istiqamətində tədbirlər ardıcıl olaraq həyata keçirilir və aqrar sığorta göstəriciləri hər il yüksəlir.

Kənd təsərrüfatı məhsulları istehsalçılarının dövlət qayğısı ilə əhatə olunması bütün əsas istiqamətlərdə irəliləyişlərə yol açıb. Son 10 il ərzində ölkədə real ifadədə kənd təsərrüfatı məhsulları istehsalı 46,8 faiz (o cümlədən bitkiçilik məhsulları istehsalı 53,0 faiz, heyvandarlıq məhsulları istehsalı 42,5 faiz) artıb. Bu dövr ərzində kənd təsərrüfatı və ərzaq məhsullarının ixrac həcmi təqribən 26,9 faiz artıb ki, bu da xüsusilə ilkin kənd təsərrüfatı məhsullarının ixrac həcminin bir neçə dəfə çoxalması hesabına olub.

Əsas ərzaq məhsulları üzrə yerli istehsal potensialının gücləndirilməsi hesabına özünütəminetmə səviyyəsi əksər məhsullar üzrə yaxşılaşıb. Hazırda özünütəminetmə səviyyəsi meyvə-tərəvəz, bostan məhsulları və yumurta üzrə 100 faiz, ət və süd məhsulları üzrə ümumən 85-86 faiz, kartof üzrə təqribən 90 faiz, buğda üzrə təqribən 60 faiz təşkil edir.

Təbii resursların məhdudluğu səbəbindən yerli fermerlər tərəfindən zəruri həcmdə və ya keyfiyyətdə, həmçinin sərfəli qiymət şərtlərinə uyğun səviyyədə istehsal oluna bilməyən ərzaq məhsullarının daha əlverişli şərtlərlə idxal olunaraq ehtiyatlarının yaradılması və emal olunması üçün müvafiq saxlama infrastrukturu və istehsal bazası yaradılıb. Belə ki, kənd təsərrüfatı məhsulları üzrə bazar infrastrukturunun təkmilləşdirilməsi məqsədilə son illər ərzində dövlət dəstəyi hesabına regionlarda 400 min ton tutumu olan soyuducu anbarların, 1,9 milyon ton tutumu olan müasir taxıl elevatorlarının və digər logistika obyektləri qurulub. Bu istiqamətdə görülən işlərin sayəsində torpaq resurslarının məhdudluğu və təbii-iqlim şərtlərinin əlverişli olmaması səbəbindən yerli fermerlər tərəfindən zəruri həcmdə istehsal oluna bilməyən buğda, şəkər və bitki yağları xammalı, yem xammalı və s. məhsullar daha əlverişli şərtlərlə idxal olunaraq ehtiyatlar yaradılır, emal olunur və hətta ixrac edilir.

# Ölkədə vergi daxilolmaları artıb

**Cari ilin yanvar-mart aylarında İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 4 milyard 899,5 milyon manat vəsait daxil olub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 74,8 faiz çoxdur.**



Bu barədə iqtisadiyyat nazir Mikayıl Cabbarov "Twitter" hesabında bildirib. Nazirin sözlərinə görə, rüblük vergi daxilolmalarının 2 milyard 618 milyon manatı qeyri-neft-qaz sektorunun hesabına formalaşıb. Bu isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 16,4 faiz artıqdır.

Nazir qeyd edib ki, fiskal gəlirlərdə əhəmiyyətli artımlar iqtisadiyyatımızın dayanıqlığını gücləndirir.

***“Xalq qəzeti”***




# Sumqayıt Kimya Sənaye Parkında yeni rezidentlər

**İqtisadiyyat Nazirliyinin tabeliyindəki İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Sumqayıt Kimya Sənaye Parkında daha 3 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Bununla da, parkın rezidentlərinin sayı 35-ə çatıb.**

Yeni rezidentlər - “Az-Kom Servis” MMC tullantı yağının təkrar emalı nəticəsində SN 150, SN 350 və SN 500 markalı baza yağı, eləcə də bitum və dizel yanacağı, “Neo Project” MMC müxtəlif ölçülü kompozit (fiberqlas) armatur və şəbəkə istehsalı, “Sakuraz Green Energy” MMC isə litium akkumulyatorlarının bərpasını həyata keçirəcək müəssisə inşa edəcək.

***“Xalq qəzeti”***

HEYDƏR ƏLİYEV – 100

# Ulu öndər və Azərbaycanın milli intibahı

**Paytaxtın Nəsimi rayonunda ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi qarşısında Milli Məclis üzvlərinin, ziyalıların və ictimaiyyət təmsilçilərinin iştirakı ilə keçirilən toplantıda dünya şöhrətli siyasətçi və dövlət xadiminin Azərbaycana rəhbərlik etdiyi bir qərinəlik müddət xalqımızın həyatında milli intibah dövrü kimi diqqət mərkəzində olub.**



"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir!" mövzusunda konfrans ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığını əks etdirən videoçarxın nümayişi ilə başlanıb.

Yubiley məclisini giriş sözü ilə açan Nəsimi rayon icra hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, bu gün ölkəmizdə hüquqi-demokratik dövlət quruculuğunun uğurları hər bir soydaşımızda hədsiz qürur doğurmaqla bərabər, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin şəxsiyyətinin əzəmətini də dərindən dərk etməyə imkan yaradır, ulu öndərin ideya və əməllərinin həmişəyaşarlığı həqiqətini bir daha təsdiqləyir. Rayon rəhbəri vurğulayıb ki, ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf və ümumi tərəqqi kursunu bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev məharətlə davam etdirir. Qarabağın xilası uğrunda 44 günlük müqəddəs savaşda qazanılmış Zəfər isə dövlətimizi və xalqımızı yeni hədəflərə yönləndirib.

"Heydər Əliyev Azərbaycanı davamlı iqtisadi inkişafa aparan strategiyanın banisidir" mövzusunda çıxış edən Milli Məclisin deputatı, akademik Ziyad Səmədzadə unudulmaz rəhbərin liderlik missiyasını belə ifadə edib: "Çağdaş Azərbaycan tarixinin 34 illlik bir dövrü, bütünlüklə Heydər Əliyevin fenomen şəxsiyyəti və titanik quruculuq fəaliyyəti ilə bağlıdır. Bu baxımdan ulu öndərin həyat yolu öz xalqının tarixi taleyində həlledici rol oynamaq örnəyidir".

Ulu öndər Heydər Əliyevin ölkəsinə və xalqına göstərdiyi misilsiz xidmətlərin zaman ötdükcə daha dərindən dərk edilən dövlətçilik salnaməsi olduğunu söyləyən Azərbaycan Dillər Universitetinin rektoru, professor Kamal Abdulla bildirib: "Bu dahi şəxsiyyət nadir siyasi fəhmi, dərin zəkası, hədsiz bacarığı, bənzərsiz liderliyi, zəngin təcrübəsi ilə Azərbaycanın müstəqilliyinin qazanılmasını və möhkəmləndirilməsini, onun regionun lider dövlətinə çevrilməsini, beynəlxalq birlikdə layiqli yer qazanmasını ən yüksək səviyyədə təmin etmişdir".

Heydər Əliyevin neft sənayesinin inkişafındakı əvəzsiz rolundan danışan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru, professor Mustafa Babanlı ulu öndərin iqtisadi strategiyasının alternativsizliyini diqqətə çatdırıb: "Bu siyasətin nəticəsidir ki, Azərbaycan 4-cü sənaye inqilabının regional mərkəzinə çevrilmişdir. Bu isə Azərbaycanın möhkəm iqtisadi təməllər üzərində yüksəldiyini göstərir, Qafqazın lider dövləti kimi tezliklə inkişaf etmiş ölkələr sırasında yer tutacağına zəmanət verir".

AMEA Tarix İnstitunun "Əliyevşünaslıq" şöbəsinin müdiri, professor Ədalət Qasımov isə Heydər Əliyevin həm nadir tarixi şəxsiyyət, həm də parlaq tarix yaradan lider olduğunu söyləyib: "Bu gün ulu öndərin uca amalları bəşəri dəyəri ilə dünya xalqlarına da fayda gətirir. Buna görə də xalqımızın böyük oğlunun adı dünyanın hər yerində uca tutulur, xatirəsi ehtiramla anılır".

Məclis ulu öndərin belə bir təliminin ucadan səslənməsi ilə sona çatıb: "Xalq öz müstəqilliyini qorumaq, gələcəyini qurmaq istəyirsə milli-mənəvi dəyərlərinə söykənməlidir. Milli mentaliteti qoruyb-yaşadan dilimiz, dinimiz, adət-ənənəmizdir".

*T.AYDINOĞLU, "Xalq qəzeti"*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 98** **Bakı şəhəri, 5 aprel 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nda dəyişiklik edilməsi barədə***

"Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 29 noyabr tarixli 657-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 21 aprel tarixli 66 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 4, maddə 283; 2010, № 1, maddə 66; 2013, № 5, maddə 584; 2015, № 2, maddə 227; 2018, № 12 (II kitab), maddə 2722; 2020, № 9, maddə 1222; 2022, № 4, maddə 407) ilə təsdiq edilmiş "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları"nın 3.13-cü bəndindən ", arayışı" sözü çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# "Yaşıl enerji"nin Naxçıvan hədəfləri



**Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan hökuməti Naxçıvan Muxtar Respublikasında, ən azı, 500 meqavatlıq günəş elektrik stansiyasının tikintisinin mümkünlüyünü nəzərdən keçirir. Artıq bu sahədə müvafiq işlərə başlanılıb. Yaşıl enerji konsepsiyasının muxtar respublikada geniş tətbiqi üzrə yaradılan işçi qrup Naxçıvanda səfərdə olub.**

Naxçıvan Biznes Mərkəzində işçi qrupun üzvləri muxtar respublika Energetika və Qaz İstismar xidmətlərinin əməkdaşları ilə görüşüblər. İşçi qrupunun rəhbəri, energetika nazirinin müavini Elnur Soltanov, qrupun üzvü, Naxçıvan MR Ali Məclisinin aparat rəhbəri Ülvi Hüseynli, Naxçıvan Energetika Xidmətinin rəisi Namiq Paşayev, Qaz İstismar Xidmətinin rəisi Ramin İsmayılov mövcud imkanlar və qarşıda duran vəzifələrlə bağlı geniş müzakirə aparıblar.

Sonra Culfa Külək-Günəş Hibrid Elektrik, Naxçıvan Modul Elektrik, Naxçıvan Qaz Kompressor, Naxçıvan Günəş Elektrik stansiyalarına və yeni günəş panelləri qurulacaq əraziyə baxış keçirilib.

Sonda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli işçi qrupun üzvləri ilə görüşüb. Naxçıvanda yaşıl enerji konsepsiyasının tətbiqi imkanları müzakirə olunub, bu sahədə işlərin sürətləndirilməsinin vacibliyi diqqətə çatdırılıb.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"***

**Naxçıvan**

# "Heydər Əliyev və təhlükəsizlik orqanları"



**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Göyçay şəhərində ulu öndərin 100 illik yubileyinə həsr edilmiş "Heydər Əliyev və təhlükəsizlik orqanları" mövzusunda növbəti tədbir keçirmişdir.**

Tədbirdə Göyçay RİH-in, DTX-nın rəhbərləri və əməkdaşları, Milli Məclisin deputatları, təhlükəsizlik orqanlarının veteranları, Vətən müharibəsi iştirakçıları və rayon ictimaiyyətinin nümayəndələri iştirak etmişlər.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin Göyçay şəhərində ucaldılmış abidəsi ziyarət olunmuş, önünə gül dəstələri qoyulmuşdur.

Qonaqlar Göyçaydakı Heydər Əliyev Mərkəzinin foyesində ümummilli liderin həyatının müxtəlif dövrlərini əks etdirən fotoşəkillərin nümayiş olunduğu guşə ilə tanışlıqdan sonra rəsmi tədbir başlanmışdır.

Öncə dahi rəhbər Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuş və Dövlət Himni səsləndirilmişdir.

Göyçay Rayon İcra Hakimiyyətinin başçısı Natiq Ağayev Heydər Əliyevin təhlükəsizlik orqanlarından başlayan mənalı ömür yolu və zəngin həyat fəaliyyəti barədə məruzə etmişdir. O, ulu öndərin Azərbaycanın çiçəklənməsi və qüdrətlənməsi yolunda gördüyü ölçüyəgəlməz işlərdən, respublikamızın təhlükəsizliyinin və ərazi bütövlüyünün etibarlı qorunması, xalqımızın sülh və əmin-amanlıq şəraitində yaşaması naminə göstərdiyi fədakarlıq nümunələrindən və hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin davamlı tərəqqisindən söhbət açmışdır.

Digər çıxışçılar da görkəmli dövlət xadimi Heydər Əliyevin təhlükəsizlik orqanlarının tarixində ilk azərbaycanlı general olaraq respublika DTX-nin inkişafına misilsiz töhfələr verdiyini, qurumu milli kadrlarla komplektləşdirdiyini diqqətə çatdırmışdır.

Sonda tədbir iştirakçıları DTX-nin AzTV ilə birgə ərsəyə gətirdiyi "Konfidensial" layihəsinin növbəti buraxılışı olan və Heydər Əliyevin rəhbərliyi altında keçirilmiş "Port-Pəhləvi" əməliyyatından bəhs edən sənədli filmə baxmışlar.

*"Xalq qəzeti"*

# Hərbi Prokurorluq xüsusi təyinatlılarla birlikdə "Heydər Əliyev İli" ilə bağlı tədbir keçirib

**Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin birgə tədbiri keçirilib.**



Çıxış edənlər ümummilli lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, çoxşaxəli fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışlarda, həmçinin dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə həyata keçirilmiş hərtərəfli islahatlardan, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən danışılıb.

*"Xalq qəzeti"*

# "Azərbaycan Hava Yolları" 12 təyyarə alacaq




**AZAL A320neo və A321neo laynerləri daxil olmaqla A320neo ailəsinə aid 12 "Airbus" təyyarəsi üçün sifariş verib. Müqavilə aprelin 6-da Bakıda imzalanıb.**

"Biz donanmamızın modernləşdirilməsi proqramı üzrə "Airbus" ilə qarşılıqlı faydalı əməkdaşlığımızı davam etdirməkdən məmnunuq və ikitərəfli tərəfdaşlığımızı gücləndirmək niyyətindəyik. İmzalanmış müqavilə sərnişinlərimizə ən müasir və komfortlu dar gövdəli təyyarələri ilə səyahət təmin edəcək" – deyə AZAL QSC-nin birinci vitse-prezidenti Samir Rzayev bildirib.

"Airbus" Beynəlxalq Departamentinin rəhbəri və baş kommersiya direktoru Kristian Şerer vurğulayıb ki, "Bu sifariş "Airbus" və "Azərbaycan Hava Yolları" arasında məhsuldar əməkdaşlıqda mühüm mərhələdir. A320neo ailəsi öz donanması üçün sərfəli həllər axtaran aviaşirkətlər üçün ən yaxşı seçim olaraq qalır.

A320neo təyyarələri böyüdülmüş "Sharklets" qanad ucları, CO2 emissiyalarını azaldan və ən azı 20% yanacaq qənaəti təmin edən yeni nəsil mühərriklər kimi ən son texnologiyalarla təchiz edilib. A320neo ailəsi 135 müştərinin 8700-dən çox sifarişi ilə dünyada ən populyar hava gəmisi növüdür.

*"Xalq qəzeti"*

# Böyük Britaniyanın parlament heyəti Ağdamda



**Böyük Britaniya Parlamentinin İcmalar Palatasının üzvü və Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmənin başçılıq etdiyi nümayəndə heyəti Ağdam şəhərində olub.**

Onlar Ermənistanın işğal zamanı Azərbaycan ərazisində törətdiyi vandalizmi öz gözləri ilə görüblər. Qonaqlara bildirilib ki, Ermənistanın işğal etməsinə qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Ermənilər işğal etdikləri Ağdam şəhərində və rayonun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, uşaq bağçalarını, xəstəxanaları, istehsal müəssisələrini talan edib, uçurub və yandırıblar.

Erməni vandalları, hətta Şəhidlər xiyabanlarını, qəbiristanlıqları da dağıdıblar. İşğaldan azad olunduqdan sonra burada həyata keçirilən tikinti-quruculuq işləri barədə qonaqlara məlumat verilib, onlara Ağdamın Baş planı göstərilib. Böyük Britaniya nümayəndə heyətinin üzvləri Ağdamda minatəmizləmə fəaliyyəti ilə məşğul olan ANAMA əməkdaşları ilə də görüşüblər.

Səfərdə qonaqları Milli Məclisin Azərbaycan-Böyük Britaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

***Əliqismət BƏDƏLOV,***
***"Xalq qəzeti"***

# Beynəlxalq hüquq Qərbi Azərbaycana Qayıdışa təminat yaradır

**Beynəlxalq hüququn tələbi ilə Qərbi azərbaycanlıların Ermənistan ərazisində qalan əmlakları üzərində mülkiyyət hüququ hələ də öz qüvvəsindədir. Bu hüququn təmin edilməsi məqsədilə sivil dünyada bir sıra sənədlər və mexanizmlər mövcuddur.**



Belə sənədlərdən biri BMT-nin İqtisadi və Sosial Şurasının 2005-ci ildə qəbul etdiyi Qaçqınlar və məcburi köçkünlər üçün ev və əmlak restitusiyası prinsipləridir. Qaçqınların və məcburi köçkünlərin mənzil və əmlaklarının bərpası üzrə BMT-nin xüsusi məruzəçisi Paulo Pinheironun şərəfinə adlandırılan "Pinheiro prinsipləri" mülkiyyətin bərpası proseslərinin qurulması və həyata keçirilməsi üçün hüquqi, inzibati və icra qaydaları təklif edir.

Bu prinsiplər beynəlxalq hüquqda "yumşaq hüquq" xarakteri daşısa da, onun mötəbərliyi İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin 2015-ci ilin iyun ayında Dağlıq Qarabağ münaqişəsi ilə bağlı iki iş (Sarkisyan Azərbaycana qarşı; Çıraqov və digərləri Ermənistana qarşı) üzrə qəbul etdiyi qərarlarda və Avropa Şurasının qətnamələrində (Avropa Şurası Parlament Assambleyasının 1708 (2010) saylı qətnaməsi) bir daha öz təsdiqini tapmışdır.

Bəs Pinheiro prinsipləri Qərbi azərbaycanlıların mülkiyyət hüququ məsələsində hansı imkanlar yaradır?

Pinheiro prinsipləri bərabər olaraq, bütün qaçqınlara, məcburi köçkünlərə və "köçkünə bərabər vəziyyətdə olan digər şəxslərə" şamil edilir. Prinsiplərin 2-ci maddəsinə uyğun olaraq, bütün qaçqınlar və məcburi köçkünlər qeyri-qanuni yolla məhrum edildikləri yaşayış yeri, torpaq və əmlaklarının restitusiyası hüququna (yəni pozuntudan əvvəlki vəziyyətin bərpası) malikdirlər. Bu, mümkün olmayan hallarda isə müstəqil və qərəzsiz məhkəmənin müəyyən etdiyi formada yaşayış yeri, torpaq və əmlakın əvəzi ödənilməlidir.

Dövlətlər məcburi köçkünlüyün başa çatdırılması və ədalətli sülhə nail olunması istiqamətində restitusiyanı prioritet alət hesab etməlidirlər. Restitusiya hüququ bütün digər hüquqlardan fərqlidir, çünki qaçqınların və məcburi köçkünlərin geri qayıdıb-qayıtmamasından asılı olmayaraq, onların yaşayış yeri, torpaq və əmlaka olan hüquqlarını təsdiq və təmin edir .

Prinsiplər əlavə olaraq qaçqınların və məcburi köçkünlərin aşağıdakı hüquqlarını da tanıyır:

***– ayrı-seçkiliyə məruz qalmamaq hüququ;***

***– qanun qarşısında bərabərlik hüququ;***

***– qadın və kişilərin bərabərlik hüququ;***

***– məcburi yerdəyişmədən müdafiə olunmaq hüququ;***

***– şəxsi həyat və evə hörmətlə yanaşmaq hüququ;***

***–əmlakdan sərbəst istifadə hüququ;***

***– adekvat yaşayış yeri hüququ;***

***– hərəkət hüququ və öz yaşayış yerini seçmək hüququ;***

***– təhlükəsiz və ləyaqətli qayıtmaq hüququ;***

***– kompensasiya almaq hüququ.***

Ölkələrin üzərinə bu hüquqları təmin etmək öhdəliyi qoyulub. 12-ci maddəyə uyğun olaraq, qaçqınların və məcburi köçkünlərin yaşayış yeri, torpaq və əmlaklarının restitusiyası tələblərini araşdırmaq və icra etmək üçün "bərabər, vaxtında, müstəqil, şəffaf və ayrı-seçkiliyə yol verməyən prosedurlar, institutlar və mexanizmlər yaradılmalı və dəstəklənməlidir". Bunu edərkən, dövlətlər iddiaçıların yaşına və cinsinə həssaslıqla yanaşmalıdırlar.

Həmin maddənin müvafiq bəndlərinə uyğun olaraq, bu işləri həyata keçirənlər üçün inzibati, hüquqi və məhkəmə tədbirləri görüməli, müvafiq qurumları adekvat maliyyə, insan və digər resurslarla təmin edilməlidir. Ehtiyac olduqda müvafiq beynəlxalq təşkilatlardan dəstək istənilməlidir. Zərurət olduqda, bununla bağlı yeni qanun və ya qaydalar qəbul edilməli, yaxud mövcud qanunlar və qaydalar dəyişdirilməlidir.

Pinheiro prinsipləri, eyni zamanda, onu da qeyd edir ki, dövlətlər restitusiya məsələlərini sülh sazişlərinə daxil etməlidirlər (maddə 12.6). Dövlətlər yaradılmış restitusiya mexanizmləri barədə məlumatları qaçqınlara və məcburi köçkünlərə həm öz ölkələrində, həm də sığınacaq ölkəsində çatdırmalıdırlar. Bu məlumatlardan savayı, restitusiya tələbi formaları sadə, qaçqınların və köçkünlərin başa düşdükləri dildə hazırlanmalıdır. Bununla əlaqədar hüquqi yardım göstərilməsi (mümkün olduqda ödənişsiz) təmin edilməlidir.

Digər önəmli təminatlardan biri restitusiya tələbi irəli sürən şəxsə qarşı hər hansı bir təqibin və ya cəzanın tətbiq edilməməsi və qərarların qəbulunda müvafiq "şəxslərin, qrupların və icmaların" iştirakının təmin edilməsidir. Eyni zamanda, restitusiya qərarının müvafiq qurumlar tərəfindən icra edilməsinə dair dövlətin öhdəliyi də müəyyən edilmişdir.

Məlumdur ki, restitusiya tələbləri əmlaka dair müvafiq sənədlər üzərində həyata keçirilməlidir. Bu məqsədlə Pinheiro prinsipləri qeyd edir ki, dövlətlər münaqişə dövründə və ya münaqişədən sonrakı dövrdə müvafiq qeydiyyat sistemlərinin məhv edilməməsini təmin etməlidirlər. Yəni ehtiyac olduqda həmin sənədləri başqa yerə keçirməli və ya rəqəmsallaşdırmalıdırlar. Bu sənədlər iddiaçının müraciəti əsasında dövlət tərəfindən ona təqdim edilməlidir.

Restitusiya tələblərini araşdırarkən, dövlətlərin hər hansı məcburetmə və ya beynəlxalq insan haqları hüququ standartlarına zidd həyata keçirilmə nəticəsində mülkiyyət hüququnun özgəninkiləşdirilməsini tanımayacaqları da Pinheiro prinsiplərinin maddələrində öz əksini tapmışdır .

Restitusiya prosesinin bir komponenti olaraq, bütün qaçqınların və köçkünlərin "tam və səmərəli kompensasiya" almaq hüququ vardır . Bu kompensasiya pul və ya digər formada ola bilər. Əgər ev, torpaq və ya əmlak məhv edilibsə, müstəqil və qərəzsiz məhkəmənin qərarı ilə restitusiya faktiki olaraq mümkün deyilsə, mülk sahiblərinin öz əmlaklarını bərpa etmək və ya yenidən tikmək imkanları imkan olduğu qədər təmin edilməlidir .

Sonda qeyd edək ki, Pinheiro prinsipləri ev, torpaq və əmlakın restitusiya hüququnun müdafiəsinə, qaçqınların və məcburi köçkünlərin təhlükəsiz və ləyaqətli qayıdışına görə məsuliyyəti beynəlxalq ictimaiyyətin üzərinə qoyur.

**Məhəmməd QULUZADƏ,**
**Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyətinin sədri,**
**hüquq üzrə fəlsəfə doktoru**

---



**Həmsöhbətimiz – taleyinə 56 ildir ki, didərginlik yazılmış Bəylər Heydərov 10 may 1950-ci ildə Qərbi Azərbaycanın Dərələyəz mahalının Zeytə kəndində anadan olub. Ermənilərin soydaşlarımıza qarşı düşmənçiliyi ilə üzləşib, hüquqları tapdalanıb, mütəmadi olaraq təhqir edilib. Aramsız davam edən qeyri-insani münasibətə dözməyərək 1967-ci ilin payızında öz doğma yurd-yuvasını tərk etmək məcburiyyətində qalıb. Ata, ana, 3 qardaş və 5 bacısı ilə birlikdə Sabirabad rayonunun Şıx Salahlı kəndində məskunlaşıb.**

# "Dərələyəz heç zaman yuxularımdan çıxmır"

**– Bəylər dayı, gəlin əvvəlcə, kəndinizlə bağlı xatirələri yada salaq...**

– Mən orta məktəbi orada bitirmişəm. O vaxt Dərələyəzdə iki rayon olmasına baxmayaraq, Azərbaycan dilində orta məktəb bir kənddə idi. Bu da Exeqnadzor (Keşkənd) rayonunun Qovuşuq kənd orta məktəbi idi. İki rayonun azərbaycanlı şagirdləri doqquz-onuncu sinifləri Qovuşuq kəndində oxumalı olurdular. Biz həmin məktəbə getmək üçün bir neçə erməni kəndindən keçirdik. Hər dəfə məktəbə gedib-gələndə erməni dığaları yolumuzu kəsərək bizimlə dalaşırdılar.

Ermənilər bizə "türk" deyirdilər və onların bu sözü deyəndə üzlərindəki nifrət, qəzəb ifadəsini heç cür unuda bilmirəm. Bundan başqa, rayon mərkəzinə bazarlığa gedərkən bizi təhqir edirdilər. Heç yadımdan çıxmır, kəndimizdə yaşayan Sonasər adlı erməni üzümə qarşı dedi ki, sovet höküməti olmasa sizin hamınızı öldürüb qanınızı içərdim. Bu söhbətdən sonra başa düşdük ki, əgər qalmalı olsaq, burada bizi yaxşı aqibət gözləmir. Ona görə də, nə qədər çətin olsa da, doğma vətənimizdən köçməyə qərar verdik və Sabirabadın Şıx Salahlı kəndinə gəldik.

**– Dədə-baba yurd-yuvanızdan köç edəndə bütün kənd camaatı eyni yerə yerləşdirildi, yoxsa hərə bir tərəfə dağıldı?**

– Qərbi Azərbaycandakı kəndimiz 50–60 evdən ibarət idi. Hazırda Azərbaycanın 30-dan çox rayonunda məskunlaşmışıq. Dediyiniz kimi, hərə bir tərəfə dağılıb. Necə deyərlər, nə öləndən xəbərimiz olur, nə itəndən. Hamı yadlaşır, ən yaxın qohum-əqraba bir-birini tanımır. Bax bu da bizim aldığımız zərbələrin, məncə, ən ağırıdır.

**– O yerlərdən ötrü heç darıxırsanmı?**

– Darıxmamaq olarmı, gecələr yuxularımda Dərələyəzi görürəm. 56 ildir elə bilirəm ki, kəndən dünən çıxmışam. Doğulub-böyüdüyün, babalarının məzarları kimsəsiz qalmış yurdu necə unudasan? Yuxularımız bizdən də sədaqətlidir... Oranın dağlarını, yamyaşıl ormanlarını, buz bulaqlarını, nərgizini, bənövşəsini, baldırğanını mən nə cür unudum? Mənim üçün nə qədər ağır olsa da, deməliyəm: uşaqlığımın və gənclik illərimin ən yaxşı xatirələri Zeytədə qaldı.

**– Bəylər dayı, nə vaxtsa o yerlərə qayıdacağına inanırsanmı?**

– İnanıram! İnanmasam, yaşaya bilmərəm axı. İnandığım kimi də böyük ümidlərlə gözləyirəm. 44 günlük müharibədə Qarabağda torpaqlarımızı erməni işğalçılarından azad etdik. İnanıram ki, Ali Baş Komandan, dövlət başçısı möhtərəm İlham Əliyevin apardığı uğurlu siyasət bizi tezliklə Qərbi Azərbaycana da qaytaracaq.

– İnşallah, o günü hamımız səbirsizliklə gözləyirik.

**Söhbəti hazırladı:**
**Səməd HÜSEYNOĞLU,**
**"Xalq qəzeti"nin bölgə müxbiri**



---

# Əştərəkdə qalan silinməz-pozulmaz izlərimiz...

**Qərbi Azərbaycanın qədim bölgələrindən biri də Əştərəkdir. Tarixi qaynaqların verdiyi məlumata, burada yaşamış yerli xalqın mənşəyini, soy-kökünü əks etdirən yer adlarına əsaslandıqda aydın olur ki, Əştərək qədimdən oğuzların məskəni olmuşdur.**

Əştərək İrəvan şəhərinin mərkəzindən cəmi 20 kilometr məsafədə yerləşir. Bu bölgənin də əhalisinin əksəriyyəti azərbaycanlılar olmuşdur. Vaxtilə, Əştərək rayonuna daxil olan 50 kəndin 46-da azərbaycanlılar yaşamış, yer adları da türk mənşəli olmuşdur. Ermənilərin zaman-zaman Cənubi Qafqaza köçürülmələri isə onların bu ərazinin köklü sakinləri olan azərbaycanlılara qarşı "etnik təmizləmə" və "türksüz Ermənistan" siyasətini həyata keçirməsinə, torpaqlarımıza sahib çıxmaq uğrunda məkrli mübarizəsinə zəmin yaratmışdır.



Bu proses hələ XV–XVI əsrlərdə başlanmışdır. Sonrakı dövrdə isə ermənilər özləri üçün əlverişli və tarixi şəraitdən hər zaman öz milli maraqları naminə məharətlə yararlanmağa çalışıblar. Belə ki, XVI əsrdə Səfəvi dövləti ilə Osmanlı Türkiyəsi arasında başlanmış müharibə dağınıq şəkildə yaşayan ermənilərin bu ərazilərdə müstəqil dövlət yaratmaq xülyasını gücləndirmişdir.

Görkəmli tarixçi alim professor Süleyman Məmmədov ermənilərin Əştərək bölgəsinin Hovhanəvəng (Xənəvəng), Batrinç, Kirəcli, Muğni, Oşakan (Üşəyən) Yeğvard (Yağaverd) kəndlərini azərbaycanlılardan satın alması barədə sənədlərin mövcudluğunu göstərmişdir. Ermənilərin bu çirkin niyyətləri və yağmaçı əməlləri sözsüz ki, gələcəkdə azərbaycanlıların tarixi torpaqlarında "Ermənistan" dövləti yaradılmasına yönəldilmişdi.

İrəvan quberniyasının ən qədim kəndlərindən biri də Hamamlıdır. Əvvəllər bu kənd İrəvan quberniyasının Abaran mahalının inzibati-ərazi bölgüsünə aid idi. Rusiya İrəvan xanlığını zəbt etdikdən sonra yeni inzibati-ərazi bölgüsü yaratmışdı. Həmin dövrdə Hamamlı Eçmiədzin qəzasının tərkibinə daxil edilmişdi. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra isə həmin kənd Əştərək rayonuna aid edilmişdir. Hamamlı kəndi dəniz səviyyəsindən 1770 m yüksəklikdə yerləşirdi.

Hamamlıdan cənuba baxanda insanın gözü Araz çökəkliyinə, Araz çayı yamaclarına və Ağrı dağının ətəklərinə qovuşurdu. İrəvan çökəkliyinin "hökmdarı" Böyük və Kiçik Ağrı dağlarıdır. Hamamlı kəndindən cənub-qərbə, şimaldan cənuba doğru Ağmanqan silsiləsinin zirvələri qatarlanaraq Zəngəzur dağlarına doğru uzanır. Qarnıyarıq dağının zirvəsindən Göyçə gölü aydın görünürdü. Bir sözlə, Hamamlı kəndi elə bil ki, dağların daş qəfəsinin mərkəzi idi. İlahinin yaratdığı bu qeyri-adi təbii gözəllik burada yaşayan əhalinin qanına, zəkasına və ruhuna qarışmışdı. Hamamlıda hər şey insanla təbiətin vəhdətindən xəbər verirdi.

Təəssüf ki, Hamamlıda bir çox tarixi yerlər: məsələn "Dəmirdirək arxı", "Qaçaq Kərəm otağı", "Ağoğlan ziyarətgahı" kimi tarixi abidə, bir çox yazılı daş



kitabə, qəbilə-tayfa və yer adları var idi ki, bunlar da kifayət qədər araşdırılmamışdır. Ümumiyyətlə, Qərbi Azərbaycanın, eləcə də bu regionun tarixi, coğrafiyası, mədəniyyəti sovet dövrünün sərt qadağa və məhdudiyyətləri səbəbindən lazımi səviyyədə öyrənilməmiş və diqqətdən kənarda qalmışdır.

Ermənilər bu ərazidə yaşayan azərbaycanlı əhaliyə qarşı soyqırımı və deportasiya cinayətləri törədərək maddi və mənəvi irsimizi məhv etməyə çalışmışlar. Lakin onlar bu zəngin bütün izlərini silməyə nail olmamışlar. Coğrafi adlar yurd yerlərinə vurulan milli möhür, tatrixin yaddaşıdır. Hamamlı da belə onomastik vahidlərdən biridir. Hamamlı sakinləri ermənilər tərəfindən 1905,1915, 1918-1920,1948-1953-cü illərdə olmazın məşəqqətlərə, soyqırımlarına, deportasiyalara düçar olmuş və bir çox faciələrlə üzləşmişlər.

Bu qanlı cinayətlər azərbaycanlılar yaşayan Əştərək, o cümlədən Təhkiyə və Kirəşli kəndində daha amansız şəkildə həyata keçirilmişdir. Yaşlı nəslin nümayəndələrinin dediklərindən aydın olur ki, ermənilərin Təhkiyə kəndinə hücumu zamanı köməksiz, əliyalın qalan əhali məscidə toplaşaraq elə zənn ediblər ki, ermənilər Allahın evində onlara toxunmazlar. Lakin qəddar düşmən Allahın evini camaat ilə bərabər yandırmışlar. Qonşu Üşü kəndinin azərbaycanlı əhalisi də həmin faciənin dəhşətlərini, qətliamlarını yaşamışlar.

Ermənilərin azərbaycanlıları sıxışdırma və təqibetmə siyasəti XX əsr boyunca bir anda olsun belə səngiməmişdir. Hamamlı faciəsi haqqında eşitdiklərim və vaxtilə bu müsibətləri yaşamış insanların dəhşət saçan şəhadətlərindən məlum olur ki, 1918-ci ilin soyuq qış günlərinin birində qonşu Haxış kəndini ermənilər qılıncdan keçirmişlər. Hamamlı kəndini də eynilə qılıncdan keçirməyə çalışmışlar. Hamamlı camaatının güclü müqaviməti nəticəsində erməni qüvvələri çox agır itkilər verərək geri çəkilməyə məcbur olmuşlar. Amma ermənilərin aramsız hücumları nəticəsində azərbaycanlı əhali doğma yurd yerlərini tərk etməyə məcbur olmuşdur. Onlar əvvəlcə Zəngibasarın Çobankərə və Mehmandar kəndlərinə getmişlər.

Bir müddət burda qaldıqdan sonra erməni quldur dəstələri bu bölgəyə də hücumlar təşkil etmişlər. Hamamlı camaatı zəngibasarlılarla, o cümlədən bölgənin bütün azərbaycanlı əhalisi ilə birlikdə Türkiyə ərazisinə keçmək üçün cənub-qərbə Araz çayına doğru üzlərini çevirmişlər. Babam bu dəhşətli mənzərəni göz yaşlarını saxlaya bilməyib, ağlaya-ağlaya danışardı ki, insan seli, uşaqların ağlaşması, böyüklərin qışqırtısı, dəhşətli səslər insanların canını lərzəyə salır, adamın bədənində qanı donurdu: "Arxadan erməni toplarının atəşindən canını qutarmaq üçün özlərini araza atanların bir hissəsini sel apardı, o taya keçənlərin bir hissəsi Türkiyə və Güney Azərbaycanda tələf oldu. Sağ qalanlar isə sonra çətinliklə geri qayıda bildilər".

1920-ci ildə Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra sağ qalmış azərbaycanlı əhali öz doğma ocağına qayıdır. 1918-1920-ci illərdə Hamamlı kəndini tərk etmiş 660 nəfər azərbaycanlıdan 1922-ci ildə cəmi 46 nəfəri öz doğma yurduna geri dönmüşdür. Ermənilər bundan sonra düşmənçiliklərini "bolşevizm", "beynəlmiləlçilik" pərdəsi altında həyata keçirmişdir. Sovet rejiminin sonunda isə soydaşlarımızı Qərbi Azərbaycandan zorakılıqla çıxarmağa nail olmuşlar.

**Cəlal ALLAHVERDİYEV,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent**

# Əl saxlayın, cənablar!

## Siz nüvə hədələri ilə dünyanı hara aparmaq istəyirsiniz?!

**Dünya istiqamətini xeyli dəyişib. Aparıcı qüvvələr, özünü dünyanın ağası, sahibi hesab edən ölkələr artıq bəşəriyyəti nüvə silahı ilə hədələməyə başlayıblar. Bu hədələr son günlər, həftələr ərzində artıb və bunu səsləndirənlər özlərinin bəşəriyyət qarşısında məsuliyyətlərini, demək olar ki, unudublar.**



Söhbət, təbii ki, Rusiya-Ukrayna müharibəsi kontekstində qarşıdurmalardan gedir. Qarşıduran tərəflər, əlbəttə, məlumdur – ABŞ və Rusiya. ABŞ özünün elan etdiyi kimi, Ukrayna böhranı ətrafında 50 ölkəni qanadları altına alaraq Rusiyanı çökdürməyə çalışır. Məqsəd çoxdan elan olunub, təzə məsələ deyil – təkqütblü, bir mərkəzdən idarə olunan dünya yaratmaqdır! Buna hazırda mane olan böyük güc Rusiyadır. İndiyədək dünya sosializm sistemi, eləcə də SSRİ dağılıb və bu sistemlərdəki ölkələr, demək olar ki, əsasən Qərbin – ABŞ-ın tərəfinə keçib. İndi məsələnin qalan hissəsi Ukraynada həll olunur. Qərb bu keçmiş sovet ölkəsinə istədiyi qədər silah-sursat verir, milyardlarla vəsait xərcləyir. Və açıq şəkildə elan edilir ki, Rusiya məğlub olmayınca Ukrayna müharibəsi başa çatmayacaq.

Rusiyada isə buna istehza edirlər: görünür, ABŞ sonuncu ukraynalı ölüncə geri çəkilməyəcək.

Məsələ bundadır ki, Rusiya özü də geri çəkilmək fikrində deyil. O, birqütblü dünya düzəni ilə razılaşmır. O, ikiqütblü dünya istəyir. Dünyanın iki mərkəzdən – ABŞ-dan və Rusiyadan idarə olunmasında israrlıdır. Rusiya Ukraynada məğlubiyyətlə də razılaşmır. O, Ukraynanı özünün bir parçası, ukraynalıları özünün milləti hesab edir və bir millət arasına nifaq salanlarla barışmır. Ukraynanı özünün təsir dairəsində saxlamaq istəyir. Bunun üçün Rusiya hər şeyə hazırdır. Hətta nüvə silahından istifadə etməyə, yeni dünyanı məhv etməyə də. Moskvada bu barədə açıq bəyanatlar da səslənir. Rusiya Prezidenti Vladimir Putin xeyli əvvəl demişdi ki, Rusiya olmayacaqsa, dünya da olmayacaq.

Bu günlərdə RF XİN başçısının müavini Sergey Ryabkov da eyni fikirləri səsləndirib. O deyib ki, Rusiya və ABŞ münaqişənin qaynar fazasına daxil olublar. ABŞ Rusiyaya qarşı ən müxtəlif istiqamətlər üzrə hibrid müharibəyə cəlb olunub və bu müharibənin bəzi formaları əvvəllər tarixdə olmamış analoqsuz xarakter daşıyır. Nazir müavini nüvə müharibəsi barədəki söhbətlərə də aydınlıq gətirərək deyib ki, Rusiya bu müharibədə qalibin olmayacağını dəfələrlə bildirib, ona görə də buna yol verməməlidir. Onun sözlərinə görə, ABŞ heç nəyi nəzərə almadan eskalasiyanı davam etdirir, onlar Rusiyanı strateji məğlubiyyətə uğrada biləcəkləri inamından əl çəkmirlər. Diplomat Vaşinqtonun, sözün həqiqi mənasında, odla oynadığını qeyd edib. Ryabkov deyib ki, Rusiyanın hər cür tədbir görməkdə qətiyyətli olduğunu və öz suverenliyini, ərazi bütövlüyünü, dövlətçiliyini qorumaq üçün bütün vasitələrdən istifadə edəcəyini qiymətləndirməməsi ABŞ üçün dəhşətli səhv olacaq.

Budur, bu bəyanatda da məğlub olmamaq üçün "hər cür tədbir" görüləcəyi, lazım gələrsə, nüvə silahına əl atılacağı sətiraltı ifadə olunur. Bəs indi necə olsun? Bu gedişlə, bu dirənişmələrlə dünyanın taleyi necə olsun? Bəlkə bu cənablar əl saxlasınlar! Bəlkə hələ bütün dünyanı nüvə silahı ilə məhv etməkdən daha yaxşı nə isə fikirləşmək mümkündür, cənablar! Bəlkə hər iki tərəf "Bir boynu olsaydı bəşəriyyətin, Onu bir qılıncla vurardım yəqin" iddiasından geri çəkilsin! Axı bəşəriyyətin məhv olmasındansa, kəlləşən güclərin hansısa kompromislər ətrafında razılığa gəlməsi daha yaxşı olar!

Dünən Türkiyə Prezidentinin rəsmi nümayəndəsi İbrahim Kalın da bununla bağlı narahatlığı bildirib: "Rusiya və ABŞ nüvə müharibəsi riski qarşısında razılığa gəlməlidirlər. Döyüşlərin güclənməsi və genişlənməsi ilə nüvə insidentləri riski də artır".

Türkiyənin XİN başçısı Mövlud Çavuşoğlu da Ukraynada münaqişənin çox tezliklə başa çatmasına çalışdıqlarını bildirib. O, dünən NATO ölkələri XİN başçılarının iclasından sonra keçirilmiş brifinqdə deyib: "Yaz hücumlarına hazırlıqların şahidi oluruq ki, bu da yeni qan tökülməsinə səbəb olacaq. Bu, bizi narahat edir".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da Rusiya və Ukraynanın sülh əldə etməsi üçün böyük səylər göstərib. O, savaşda tərəf tutmadığını, sadəcə qan tökülməsinin qarşısını almağa çalışdığını qeyd edib: "Rusiyanın, yoxsa Ukraynanın daha üstün olduğunu düşünmürəm. Yeganə arzumuz bu müharibənin sülhlə başa çatmasıdır. Cənab Putinə də, Zelenskiyə də tövsiyəm, onlardan xahişim budur. İnsanların ölümü ilə nəticələnən müharibənin qalibi olmaz. İndiyədək Ukraynadan 3 milyona yaxın taxıl ixrac olunub. Taxıl ixracı məsələsində yeganə arzum məhsulların inkişaf etmiş yox, az inkişaf etmiş və ya kasıb ölkələrə daşınmasıdır".

Son vaxtlar Çin də Ukrayna münaqişəsinin nüvə müharibəsinə çevrilməsinin get-gedə reallığa çevrilə biləcəyini nəzərə alaraq, məsələnin həllinə özünün töhfələrini verməyə can atır. Çin lideri Si Cinpinin Moskvaya səfərindən sonra Qərbdə bu ölkənin Rusiyaya silah verəcəyi ilə bağlı ajiotaj yaransa da, əslində məqsəd sülh yaradılması, dünyanın böyük nüvə fəlakətindən xilas edilməsidir. Qərbdə nüvə təhdidləri barədəki bəyanatlara zarafat kimi yanaşılsa da, Çində məsələ ciddi qəbul edilir.

Çinin Avropa İttifaqındakı səfiri Fu Çun isə "New York Times" qəzetinə müsahibəsində Qərbin ölkəsi ilə bağlı bütün şübhələrini alt-üst edib. Onun "Çin Rusiyanın Ukraynaya təcavüzünü dəstəkləmir, Krımı və Donbası Rusiya kimi tanımır" – bəyanatı Qərbdə bomba effekti yaradıb.

Fu Çun Rusiyanın Ukraynaya müdaxiləsi ərəfəsində Rusiya Prezidenti Vladimir Putinin Çinə səfər etməsini, Moskva ilə Pekin arasında qəbul olunan "hüdudsuz dostluq" haqqında bəyanatı da şərh edərək deyib ki, "hüdudsuz dostluq" ritorikadan başqa bir şey deyil".

Lakin Çin diplomatı bildirib ki, ÇXR Rusiyanın Ukraynaya hücumunu pisləmir, çünki Moskvanın NATO-ya qarşı müdafiə olunmaqla bağlı tezislərini anlayır və buna görə də əsas səbəblərin Qərb liderlərinin dediklərindən daha mürəkkəb olduğuna inanır.

Fu Çun Çinin Rusiyaya silah verməyəcəyini və verməyəcəyini söyləyib, ABŞ televiziya kanallarını yalan xəbər yaymaqda günahlandırıb.

Deməli, sülh üçün iddialardan, bütün müharibələrdən yaxşıdır. Ona görə də hamı sülh üçün çalışmalıdır. Elə Qərb də...

**Paşa ƏMİRCANOV,**
**"Xalq qəzeti"**

# Trampın təqsiri varmı?

## ABŞ-da sabiq prezidentin həbsi gerçəkləşə bilər

**Məlum olduğu kimi, aprelin 4-də ABŞ-ın sabiq prezidenti Donald Tramp məhkəmə qarşısına çıxıb. Birləşmiş Ştatlarda 2024-cü ildə keçiriləcək prezident seçkilərində namizədliyini irəli sürmək üzrə olan siyasətçi 17 illik romantik eşq macərası barədə susması müqabilində porno aktrisa Stormi Danielsə ödənişlərini gizlətmək üçün maliyyə sənədlərini saxtalaşdırmaqda ittiham olunub.**



Qeyd edək ki, cinayət işinin başlanmasına səbəb olan qalmaqaldan ictimaiyyət hələ 2018-ci ildə xəbər tutmuşdu. Keçmiş porno aktrisa, hazırda "paranormal araşdırmalar" haqqında televiziya şousunun aparıcısı Stormi Daniels (əsl adı - Stefani Klifford) jurnalistlərə 2006-cı ilin iyulunda Donald Trump ilə yatdığını söyləmişdi.

İttiham öz yerində. Onun doğruluğuna inanan çox az adam tapılar. Hətta, Trampın aktrisa ilə gizli eşq macarasının mövcudluğuna inananlar olsa belə, sabiq prezidentin həbs təhlükəsinin başqa səbəblərə görə gündəmə gəldiyini vurğulayanlar daha çoxdur. Yəni, Trampa dilinə dinclik vermirdi. Hazırkı ABŞ Administrasiyasını, o cümlədən Prezident Co Bayadeni sərt tənqid edirdi.

Amma səbəb yalnız bu da olmaya bilər. Ümumən, Tramp xarakter baxımından xeyli dərəcədə qeyri-ordinar adamdır. İpə-sapa yatmayandır. Vaxtilə onun davranışlarına nəzərən avantüristin prezident kreslosunu zəbt etdiyini deyənlər var idi. Belə bir rəy heç də əbəs deyildi. Çünki sabiq prezident bütün qayda və etiketləri pozurdu. Onun Birləşmiş Ştatların dərin dövlətinin konsepsiyasına zidd hərəkətlər etdiyini vurğulayanlar çoxdur. Bu mənada irəli sürülmüş ittiham o qədər də böyük sayılmamalıdır. Hərçənd əgər, sübuta yetirilsə, Trampa, nə az nə də çox, düz 136 il həbs cəzası düşür.

Hazırda Tramp ABŞ tarixində cinayət işi açılan ilk keçmiş prezidentdir. Siyasətçi israr edir ki, qanunsuz heç nə etməyib və siyasi təqibin qurbanıdır. Özünü "ABŞ tarixinin ən günahsız insanı" sayan sabiq dövlət başçısı yalnız qurbandırmı? Tam mümkündür ki, Tramp səs-küylü məhkəmə prosesini öz xeyrinə çevirsin. Üstəlik, keçmiş prezidentin cinayət təqibinin ABŞ üçün siyasi böhrana çevrilmə riski də aktualdır.

Məsələ burasındadır ki, Trampa qarşı məhkəmə prosesinin keçirildiyi binanın önünə yüzlərlə insan toplaşmışdı. Onların sırasında həm keçmiş prezidentin tərəfdarları, həm də əleyhdarları var idi. Buradakı mitinq irimiqyaslı iğtişaşlara çevrilməsə də, hər kəsdə təəssürat var idi ki, siyasətçiyə qarşı həyata keçirilənlər absurddur. Yeri gəlmişkən, ABŞ mediası da bu absurdizmin müxtəlif tərəflərinə kifayət qədər geniş yer verməkdədir.

İctimai rəy sorğularına əsasən, Donald Tramp ABŞ-ın Respublikaçılar Partiyası daxilindəki əsas rəqibi, Florida ştatının qubernatoru Ron DeSantisi xeyli geridə qoyur. Aprelin 1-də iki namizəd arasında fərq 26 faiz təşkil edirdi.

Görünür, hazırda Trampın gələcək uğuru, digər məsələlərlə yanaşı, onun cinayət işi ətrafında ajiotaj saxlaya bilib-bilməməsindən də asılıdır. Bu baxımdan bəzi siyasi ekspertlər Donald Trampın vəkillərinin məhkəmə prosesini prezident seçkilərinə qədər uzatmağa çalışacaqlarını vurğulayırlar. Maraqlıdır ki, bununla bağlı ajiotaj onun yüksək vəzifəyə seçilməsinə manee olmayacaq, əksinə, sabiq dövlət başçısına ciddi dividend qazandıracaq.

Trampın təmsil etdiyi Respublikaçılar Partiyasında isə qorxurlar ki, uzunmüddətli perspektivdə sabiq prezidentə qarşı cinayət işi Amerikanın siyasi sistemi üçün ciddi nəticələr verə bilər. Bu, mənfi presedent yaradar və digər keçmiş dövlət başçıları və siyasətçilər də cinayət təqibi ilə üzləşərlər.

Ümumən, beynəlxalq siyasi dairələrdə D.Trampın söz azadlığının qurbanı olduğunu da bildirənlər yetərincədir. Yuxarıda vurğuladığımız kimi, sabiq prezident xaraktercə çılğındır və ilk baxışdan qoyulan bütün tabuları pozmağa meyilli kimi görünürdü. Çıxışları və səsləndirdiyi bəyanatlar, ayrı-ayrı hadisə və proseslərə yanaşma tərzi də bundan xəbər verməkdədir.

**R.AMİN**

# Çin İran və Səudiyyə Ərəbistanının XİN başçılarını görüşdürüb

**Dünən Pekində İran və Səudiyyə Ərəbistanının xarici işlər nazirləri Hüseyn Əmir Abdullahiyan və Feysəl ibn-Fərhan arasında görüş keçirilib. İki ölkə öz aralarında diplomatik müasibətləri bərpa etdikləri barədə bəyanat veriblər. Bəyanata əsasən, səfirliklər və konsulluqlar qarşılıqlı olaraq yaxın iki ay ərzində açılacaq. İki ölkənin xarici işlər nazirlərinin Çinin vasitəçiliyi ilə görüşündən belə bir nəticə əldə olunub. Bu, İran və Səudiyyə XİN başçıları arasında ilk birbaşa görüş olub. Məlumatı "Euronews" verib.**



Qeyd edək ki, bu ölkələr arasında münasibətlər 2016-cı ildə pozulub. O vaxt Tehran və Ər-Riyad Yəməndəki münaqişə ilə bağlı bir-birinə zidd mövqe tutublar. Səudiyyə Ərəbistanında terrorizmə dəstək verməkdə ittiham olunan şiə din adamı öldürülüb və Tehranda isə krallığın səfirliyi hücuma məruz qalıb.

"Əl-Ərəbiyyə"nin məlumatına görə, iki ölkənin xarici işlər nazirləri birgə bəyanatda uçuşların və vizaların verilməsinin bərpa olunduğunu, səfirlik və konsulluqların yenidən açılması prosesinin başladığını bildiriblər. Birgə bəyanatda rəsmilər və ikitərəfli nümayəndə heyətləri arasında görüşlərin davam etdiriləcəyi və 2001-ci ildə imzalanmış təhlükəsizlik sazişinin bərpa olunacağı elan edilib.

Xatırladaq ki, bir bu il fevralın 15-də İran Prezidenti İbrahim Rəisi də Çində səfərdə olub və çinli həmkarı Si Cinpinlə görüşüb. Görüşdə iki ölkə liderləri dostluq münasibətlərini davam etdirmək, ticarət-iqtisadi əlaqələri dərinləşdirmək barədə razılıq əldə ediblər.

İran, eyni zamanda, keçən ilin sentyabrında Çin, Rusiya, Pakistan və Hindistanın üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatına daxil olmaq üçün ərizə verib.

**"Xalq qəzeti"**

# Litva Ukraynanın NATO-ya dəvət olunması barədə qətnamə qəbul edib

**Litva Seymi NATO-nun Vilnüsdə keçiriləcək yay sammitinə təqdim olunmaq üçün qətnamə qəbul edib.**



Litva Parlamentinin mətbuat xidmətinə istinadla xəbər verir ki, Qətnamədə Ukraynanın Alyansa qoşulması barədə rəsmi dəvət əks olunub.

Sənəddə deyilir ki, NATO-nun Vilnüsdə keçiriləcək sammitində Ukraynanı NATO-ya qoşulmağa dəvət etmək, şərait imkan verəndə onun üzvlüyü haqqında protokollar imzalamaq və ratifikasiya prosesinə başlamaq lazımdır.

Litva parlamentinin üzvləri hesab edirlər ki, bu addım NATO-nun Ukraynada və Avropada sülhə nail olmaq istəyini əks etdirən strateji qərarı olacaq.



**"Sabunçuavtomatikaquraşdırma" ASC-nin 2022 -ci il dekabrın 31-nə mühasibat balansı**

*manatla*

| Bölmələrin, maddələrin adları | Hesabat dövrü üzrə 2022-ci il | Əvvəlki dövr üzrə 2021-ci il |
|---|---|---|
| **AKTİVLƏR** | | |
| **Uzunmüddətli aktivlər** | | |
| Torpaq, tikili və avadanlıqlar | 136571.3 | 138057.3 |
| **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Qısamüddətli aktivlər** | | |
| Ehtiyatlar | 3322.93 | 12452.1 |
| Qısamüddətli debitor borcları | 92454.67 | 31305 |
| Sair qısamüddətli aktivlər | 4255.4 | 23066.9 |
| **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **CƏMİ AKTİVLƏR** | 236604.3 | 204881.3 |
| **Kapital** | | |
| Ödənilmiş nominal(nizamnamə) kapital | 152354 | 152354 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 33503 | 30853 |
| **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Qısamüddətli kreditor borcları | 50747.3 | 21674.3 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | 236604.3 | 204881.3 |



# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankı idarə heyətinin 4 aprel 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 10 nəfər fiziki şəxsə və 1 hüquqi şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

**"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların SİYAHISI**

| № | Lisenziya sahiblərinin adları | Lisenziyaların verilmə tarixi | Lisenziyaların nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Baxşəliyeva Aygün İlyas qızı | 30.03.2012 | 000621 | 2901678032 |
| 2 | Baxşəliyev Rövşən Puyan oğlu | 24.01.2014 | 080525 | 2900140982 |
| 3 | Cəfərova İlahə İlham qızı | 24.04.2015 | 080658 | 2903150902 |
| 4 | Əzimov Naim Əliyoldaş oğlu | 05.10.2018 | SA-0052 | 2904397842 |
| 5 | Hacı Fərid Məhəmməd oğlu | 28.04.2009 | 000085 | 1700960612 |
| 6 | İsayev Ələmdar İsrail oğlu | 18.08.2011 | 000468 | 1801425382 |
| 7 | İskəndərov Etibar İskəndər oğlu | 13.11.2010 | 000379 | 1501682052 |
| 8 | Manafov Firuz Sabbar oğlu | 14.08.2019 | SA-0164 | 1006003952 |
| 9 | Məmmədov Alim Xalid oğlu | 16.11.2018 | SA-0109 | 7100128362 |
| 10 | Məmmədov Samir Məmməd oğlu | 04.08.2014 | 000606 | 1303743612 |
| 11 | "Silk Rovv Travel" MMC | 30.07.2020 | SA-0108 | 1701973391 |

# Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

# Bakı Dövlət Universiteti

*2023-cü il üzrə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2023-cü il tarixli 261s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların 2023-cü il üçün doktorant və dissertant hazırlığı üzrə qəbul elan edir*

FƏLSƏFƏ DOKTORU PROQRAMI ÜZRƏ

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Fəlsəfə doktoru proqramı üzrə: Doktorantura | | | Dissertantura |
|---|---|---|---|---|---|
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1201.01 | Cəbr | 1 | | 1(MDU üçün məqsədli yer) | |
| 1202.01 | Analiz və funksional analiz | 2 | 1 | 1 | 1 |
| 1203.01 | Kompüter elmləri | 1 | | 1 | |
| 1206.01 | Ədədi analiz | 1 | 1 | | |
| 1211.01 | Diferensial tənliklər | 1 | | 1 | 1 |
| 1214.01 | Dinamik sistemlər və optimal idarəetmə | 1 | 1 | | 1 |
| 2002.01 | Deformasiya olunan bərk cisim mexanikası | 1 | | 1 | |
| 2003.01 | Maye, qaz və plazma mexanikası | 1 | 1 | | |
| 2108.01 | Astrofizika və ulduz astronomiyası | 1 | | 1 | |
| 2203.01 | Elektronika | 1 | 1 | | |
| 2206.01 | Molekulyar fizika | 1 | 1 | | |
| 2211.01 | Bərk cisimlər fizikası | 1 | 1 | | |
| 2212.01 | Nəzəri fizika | 1 | | 1 | |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | 1 | | |
| 2222.01 | Nanoquruluşların fizikası və texnologiyası | 2 | 1 | 1 | |
| 2301.01 | Analitik kimya | 1 | | 1 | |
| 2303.01 | Qeyri-üzvi kimya | 1 | | 1 | |
| 2304.01 | Makromolekullar kimyası | 1 | 1 | | |
| 2306.01 | Üzvi kimya | 1 | | 1 | |
| 2317.01 | Nanokimya və nanomateriallar | 1 | 1 | | |
| 2391.01 | Ekoloji kimya | 1 | | 1 | 1 |
| 2401.01 | Zoologiya | 1 | | 1 | 1 |
| 2406.01 | Biofizika | 1 | 1 | | |
| 2409.01 | Genetika | 1 | | 1 | |
| 2414.01 | Mikrobiologiya | 1 | | 1 | |
| 2417.01 | Botanika | 1 | | 1 | |
| 2422.01 | Biotexnologiya (o cümlədən bionano-texnologiyalar) | 1 | 1 | | |
| 2426.01 | Ekologiya | 1 | | 1 | 1 |
| 2503.01 | Geokimya, faydalı qazıntıların geokimyəvi axtarış üsulları | 1 | | 1 | |
| 2507.01 | Geofizika, faydalı qazıntıların geofiziki axtarış üsulları | 1 | | 1 | |
| 2511.01 | Torpaqşünaslıq | 1 | | 1 | 1 |
| 2512.01 | Ümumi və regional geologiya | 1 | | 1 | |
| 2520.01 | Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya | 1 | | 1 | |
| 2528.01 | Yer quruluşu, torpaq kadastrı və monitorinqi | 1 | | 1 | |
| 3356.01 | Kitabxanaşünaslıq, biblioqrafiya-şünaslıq və kitabşünaslıq | 1 | | 1 | 1 |
| 5101.01 | Mədəni antropologiya | 1 | 1 | | 1 |
| 5102.01 | Etnoqrafiya və etnologiya | | | | 1 |
| 5301.01 | Daxili fiskal siyasət və dövlət maliyyəsi | 1 | | 1 | 1 |
| 5302.01 | Ekonometriya-iqtisadi statistika | 1 | | 1 | 1 |
| 5303.01 | Mühasibat uçotu | 1 | | 1 | |
| 5304.01 | İqtisadi fəaliyyətin növləri | 1 | | 1 | |
| 5306.01 | Texnoloji innovasiyalar iqtisadiyyatı | 1 | | 1 | |
| 5307.01 | İqtisadi nəzəriyyə | 1 | | 1 | |
| 5308.01 | Ümumi iqtisadiyyat | 2 | | 2 (MDU üçün 1 məqsədli yer) | 1 |
| 5310.01 | Dünya iqtisadiyyatı | 2 | 1 | 1 | 1 |
| 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | 1 | 1 |
| 5312.01 | Sahə iqtisadiyyatı | 2 | 1 | 1 | 1 |
| 5401.01 | İqtisadi coğrafiya | 1 | | 1 | |
| 5402.01 | Tarixi coğrafiya, siyasi və rekreasiya coğrafiyası | 1 | 1 | | |
| 5406.01 | Hidrologiya | 1 | | 1 | |
| 5407.01 | Okeanologiya | 1 | | 1 | |
| 5408.01 | Fiziki coğrafiya və biocoğrafiya, torpaq coğrafiyası, landşaftların geofizikası və geokimyası | 1 | | 1 | |
| 5411.01 | Meteorologiya | 1 | | 1 | |
| 5502.01 | Ümumi tarix | 2 | 1 | 1 | 1 |
| 5503.01 | Ölkələr tarixi | 2 | 1 | 1 | 1 |
| 5503.02 | Vətən tarixi | 2 | 1 | 1 | 1 |
| 5507.01 | Beynəlxalq münasibətlər tarixi | 2 | 1 | 1 | 1 |
| 5508.01 | Tarixi coğrafiya | 1 | | 1 | 1 |
| 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | 1 | 1 | | 1 |
| 5603.01 | Beynəlxalq hüquq; insan hüquqları | 2 | 1 | 1 | 1 |
| 5606.01 | Dövlət və hüquq nəzəriyyəsi və tarixi; hüquq və dövlət haqqında təlimlər tarixi | 1 | | 1 | |
| 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | 2 | 1 | 1 | 1 |
| 5608.01 | Mülki hüquq: sahibkarlıq hüququ; ailə hüququ; beynəlxalq xüsusi hüquq | 1 | 1 | | 1 |
| 5609.01 | Əmək hüququ, sosial təminat hüququ | 2 | 1 | 1 | |
| 5610.01 | Təbii ehtiyatlar hüquqi; aqrar hüquq; ekologiya hüququ | 1 | 1 | | |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | 2 | 1 | 1 | |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 2 | 1 | 1 | 1 |
| 5614.01 | İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | 2 | 1 | 1 | 1 |
| 5615.01 | Mülki proses | 2 | 1 | 1 | |
| 5704.01 | Dil nəzəriyyəsi | 1 | 1 | | |
| 5706.01 | Azərbaycan dili | 2 | 1 | 1 | |
| 5710.01 | Türk dilləri | 2 | 1 | 1 | |
| 5711.01 | İran dilləri | 1 | | 1 | |
| 5713.01 | Sami dilləri | 1 | | 1 | |
| 5714.01 | Müqayisəli-tarixi və müqayisəli tipoloji dilçilik | 2 | 1 | 1 | 1 |
| 5715.01 | Ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid və təhlil | 1 | | 1 | |
| 5716.01 | Azərbaycan ədəbiyyatı | 1 | 1 | | |
| 5718.01 | Dünya ədəbiyyatı (ərəb, fars, rus) | 2 | 1 | 1 | |
| 5719.01 | Folklorşünaslıq | 2 | 1 | 1 | |
| 5720.01 | Jurnalistika | 2 | 1 | 1 | |
| 5801.01 | Təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (təhsilin sahələri və səviyyələri üzrə) | 2 | | 2 | 1 |
| 5802.01 | Təhsilin təşkili və planlaşdırılması | 1 | | 1 | |
| 5803.01 | Müəllim hazırlığı və fəaliyyəti | 1 | 1 | | 1 |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 2 | | 2 | 1 |
| 5901.01 | Beynəlxalq münasibətlər | 2 | 1 | 1 | |
| 5904.01 | Siyasi institutlar və sistemlər | 1 | 1 | | 1 |
| 5908.01 | Siyasi nəzəriyyə | 1 | | 1 | 1 |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | |
| 6106.01 | Eksperimental psixologiya | | | | 1 |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | |
| 6108.01 | Geriatrik psixologiya | 1 | | 1 | |
| 6111.01 | Şəxsiyyətin psixologiyası | 1 | | 1 | |
| 6114.01 | Sosial psixologiya | | | | 1 |
| 6116.01 | Klinik (tibbi) psixologiya | 1 | | 1 | |
| 6117.01 | Hüquqi psixologiya | | | | |
| 6307.01 | Sosial dəyişikliklər və inkişaf | 1 | | 1 | |
| 6310.01 | Sosial problemlər | 1 | | 1 | |
| 6312.01 | Sosiologiyanın nəzəriyyəsi, metodologiyası və tarixi | 1 | | 1 | |
| 6313.01 | Sosial struktur, sosial institutlar və proseslər | 1 | | 1 | |
| 6314.01 | Sosial iş | 1 | | 1 | 1 |
| 7203.01 | Ümumi fəlsəfə | | | | 1 |
| 7207.01 | Sosial fəlsəfə | | | | 1 |
| 7210.01 | Fəlsəfə tarixi | 1 | | 1 | 1 |
| | Cəmi | [illegible] | 42 | [illegible] | 9 |

**Qeyd**: *–Dissertant hazırlığı üzrə adambaşına maliyyələşmə nəzərdə tutulmadığı üçün dissertanturada hazırlıq ali təhsil müəssisələrinin öz əməkdaşları üçün həmin müəssisənin hesabına, digər şəxslər üçün isə ödənişli olacaq.

ELMLƏR DOKTORU PROQRAMI ÜZRƏ

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Elmlər doktoru proqramı üzrə: Doktorantura | | | Dissertantura |
|---|---|---|---|---|---|
| | | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla, o cümlədən: əyani | qiyabi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla* |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| 1202.01 | Analiz və funksional analiz | 1 | | 1 | |
| 2206.01 | Molekulyar fizika | | | | 1 |
| 2220.01 | Yarımkeçiricilər fizikası | 1 | | 1 | |
| 2306.01 | Üzvi kimya | | | | 1 |
| 2391.01 | Ekoloji kimya | | | | 1 |
| 2409.01 | Genetika | | | | 1 |
| 2520.01 | Bərk faydalı qazıntıların geologiyası, axtarışı və kəşfiyyatı, minerageniya | | | | 1 |
| 2528.01 | Yer quruluşu, torpaq kadastrı və monitorinqi | 1 | 1 | | |
| 5101.01 | Mədəni antropologiya | 1 | | 1 | |
| 5102.01 | Etnoqrafiya və etnologiya | | | | 1 |
| 5503.01 | Ölkələr tarixi | | | | 1 |
| 5503.02 | Vətən tarixi | 1 | | 1 | |
| 5509.01 | Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları | 1 | | 1 | |
| 5607.01 | Konstitusiya hüququ; bələdiyyə hüququ | 1 | | 1 | |
| 5614.01 | İnzibati hüquq; maliyyə hüququ; informasiya hüququ | 1 | | 1 | |
| 5615.01 | Mülki proses | | | | 1 |
| 5713.01 | Sami dilləri | 1 | 1 | | |
| 5718.01 | Dünya ədəbiyyatı (ərəb, fars, rus) | 1 | | 1 | |
| 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi | 1 | | 1 | |
| 6104.01 | Pedaqoji psixologiya | 1 | | 1 | |
| 6107.01 | Ümumi psixologiya | 1 | | 1 | |
| 6117.01 | Hüquqi psixologiya | | | | 1 |
| | Cəmi | 3 | 2 | 11 | 9 |

Doktoranturaya (dissertanturaya) sənədlərin qəbulu 2023-cü il aprelin 12-dən mayın 16-dək "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytında qeydiyyatdan keçməlidirlər. Qəbul qaydaları haqqında ətraflı məlumatı BDU-nun magistratura və doktorantura şöbəsindən və rəsmi internet səhifəsindən (*www.bsu.edu.az, http://md.bsu.edu.az*) əldə etmək olar. Telefon- +99412- 539-06-71.

# Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası

## *2023-cü il üçün fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul elan edir*

**Doktorantura**

| Elm sahələri və ixtisaslar | Şifrələr | Cəmi | Dövlət sifarişli və ödənişli əsaslarla: əyani | qiyabi |
|---|---|---|---|---|
| **SİYASİ ELMLƏR:** | **59** | | | |
| Beynəlxalq münasibətlər | 5901.01 | 1 | 1 | - |
| Davamlı inkişafın idarə edilməsi | 5902.17 | 2 | 1 | 1 |
| Siyasi institutlar və sistemlər | 5904.01 | 2 | 1 | 1 |
| Siyasi nəzəriyyə | 5908.01 | 1 | 1 | - |
| Dövlət idarəçiliyi | 5909.01 | 4 | 1 | 3 |

**Dissertantura**

| Elm sahələri və ixtisaslar | Şifrələr | Cəmi | Ali təhsil müəssisəsinin büdcəsi hesabına və ödənişli əsaslarla |
|---|---|---|---|
| **SİYASİ ELMLƏR:** | **59** | | |
| Beynəlxalq münasibətlər | 5901.01 | 1 | 1 |
| Siyasi institutlar və sistemlər | 5904.01 | 1 | 1 |
| Dövlət idarəçiliyi | 5909.01 | 1 | 1 |

Doktoranturaya sənəd qəbulu 2023-cü il mayın 16-dək "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi" (TMİS) vasitəsilə elektron qaydada həyata keçiriləcəkdir. Doktoranturaya sənəd təqdim etmək istəyən şəxslər Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin portal.edu.az saytına daxil olmalı, orada "Ali və orta ixtisas təhsil müəssisələrinə təhsilalan qeydiyyatı" xidmətini seçərək, təlimatlara uyğun olaraq qeydiyyatdan keçməlidirlər.

Xarici dil imtahanını müvəffəqiyyətlə vermiş şəxslər üçün fəlsəfə fənni üzrə imtahan 2023-cü il sentyabrın 4-ü, 5-i və 6-da, ixtisas imtahanı isə sentyabrın 11-i, 12-si və 13-də keçiriləcəkdir.

**TELEFON- (012) 492-65-52.**

**ÜNVAN-Bakı, Lermontov küçəsi 74, Elmi təşkilat və beynəlxalq əlaqələr şöbəsi, 34-cü otaq.**

# "Şəki Kimyəvi Təmizləmə" ASC səhmdarlarının nəzərinə!

24 may 2023-cü il saat 11.00-da "Şəki Kimyəvi Təmizləmə" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2022-ci ilin yekunlarının müzakirəsi.
2. Digər məsələlər.

Səhmdarların ümumi yığıncaqda şəxsiyyəti təsdiq edən sənədlə iştirakı vacibdir.

Əlaqə telefonu – 055-762-03-60, 077 – 762-03-60

Ünvan – Şəki şəhəri, Oğuz şosesi 4.

*7 Aprel Ümumdünya Sağlamlıq Günüdür*

# Sağlamlığın qorunması qlobal hədəfdir

**Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) yarandığı 1948-ci il aprelin 7-si Ümumdünya Sağlamlıq Günü kimi qəbul edilib. Dünyanın 194 ölkəsi, o cümlədən Azərbaycan təşkilata üzv qəbul olunub. Azərbaycanda bu gün 1950-ci ildən ənənəvi olaraq qeyd edilir. Həmin gün ictimaiyyətin diqqəti ÜST-nin prioritet hesab etdiyi sağlamlığa aid qlobal miqyasda vacib əhəmiyyət kəsb edən mövzulara yönəldilir və müxtəlif şüarlar altında keçirilir.**



İndiyədək Ümumdünya Səhiyyə Təşkilatına üzv ölkələrdə "Fəallıq uzun ömür yaşamağa aparan yoldur", "Hamiləlik həyatda xüsusi hadisədir. Onu təhlükəsiz edək!", "Sağlamlığı iqlim dəyişikliyindən qoruyaq!", "1000 şəhər – 1000 həyat" və digər çağırışlar altında qeyd edilib. Üzv ölkələrdə olduğu kimi, bizdə də həmin gün şüarlar çərçivəsində mütəxəssislər tərəfindən treninqlər, təlimlər keçirilir. Həmin toplantılarda müraciətlərə baxılır, müayinə və müalicəyə ehtiyacı olanlara düzgün istiqamət verilir, insanların problemlərinə dəstək nümayiş etdirilir.

Yaranmasının 70-ci ilində ÜST dünya dövlətlərini və onların liderlərini insanların sağlamlığının möhkəmləndirilməsi və keyfiyyətli səhiyyə xidmətləri ilə təmin edilməsində maliyyə problemlərinin həlli üçün konkret tədbirlər görməyə çağırıb.

2021-ci il aprelin 6-da ÜST-nin Cenevrədə yerləşən mənzil-qərargahında Sağlamlıq Günü münasibətilə keçirilən toplantıda təşkilatın rəhbəri Teodor Gebreyesusun təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyevin videomüraciəti təqdim olunub. Qeyd edək ki, tədbirdə cəmi 4 ölkənin dövlət və hökumət başçısının videomüraciəti yayımlanıb.

Dövlət başçımız videomüraciətdə həmin dövrdə sağlamlığın əhəmiyyətinin daha da artmasının və müasir, yüksək keyfiyyətli səhiyyə sisteminə sahib olmağın hər bir ölkə üçün prioritet olduğunu bildirib. Ölkəmizin səhiyyə sistemində əhəmiyyətli dəyişikliklər baş verdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycanda icbari tibbi sığorta tətbiq etməklə ilkin və təcili tibbi yardımın gücləndirilməsi və xidmətlərin yenilənməsi, ölkədə elektron səhiyyə platforması və rəqəmsallaşmanın təmin edilməsi uğurlu dəyişikliklərdir.

Prezident həmin il Ümumdünya Sağlamlıq Gününün "Daha ədalətli və daha sağlam dünyanın qurulması" mövzusuna həsr olunduğunu qeyd edib. Ölkəmizin peyvəndlərin paylanmasında ədalətliliyi dəstəkləyərək, BMT-nin İnsan Hüquqları Şurasında bununla bağlı qətnamə layihəsi irəli sürdüyünü bildirib: "Azərbaycan, həmçinin COVAX təşəbbüsünə qoşulan və onu dəstəkləyən ilk ölkələrdən biri olub. Biz və bütün beynəlxalq ictimaiyyət bu təşəbbüsün pandemiya ilə mübarizədə əməkdaşlıq və həmrəylik modeli olmağını gözləyir".

**ATU-nun Tədris Cərrahiyə Klinikasının şöbə müdiri, tibb üzrə fəlsəfə doktoru Nurlana Əliyeva Sağlamlıq Gününün qeyd edilməsinin məqsədi ilə bağlı deyir:**

– ÜST-nin hesablamalarına əsasən qarşısı alınmayan ekoloji səbəblərin yaratdığı xəstəliklərdən hər il dünyada 13 milyon nəfər həyatını itirir. Səhiyyə xidmətlərinin əhatə dairəsinin genişləndirilməsi, xəstəliklərin düzgün müalicəsinin aparılması 2030-cu ilə qədər qarşıda duran əsas məsələlərdən biridir. Uzun və sağlam ömür yaşamağa nail olmaq və sağlamlığın qorunub möhkəmləndirilməsi ictimai səhiyyənin qarşısında duran başlıca vəzifələrdən sayılır.

Həmin günün məqsədləri sırasına sağlamlıq qaydalarına düzgün əməl olunması, səhiyyə məsələlərinin həllində dövlət orqanlarına kömək edilməsi, həkimlərin peşəkarlığının artırılması, düzgün qidalanma, idmanın və sağlam həyat tərzinin təbliği, gənclər arasında sağlam vərdişlərin yayılması, yaşlılara və sağlamlıq imkanları məhdud olanlara güzəştli şəraitin yaradılması, siqaret çəkməyin, alkoqollu içkilər və narkotik vasitələrin zərəri barədə məlumatlandırma, profilaktik prosedurların təyini və digər məsələlər daxildir.

**Zərifə BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

# Şair qələminin halallıq hesabatı

**Sumqayıtda yerli ziyalılar, paytaxtdan və xaricdən gəlmiş qonaqlar tanınmış şair İbrahim İlyaslının anadan olmasının 60 illiyini sevgi-sayğı ilə qeyd etdilər.**



Onun yubileyinə gedərkən xatırladım ki, İbrahim İlyaslı həmişə üstündə qələm gəzdirən şairlərdəndir. Bu, yəqin ki, qələmin onun üstündə böyük haqqı olmasından irəli gəlir. Axı şair duyğu-düşüncələrin bağlı qapısını məhz qələmi ilə açıb. Elə qələmindən çıxan şeirləri ilə də sevilə-sevilə gəlib ömrün 60-na çatıb. Qələmi fənər kimi yolunu işıqlandırıb. Şair dostum üçün qələm halallıq çeşməsidir:

***Bu şeirdə şeytan barmağı varsa,***
***Məni bu qələmdən qoru, İlahi!***

Bu poetik duadan təsirlənərək düşündüm ki, İbrahimin şeir dünyası da elə halallıq bulağından süzülüb, göllənib. Bu əhvalla sənət dostumu təbrik elədim.

İbrahim İlyaslı on illərdir ki, Sumqayıt Poeziya evinə rəhbərlik edir. Prezident təqaüdünə ilk layiq görülənlərdəndir. "Tərəqqi" medalı ilə təltif olunub. Azərbaycan Yazıçılar Birliyi poeziya bölməsinin rəhbəridir. Türk Ədəbiyyatı Vəqfının fəxri üzvüdür. Nüfuzlu "Qızıl kəlmə" mükafatçısıdır. Türk ölkələrindən də dəyərli təltifləri var. "Bu bahar oldu" adlı ilk mətbu şeiri Texniki Universitetin çoxtirajlı qəzetində dərc edilib. Bu uğurlu yolun davamında istedadlı, sözü urvatlandıran şair kimi tanınıb.

Sumqayıt Dövlət Dram Teatrında keçirilən mərasimdə şeir xiridarları bütün bunlar barədə geniş söz açdılar. Şəhər rəsmiləri, deputatlar, şair dostları, poeziyasevərlər yubilyarı səmimi təbrik etdilər. Bir şairin ömür hesabatı bir şəhərin sənət bayramına çevrildi.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

**Sağlamlıq guşəsi**

## Xəstəliyin 5 mesajı

***Orqanizmdə baş verən dəyişiklikər müxtəlif xəstəliklərin xəbərçisi ola bilər. Adi vaxtdan fərqli olaraq bəzən hiss etdiyiniz beş siqnal sağlığınızdakı problemlərdən xəbər verə bilər. Buna görə də hər dəyişiklik barədə düşünmək lazımdır. Həmin 5 dəyişikliyi diqqətinizə çatdıraq.***



**Başgicəllənmə** – çox sürətlə yeriməyin, qəflətən ayağa qalxmağın və ya bir qədər susuzluğun nəticəsi ola bilər. Ancaq başgicəllənmə beyin, qan damarları, ürək və ya mədə-bağırsaq sistemində problemin siqnalı da ola bilər. Digər mümkün səbəb anemiyanı xarakterizə edən aşağı hemoqlobin tərkibidir.

Başgicəllənməyə səbəb olan digər problemlər də var. Bunlar daxili qulağın viral infeksiyası, hipertoniya, çox aşağı qan təzyiqi, yüksək və ya həddindən artıq aşağı qan şəkəri və qalxanabənzər vəzinin xəstəlikləri.

**Tərləmə** – və ya hiperhidroz menopoz, piylənmə, normadan artıq məşq nəticəsində yaranır. Həddindən artıq tərləməyə tiroid vəzi ilə bağlı problemlər, diabet, ürəyin işində pozuntular, infeksiyalar və xərçəng də səbəb olar.

**Soyuqluq** – başqa sözlə, davamlı üşümə hissi hipotiroidizm, anemiya, zəif qan dövranı, hipoqlikemiya (aşağı qan şəkəri), dəmir və ya müəyyən vitamin çatışmazlığı kimi sağlamlıq problemləri haqqında bədəndən gələn bir siqnaldır.

**Səbəbsiz arıqlama** – nəzarətsiz çəki itkisi tez-tez stress, depressiya vəziyyətində baş verir və ya dərmanların, eləcə də parazitlərin infestasiyasının yan təsiri kimi baş verir. Səbəbsiz çəki itkisi qalxanabənzər vəzinin xəstəlikləri, mədə-bağırsaq traktının patologiyaları, ürək-damar xəstəlikləri, QİÇS, demans, xərçəng kimi xəstəliklər zamanı da müşahidə edilir.

**Dəridə ləkələr** – qeyri-adi xal və ya ləkələr dəri xərçənginin əlaməti də ola bilər. Dəri Xərçəngi Fondunun məlumatına görə, əgər xal və ya çillər yuvarlaq, simmetrikdirsə və forması dəyişmirsə, narahat olmağa dəyməz. Lakin böyüyərsə, asimmetrik görünürsə və ya sərhədləri aydın deyilsə, onlar melanoma – dəri xərçənginin əlaməti ola bilər.

## Pəhriz faydalıdırmı?

***Son zamanlar gah ət və heyvan mənşəli məhsullardan, gah da bitki mənşəli qidalardan imtina etmək məsləhətlərini çox eşidirik. Veqanizm tərəfdarları deyirlər ki, qidalanmaya bu cür yanaşma sağlam qalmağa və uzun yaşamağa kömək edir. Müasir tədqiqatlar isə sübut edir ki, bitki əsaslı pəhriz çox zərərli ola bilər və hətta vaxtından əvvəl ölüm riskini 23 faiz artırar. İrlandiya, İsveçrə, Böyük Britaniya, İspaniya, Fransa və Almaniya alimləri bu qənaətə gəliblər. Tədqiqatçılar pəhrizdəki hər bir maddəni qiymətləndiriblər. Heyvan qidası, sıfırdan aşağı bal alıb. Bütün taxıllar, meyvələr, tərəvəzlər (kartof istisna olmaqla), lobya, qoz-fındıq, qəhvə, çay isə ən yüksək nəticə əldə edib.***

Ancaq elm adamları "sağlam olmayanlara" təmizlənmiş taxıl məhsulları, kartof, şirin limonadlar, meyvə şirələri, konfetlər də daxil etdilər. Yəni, təkcə ət və digər heyvan mənşəli məhsullar deyil, həm də şərti olaraq bəzi bitki qidaları da "sağlam deyil".

Nəticədə tədqiqatın müəllifləri qida növünə görə 17 qrupun hər birinin reytinqini ümumiləşdiriblər. Pəhriz sağ-




lamlıq indeksi yüksək olan insanlarda ümumi səbəblərdən ölüm riski 0,84, xərçəngə tutulma riski 0,92, ürək-damar xəstəlikləri riski 0,92, miokard infarktı 0,86, işemik insult riski 0,86–0,84 olmuşdur. Belə nəticəyə gəliblər ki, hər növ pəhriz unudulsun. Hər qidadan, amma az-az yemək məqsədəuyğun hesab edilsin.

***Z.HÜSEYNOVA,***
***"Xalq qəzeti"***

**İDMAN XƏBƏRLƏRİ**

### Teplitsedə mübarizə başlayır

***Aprelin 8-də Çexiyanın Teplitse şəhərində yeniyetmələr arasında Avropa Kuboku yarışları start götürəcək. Azərbaycan Cüdo Federasiyasından bildiriblər ki, turnirdə 39 ölkədən 948 idmançı iştirak edəcək.***

Ölkəmiz yarışda 14 çəki dərəsində 20 oğlan və 8 qız cüdoçu ilə təmsil olunacaq.

Cüdoçulara yeniyetmələrdən ibarət komandanın baş məşqçisi Rüstəm Alimli, yeniyetmələrdən ibarət komandanın məşqçiləri Nicat Şıxəlizadə və Emin İskəndərov, yeniyetmə qızlardan ibarət yığmanın baş məşqçisi Elnur İsmayılov və gənc qızlardan ibarət yığmanın məşqçisi Kifayət Qasımova rəhbərlik edəcəklər.






İdmançılarımız 10-11 aprel tarixlərində Teplitsedə təşkil olunacaq təlim-məşq toplanışına qatılacaqlar.

Qeyd edək ki, yarışda Azərbaycan Cüdo Federasiyasının "B" kateqoriyalı beynəlxalq dərəcəli hakimi Akif Tahirov ədalət təmsilçiləri arasında yer alacaq.

### Antalyada təlim-məşq

***Cüdoçularımızın Türkiyənin Antalya şəhərində keçirilən beynəlxalq təlim-məşq toplanışı davam edir. Azərbaycan cüdo Federasiyasının məlumatına görə, hazırlıq prosesində İsrail, Moldova, Rumıniya, Türkiyə, Ukrayna, Qazaxıstan, Özbəkistan, Polşa, İtaliya və digər ölkələrdən 200-dən çox cüdoçu iştirak edir.***

Təlim-məşq toplanışına Azərbaycanın cüdo üzrə böyüklərdən ibarət yığma komandasının 23 üzvü və gənclərdən ibarət millisinin 14 üzvü qatılıb.

Cüdoçulara Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədli başda olmaqla performans direktoru Mark van der Ham, böyüklərdən ibarət yığmanın baş məşqçisi Riçard Trautman, böyüklərdən ibarət yığmanın məşqçi Elçin İsmayılov gənclərdən ibarət yığmanın baş məşqçisi Elxan Məmmədov və gənclərdən ibarət yığmanın məşqçisi Elxan Rəcəbli rəhbərlik edir.

Təlim-məşq toplanışı 7-13 may tarixlərində Qətərin paytaxtı Dohada təşkil ediləcək böyüklər arasında Dünya çempionatına, həmçinin sentyabr və oktyabr aylarında keçiriləcək gənclər arasında Avropa və Dünya çempionatlarına hazırlıq məqsədi daşıyır.

Qeyd edək ki, təlim-məşq toplanışı sabah başa çatacaq.

### Taekvondoçularımız Buxarestdə

***Taekvondo üzrə Azərbaycan millisi aprelin 8-də Rumıniyanın paytaxtı Buxarestdə start götürəcək üçüncü Avropa Oyunlarına lisenziya xarakterli təsnifat turnirində iştirak edəcək.***



Baş məşqçi Reza Mehmandostun rəhbərliyi altında Səyyad Dadaşov (54 kq), Xanoğlan Kərimov (63 kq), Ələsgər Əliyev (80 kq) və Həmidreza Bədriəliabadi (+87 kq) yarışda qüvvələrini sınayacaqlar.

Turnirdə hər çəki dərəcəsinin qalibi Krakov-2023-də iştirak hüququ qazanacaq.

Qeyd edək ki, Polşanın Krakov şəhərində keçiriləcək üçüncü Avropa Oyunlarında Azərbaycanın 7 taekvondoçusunun iştirakı artıq təsdiqlənib. Reytinqə əsasən, Qaşım Maqomedov (58 kq), Cavad Ağayev (68 kq), Eltac Qafarov (74 kq), Taleh Süleymanov (87 kq), Minayə Əkbərova (46 kq), Patimat Abakarova (49 kq) və Fəridə Əzizova (67 kq) Krakov-2023-ə vəsiqə əldə ediblər. Avropa Oyunlarında taekvondo yarışları iyunun 23-26-da keçiriləcək.

Qeyd edək ki, dünən Rumıniyaya yollanan taekvondoçular aprelin 10-da Bakıya qayıdacaqlar.

***Elçin AĞAMİRZƏ,***
***"Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Aprelin 7-də***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, gün ərzində əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə və səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək. Gecə 7-10°, gündüz 15-19° isti olacaq. Atmosfer təzyiqi 760 mm civə sütunu, nisbi rütubət 70-80 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-11°, gündüz 16-21° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5°, gündüz 9-14° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşam yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 0-5°, gündüz 8-13° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 6-11°, gündüz 14-18° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 4-8°, gündüz 13-18°, dağlarda gecə 0-4°, gündüz 4-7° isti olacaq.

✓ **Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 8-11°, gündüz 16-21° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şərq küləyi əsəcək. Gecə 7-10°, gündüz 15-18°, dağlarda gecə 7-9°, gündüz 13-18° isti olacaq.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5007
SİFARİŞ 819
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00